# HƏYAT BİLGİSİ

## Metodik vəsait

1





GÜLƏR MEHDİYEVA
AYGÜN HƏŞİMOVA

Ümumtəhsil məktəblərinin 1-ci sinfi üçün

# Həyat bilgisi

fənni üzrə dərsliyin

# Metodik vəsaiti

**Bu nəşrlə bağlı irad və təkliflərinizi aspoligraf.ltd@gmail.com və derslik@edu.gov.az elektron ünvanlarına göndərməyiniz xahiş olunur. Əməkdaşlığa görə əvvəlcədən təşəkkür edirik!**

"ASPOLİQRAF"

# KİTABIN İÇİNDƏKİLƏR

Giriş ....................................................................................................3
Dərsliyin strukturu ....................................................................................................4
Həyat bilgisi təliminin təşkilinə verilən əsas tələblər ....................................................................................................5
Şagird nailiyyətlərinin qiymətləndirilməsi ....................................................................................................7
Təlim nəticələri və məzmun standartları ....................................................................................................8
İllik planlaşdırma və inteqrasiya cədvəli ....................................................................................................10

**I. TƏBİƏT VƏ BİZ**
1. Canlılar və cansızlar .................................................................................................... 12
2. Heyvanlar ....................................................................................................14
3. Bizi əhatə edən təbiət ....................................................................................................16
4. Ərtaf mühit ....................................................................................................18

**II. TƏBİƏT HADİSƏLƏRİ**
5. Gecə və gündüz .................................................................................................... 21
6. Yaz ....................................................................................................23
7. Yay .................................................................................................... 25
8. Payız .................................................................................................... 27
9. Qış .................................................................................................... 29

**III. ƏTRAFIMIZDAKI İNSANLAR**
10. Siz və dostlarınız ....................................................................................................32
11. Ailə .................................................................................................... 34
12. Kollektiv .................................................................................................... 36
13. Ünsiyyət .................................................................................................... 38
14. Hüquqlarımız və vəzifələrimiz ....................................................................................................40

**IV. VƏTƏNİMİZ**
15. Azərbaycanın dövlət rəmzləri ....................................................................................................43
16. Azərbaycan – Odlar Yurdu ....................................................................................................45
17. Azərbaycan pulu ....................................................................................................47
18. Ölkəmizdə dinlər ....................................................................................................49

**V. SAĞLAMLIĞIMIZ**
19. Təmizkar olaq ....................................................................................................52
20. Yuxu və istirahət ....................................................................................................54
21. Qidalarımız ....................................................................................................56
22. Düzgün qidalanaq ....................................................................................................58

**VI. TƏHLÜKƏSİZLİYİMİZ**
23. Evdə ....................................................................................................61
24. Həyətdə və küçədə ....................................................................................................63
25. Yolda və nəqliyyatda ....................................................................................................65
26. Təbii fövqəladə hadisələr ....................................................................................................67
27. Qəza baş verərsə ....................................................................................................69

Ədəbiyyat siyahısı ....................................................................................................71

# GİRİŞ

**Hörmətli müəllimlər!**

Müəllim üçün metodik vəsaitin hazırlanmasında bu fənnin təlimi qarşısında qoyulan məqsədləri müəyyənləşdirən və həmin məqsədlərin həyata keçirilməsi istiqamətində zəruri fəaliyyətləri əks etdirən konseptual kurikulum sənədi əsas götürülmüşdür.

Müəllim üçün metodik vəsaitin hazırlanması zamanı aşağıdakı məqamlar diqqət mərkəzində saxlanılmışdır:

məktəbə ilk dəfə gələn uşağın fiziki və psixi inkişafı;

uşaqda idrak proseslərinin inkişafı;

uşaqda hisslərin inkişafı;

uşaq şəxsiyyətinin formalaşması xüsusiyyətləri.

Kiçikyaşlı şagirdlərin psixi inkişafının özünəməxsus keyfiyyətləri vardır. Bu yaş dövründə uşaqların iradi diqqəti nisbətən zəif inkişaf etmiş olur. Onlar uzun müddət fikirlərini toplamaqda çətinlik çəkirlər.

Bu yaş dövrünü səciyyələndirən xüsusiyyətlərdən biri də təfəkkürün inkişafıdır. Bu yaş dövründə bilik ehtiyatları və təcrübələri az olduğu üçün məktəblilər hələ şəkillər, rənglər, səslər və duyğularla düşünür, çox vaxt cisim və hadisələrin yalnız müəyyən əlamət və keyfiyyətlərini qavrayırlar. Cisimlərin mahiyyətinin dərindən təhlili və dərk olunması onlar üçün hələ çətindir. Ona görə də kiçik məktəb yaşının əvvəllərində şagirdlərin qavrama prosesi qavranılan obyekti yalnız tanımaq və onu adlandırmaqla məhdudlaşır.

Kiçik məktəb yaşının xüsusiyyətlərini nəzərə alaraq mövzuların təqdimatında biz hadisələri əks etdirən tək-tək şəkillərə deyil, bütöv kompozisiyalara üstünlük vermişik. Bu cür yanaşma haqqında danışılan varlıq və hadisələrin həyat və məişət kontekstində görülməsini təmin etməklə qavramanı asanlaşdırır, mövzuları çox sadə və anlaşıqlı edir. Dərsliyin bu xüsusiyyəti uşağın mövzuları çətinlik çəkmədən, yorulmadan öyrənməsinə istiqamətlənmişdir.

Birinci sinfə gələn uşaq yeni mühitə düşməsi ilə bağlı mürəkkəb və ziddiyyətli hisslər keçirir. O fəxr edir ki, artıq məktəblidir. Eyni zamanda hələ yaxşı tanımadığı bir aləmdə onu nə gözlədiyinin həyəcanını yaşayır: “Görəsən, məktəbdə necə olacaq? Tapşırıqları yerinə yetirə biləcəyəmmi? Yoldaşlarım, müəllimim necə olacaq?” və s. Müəllimin qiymətləndirməsi və təlimdə əldə etdiyi nəticələrin təsiri altında kiçik məktəblilərdə özünüqiymətləndirmə formalaşmağa başlayır. Təcrübə göstərir ki, təlimdəki çətinliklərdən, müəllimin və valideynlərin tənqidi qeydlərindən asılı olaraq uşaqda öz gücünə inamsızlıq, təlimə marağın itməsi halları müşahidə olunur. Əksinə, uşaq təlimdə uğurlar əldə edərsə, özünüqiymətləndirmə ilə bağlı onda öz gücünə inam formalaşır. Bu mənada “Həyat bilgisi 1” dərsliyi şagirdlərin yaxşı nəticələr əldə etməsi və özünə inamının artmasına kömək edəcəkdir.

Dərslik öz parametrlərinə görə respublikamızın bütün ümumtəhsil məktəblərində heç bir çətinlik doğurmadan, uğurla istifadə edilə bilər. Müəllim üçün metodik vəsaitdə dərslikdəki mövzuların tədrisi texnologiyaları təqdim olunmuşdur. Bu dərs modellərində kiçik məktəblilərin yaş xüsusiyyətlərinə ən uyğun strategiyalar seçilmişdir.

Bununla belə qeyd etməyi vacib sayırıq ki, vəsait tövsiyə xarakteri daşıyır. Təcrübəli müəllimlər hər bir mövzunun tədrisi zamanı sinfinin səviyyəsini nəzərə alıb özləri müvafiq texnologiyaları tətbiq edə bilərlər.

## DƏRSLİYİN STRUKTURU

Dərslikdə 6 tədris vahidi, 27 mövzu vardır. Tədris vahidləri və mövzular 1-ci sinif şagirdlərinin yaş xüsusiyyətləri nəzərə alınmaqla və sadədən mürəkkəbə prinsipi gözlənilməklə tərtib olunmuşdur. Hər tədris vahidində 4–5 mövzu vardır. Tədris vahidlərinin sonunda ümumiləşdirici dərs nəzərdə tutulur. Tədris ilinin sonunda isə illik materialı əhatə edən ümumiləşdirici dərs aparılır. Bu, əldə edilən elmi biliklərin və qazanılan bacarıqların möhkəmləndirilməsi üçün faydalıdır.

Dərs ilinin əvvəlindən sonuna doğru tədris vahidləri **"Təbiət və biz"**, **"Təbiət hadisələri"** nisbətən **"Ətrafımızdakı insanlar"**, **"Vətənimiz"**, **"Sağlamlığımız"**, **"Təhlükəsizliyimiz"** mövzu baxımından sadədən mürəkkəbə inkişaf etdirilir. Tədris vahidlərinin və mövzuların bu cür təqdimatı yuxarıda qeyd olunduğu kimi, məktəbə yenicə gələn uşaqların yaş xüsusiyyətlərinə uyğundur. İlk üç tədris vahidi üzrə təlim uşaqlarda varlıq və hadisələr barədə biliklərə qarşı maraq və sevgi yaradır, onların əqli qabiliyyətlərini inkişaf etdirir. Şagirdlər təbiətin qorunması, ona qayğı ilə yanaşmaq barədə ilk məlumata da məhz bu tədris vahidlərinin vasitəsi ilə nail olurlar. Tədris prosesində ətraf aləmin daha dərindən dərk olunması və öz praktik işində biliklərdən istifadə edilməsi istəyi baş qaldırır. Uşaqlar varlıqları və ətraf aləmdə baş verən hadisələri, təbiətdə baş verən dəyişiklikləri, ayrı-ayrı fəsillərin əlamətlərini müşahidə etməyi, bu hadisələrdə oxşarlığı və fərqləri tapmağı, onlar arasında adi əlaqələri müəyyənləşdirməyi, yaşlarına uyğun olaraq müşahidə elədiyi faktlardan nəticələr çıxarmağı və ümumiləşdirmələr aparmağı öyrənirlər.

Müşahidələr, ekskursiyalar, əşya dərsləri, tədris-təcrübə sahəsində praktik işlər, heyvanlar və bitkilərə qulluq edilməsi bu mövzuların daha canlı, maraqlı tədrisinə səbəb olur. Bu isə uşaqlarda müşahidəçilik, tədqiqatçılıq bacarığını inkişaf etdirir.

İlk tədris vahidlərinə daxil olan mövzular təbiətlə, ətrafımızda baş verən hadisələrlə bağlı olduğuna görə fəaliyyətlərdə tapmacalar çox səmərəli ola bilər. Buna görə də müəllimə yardım məqsədi ilə dərslikdə mövzularla bilavasitə əlaqəli olan tapmacalar yerləşdirmişik.

İbtidai siniflərdən başlayaraq şagirdlər ictimai mühit haqqında ilk təsəvvürlərə, anlayışlara yiyələnir, Vətənimiz, onun tarixi, adət-ənənələri haqqında sadə biliklər əldə edirlər. Bu mənada 1-ci sinif tanışlıq xarakteri daşıyır. Şagirdlər dövlətimizin necə adlanmasını, onun rəmzlərinə hörmət etməyin vacibliyini, ictimai yerlərdə davranış qaydalarına əməl etməyin onların özləri üçün faydalı olmasını anlayırlar. Ünsiyyət qaydalarını mənimsəmək və bacarığa çevirmək sahəsində ilk addımlarını atırlar. Dərslikdə əsasən 2-ci yarımil üçün nəzərdə tutulmuş mövzular bu bilik və bacarıqların əldə edilməsinə istiqamətlənmişdir.

**"Fərd və cəmiyyət"**, **"Mənəviyyat"** məzmun xətlərinə aid standartların reallaşdırılmasına xidmət edən ilk tədris vahidi "Ətrafımızdakı insanlar" adlanır. Bu tədris vahidində ailə və kollektiv, qayda, hüquq kimi anlayışların mahiyyətini açmaq, şagirdlərin bu anlayışları ən sadə tərzdə başa düşüb şərh etməsi, çıxardığı nəticə və ümumiləşdirmələri gündəlik həyatında tətbiq etməsi əsas məqsəd kimi qarşıya qoyulur. Yuxarıda qeyd olunduğu kimi, biz müəllimin öz dərslərini sərbəst qurmaq, başqa motivasiyalar yaratmaqla tədris prosesini stimullaşdırmaq və onu daha canlı etmək imkanlarını istisna etmirik. Bu imkanları nəzərə alaraq, ona kömək məqsədi ilə bu tədris vahidlərinə daha çox uyğun gələn material kimi mövzulara aid atalar sözləri seçmiş və onu vəsaitə daxil etmişik.

# HƏYAT BİLGİSİ TƏLİMİNİN TƏŞKİLİNƏ VERİLƏN ƏSAS TƏLƏBLƏR

Təlim prosesi daim inkişaf edir, müxtəlif zamanlarda yeni xarakter kəsb edir. Şəxsiyyətyönümlü təhsil sistemində pedaqoji prosesin mərkəzində dayanan müəllim və şagirdlərin funksiyaları dəyişir. Onların fəaliyyəti əvvəlcədən müəyyən olunmuş nəticələrə əsasən qurulur.

Müəllim kurikulumlara uyğun inteqrasiya olunmuş planlarla yanaşı, yeni texnologiyalar hazırlayır, yaxud mövcud olanların içərisindən ən münasibini seçir. Bu texnologiyaların müəyyən olunmasında müəllim və şagird şəxsiyyəti təlimin aparıcı subyekti kimi çıxış edir. Münasibətlər "subyekt+subyekt" formulasına uyğun üfüqi istiqamətdə qurulur. Bu zaman şagirdlər öz təfəkkürünün, düşüncəsinin, müəllimlər isə şagirdin inkişafı üçün şəraitin təşkilatçısı olur. Müəllimlərin rəhbərlik funksiyası dəyişir, informasiya vermək sahəsindəki fəaliyyəti məhdudlaşır. O daha çox sinif şəraitində təlim fəaliyyətini əlaqələndirən, istiqamətləndirən məsləhətçi kimi şagirdlərin müstəqil idraki fəaliyyətini, fəal yaradıcılığını təşkil edən subyektə çevrilir. Pedaqoji prosesin düzgün qurulmasında mühüm didaktik prinsiplərə istinad olunur. Yeni kurikulumlara uyğun pedaqoji prosesin təşkilində aşağıdakı prinsiplərin əsas götürülməsi zəruri hesab edilir:

- pedaqoji prosesin tamlığı – pedaqoji prosesdə təlim məqsədləri kompleks (inkişafetdirici, öyrədici, tərbiyəedici) həyata keçirilir, real nəticələrlə yekunlaşan müəllim və şagird fəaliyyətini əhatə edir;
- təlimdə bərabər imkanların yaradılması – bütün şagirdlərə eyni təlim şəraiti yaradılır və pedaqoji proses onların potensial imkanları nəzərə alınmaqla tənzimlənir;
- şagirdyönümlülük – şagird pedaqoji prosesin mərkəzində dayanır. Bütün tədris və təlim işi şagirdlərin maraq və tələbatlarının ödənilməsinə, onların istedad və qabiliyyətlərinin, potensial imkanlarının inkişafına yönəldilir;
- inkişafyönümlülük – şagirdlərin idrak fəallığı izlənilir, nailiyyətləri təhlil edilir, bilik, bacarıq və vərdişlərinin inkişaf səviyyəsi tənzimlənir;
- fəaliyyətin stimullaşdırılması – pedaqoji prosesin səmərəli qurulması, şagirdlərin təlimə marağının artırılması üçün onların fəaliyyətindəki bütün irəliləyişlər qeyd olunur və dəyərləndirilir, nəticə etibarı ilə şagirdlərin daha uğurlu təlim nəticələrinə istiqamətləndirilməsi təmin olunur;
- dəstəkləyici mühitin yaradılması – pedaqoji prosesin münasib maddi-texniki baza əsasında və sağlam mənəvi-psixoloji mühitdə təşkil edilməsi keyfiyyətin və səmərəliliyin yüksəldilməsi üçün əlverişli və təhlükəsiz təlim şəraiti yaradır.

Bütün bu deyilənlər 1-ci sinifdən etibarən nəzərdə saxlanılarsa, sonrakı illərdə əldə edilən biliklərin bacarıqlara çevrilməsində şagirdin nailiyyətləri daha səmərəli olar.

"Həyat bilgisi" fənninin kurikulumunun məzmun standartı mahiyyət etibarı ilə nəticə şəklində olub, özündə mənimsəniləcək konkret bilik və fəaliyyəti əks etdirir. Bilik komponentində "Şagird nəyi öyrənir?", fəaliyyət komponentində isə "Öyrəndiyini necə nümayiş etdirir?" sualları cavablandırılır.

Deklarativ bilik hər hansı bir anlayışın dərk edilməsidir. Bu bilik növü fənlə bağlı əldə edilən mühüm informasiyadır. Deklarativ bilik yaddaşa əsaslanır. Bunlar fənnə aid mühüm terminlər, ifadələr, təriflərdir ki, şagirdlərin onları bilməsi öyrənmə üçün çox vacibdir.

Prosedural bilik hər hansı fənn və ya bilik sahəsində fəaliyyətin icrasına kömək edən prosedur qaydaları əhatə edən biliklərdir. Bunların sırasına tədqiqat, araşdırma və tətbiqetmə metod və texnikaları, alqoritmlər, xüsusi metodologiyalar daxildir.

Konseptual bilik sadəcə prosedural və ya deklarativ biliyin əsasında qurulan biliyin yeni məzmununu təşkil edir. Konseptual bilik problemin həll edilməsi yolu ilə əldə olunan yeni biliklərdir. Bunların sırasına müəyyən bilik sahəsində münasib faktları ümumiləşdirən və əlaqələndirən şəxsin yaratdığı yeni konsepsiyalar, ümumiləşdirmələr, nəzəriyyələr, təsnifatlar, prinsiplər, modellər, strukturlar daxildir. Konseptual bilik mütaliə, müşahidə, dinləmə, təcrübəaparma və şüurlu əqli fəaliyyət zamanı qazanılır. Belə bilik tapşırıqların yerinəyetirilmə prosesində təzahür edir. Məsələn, şagird mərhələləri gözləməklə eksperiment aparır, ilk tibbi yardımın alqoritminə, təhlükəsizlik qaydalarına əməl edir.

Metakoqnitiv bilik insanın öz əqli əməliyyatlarını idarə etməsi ilə bağlıdır. Bu bilik növü şəxsin nəyi bilib-bilmədiyini müəyyən etmək qabiliyyətinə əsaslanır. Adətən, 1-ci sinif şagirdləri ilk vaxtlar bu cür qabiliyyəti uğurla nümayiş etdirə bilmirlər. Yəni nəyisə bilib-bilmədiklərini müəyyən etmək onlar üçün hələ çətin olur.

Məzmun standartının əsasında müxtəlif fəaliyyət növləri dayanır. Fəaliyyətlər idraki (koqnitiv), emosional-affektiv (ünsiyyət), psixomotor olmaqla 3 cür qruplaşdırılır. Hər bir fəaliyyət növü özünə xas olan feillərlə ifadə olunur.

1. İdraki (koqnitiv) – tanımaq, izah etmək, nümunə göstərmək, istifadə etmək, təhlil etmək, müqayisə etmək, dəyərləndirmək və s.

2. Emosional-affektiv (ünsiyyət) – izah etmək, təsvir etmək, şərh etmək, reaksiya vermək, təqdim etmək və s.

3. Psixomotor (hərəki) rəqs etmək, qaçmaq, yarmaq, rəsm çəkmək, quraşdırmaq və s.

Standartlarda verilən bacarıqlar taksonomiyalara görə təsnif olunur və qruplaşdırılır. Məsələn, "sadalayır", "tanıyır" feilləri idraki taksonomiyada fəaliyyətin – "bilmə", "izah edir", "şərh edir", "təsvir edir" feilləri – "anlama", "nümayiş etdirir", "əməl edir" feilləri – "tətbiqetmə" növünü göstərir.

Standartları uyğun bilik və fəaliyyət komponentlərinə ayıraq. Nümunə:

| *sinif* | *standart* | *bilik* | *növü* | *fəaliyyət* | *növü* |
|---|---|---|---|---|---|
| *I.* | *1.1.1* | *Varlıqları, hadisələri sadə şəkildə* | *konseptual* | *təsvir edir* | *anlama* |
| | *2.1.2* | *Birgə fəaliyyətin faydasını nümunələrlə* | *konseptual* | *izah edir* | *anlama* |
| | *3.1.1* | *İnsanlararası ünsiyyət etiketlərinə* | *prosedual* | *əməl edir* | *tətbiqetmə* |
| | *4.3.1* | *Təbii fövqəladə hadisələri* | *deklarativ* | *təsvirlərdə tanıyır* | *bilmə* |

# ŞAGİRD NAİLİYYƏTLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Məktəbdaxili qiymətləndirmə ilə bağlı yeni qaydalar Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi və dərc olunduğu gündən (29 dekabr 2018-ci il) qüvvədədir.

Şagirdlərin bilik və bacarıqlarının, o cümlədən maraq və motivasiyasının ilkin qiymətləndirilməsi məqsədilə dərs ilinin və ya fənn üzrə tədris resurslarında nəzərdə tutulmuş hər bölmənin əvvəlində diaqnostik qiymətləndirmə aparılmalıdır.

Formativ qiymətləndirmə şagird nailiyyətlərinin monitorinqi vasitəsilə tədrisin düzgün istiqamətləndirilməsinə xidmət edir.

Bir dərs müddətində digər müxtəlif fəaliyyətlərin də olduğunu nəzərə alsaq, əlbəttə, bütün şagirdlərin formativ qiymətləndirilməsinin aparılması, nəticələrin "Məktəbli kitabçası"nda və müəllimin formativ qiymətləndirmə dəftərində qeyd olunması fiziki olaraq mümkün deyil. Bu səbəbdən də sinif üzrə formativ qiymətləndirmə aparılsa da, müvafiq planlaşdırmaya əsasən, hər dərs üzrə 5-8 şagirdin formativ qiymətləndirilməsinin nəticələrinin "Məktəbli kitabçası"nda və müəllimin formativ qiymətləndirmə dəftərində qeyd olunması tövsiyə olunur.

Formativ qiymətləndirmədə qiymətləndirmə vasitəsi kimi testlə yanaşı, yazı işlərindən, çalışmalardan da istifadə edilməsi tövsiyə olunur.

**Azərbaycan Respublikası Təhsil Nazirliyinin 28 dekabr 2018-ci il tarixli 8/1 nömrəli Kollegiya Qərarı ilə təsdiq edilmiş "Ümumi təhsil pilləsində təhsilalanların attestasiyasının (məktəbdaxili qiymətləndirmənin) aparılması Qaydası"ndan**

**ÇIXARIŞ**

3. Formativ qiymətləndirmə

3.1. Formativ qiymətləndirmə təhsilalanın hər bir fənn üzrə təhsil proqramında (kurikulumda) müəyyənləşdirilmiş məzmun standartlarının mənimsənilməsinə yönəlmiş fəaliyyətlərini izləmək, bu prosesdə onun qarşısına çıxan çətinlikləri müəyyən edib onları aradan qaldırmaq məqsədi ilə aparılır. Formativ qiymətləndirmə şagird nailiyyətlərinin monitorinqi vasitəsilə tədrisin düzgün istiqamətləndirilməsinə xidmət edir. Müəllim formativ qiymətləndirmə vasitəsilə tədris prosesini tənzimləyir, şagirdlər tərəfindən məzmunun mənimsənilməsinə kömək edir.

3.2. Formativ qiymətləndirmə zamanı tapşırıqvermə, müşahidə (müəllim tərəfindən şagirdlərin yeni mövzuya olan maraq səviyyəsinin müəyyən edilməsi) üsullarından istifadə olunur.

3.3. Formativ qiymətləndirmənin nəticəsi ilə bağlı "Müəllimin formativ qiymətləndirmə dəftəri"ndə və "Məktəbli kitabçası"nda müvafiq yazılı qeydlər aparılır.

3.4. Müəllim dərs ilinin yarımillərinin sonunda "Müəllimin formativ qiymətləndirmə dəftəri"ndəki qeydlər əsasında təhsilalanın yarımillik fəaliyyətinin qısa təsvirini hazırlayır və həmin təsvir təhsilalanın ümumi təhsil müəssisəsindəki fərdi qovluğunda saxlanılır.

***Qeyd.*** I siniflərdə bütün summativ qiymətləndirmələr ləğv olunub.

# TƏLİM NƏTİCƏLƏRİ VƏ MƏZMUN STANDARTLARI

1-ci sinfin sonunda şagird:

- müşahidə etdiyi varlıqların və təbiət hadisələrinin mahiyyətini anladığını nümayiş etdirir;
- sadə coğrafi bilik və bacarıqlara malik olduğunu nümayiş etdirir;
- canlılar aləmi haqqında təsəvvürlərə malik olduğunu nümayiş etdirir;
- ekoloji bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir;
- insanı sosial varlıq kimi dərk etdiyini nümayiş etdirir;
- sadə iqtisadi bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir;
- dövlət rəmzlərini tanıdığını nümayiş etdirir;
- hüquqi mədəniyyətə malik olduğunu nümayiş etdirir;
- ünsiyyət mədəniyyəti haqqında təsəvvürə malik olduğunu nümayiş etdirir;
- insan mənəviyyatını şərtləndirən amilləri anladığını nümayiş etdirir;
- mənəviyyatın formalaşmasında dinin rolunu anladığını nümayiş etdirir;
- mənəvi borc haqqında təsəvvürlərə malik olduğunu nümayiş etdirir;
- sağlamlığın mühafizəsi və sağlam həyat tərzi haqqına bilik və bacarıqlara malik olduğunu nümayiş etdirir;
- həyat və sağlamlıq üçün təhlükə törədən mənbə və obyektləri tanıyır;
- fövqəladə hallar barəsində ilkin təsəvvürlərə malik olduğunu nümayiş etdirir.

## Məzmun xətləri üzrə əsas və altstandartlar

**1. Təbiət və biz**

Şagird:

1.1. Müşahidə etdiyi varlıqların və təbiət hadisələrinin mahiyyətini anladığını nümayiş etdirir.
1.1.1. Varlıqları, hadisələri sadə şəkildə təsvir edir.
1.1.2. Varlıqları, hadisələri xarakterik əlamətlərinə görə fərqləndirir.
1.2. Sadə coğrafi bilik və bacarıqlara malik olduğunu nümayiş etdirir.
1.2.1. Coğrafi obyektləri (dağ, təpə, dərə, düzənlik, çay, göl) əlamətlərinə görə fərqləndirir.
1.2.2. Yaşadığı ərazinin sadə coğrafi təsvirini verir.
1.3. Canlılar aləmi haqqında təsəvvürlərə malik olduğunu nümayiş etdirir.
1.3.1. Canlılar aləminə aid olan varlıqları (bitki, heyvan, insan) tanıyır.
1.3.2. Canlıların yaşamasını şərtləndirən amilləri sadalayır.
1.4. Ekoloji bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir.
1.4.1. Ətraf mühitin (evin, sinfin, həyətin, havanın, suyun) təmiz saxlanmasının vacibliyini sadə şəkildə şərh edir.

**2. Fərd və cəmiyyət**

Şagird:

2.1. İnsanı sosial varlıq kimi dərk etdiyini nümayiş etdirir.
2.1.1. "Fərd", "ailə" və "kollektiv" anlayışları barədə təsəvvürlərini bildirir.
2.1.2. Birgə fəaliyyətin faydasını nümunələr əsasında izah edir.
2.1.3. Ailədə və kollektivdə üzərinə düşən vəzifələri sadalayır.
2.2. Sadə iqtisadi bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir.
2.2.1. Gün rejimi haqqında təsəvvürlərini sadə şəkildə ifadə edir.
2.2.2. "Büdcə" anlayışını sadə şəkildə izah edir.
2.2.3. Azərbaycan Respublikasının pul nişanlarını tanıyır.
2.3. Dövlət rəmzlərini tanıdığını nümayiş etdirir.

2.3.1. Azərbaycan Respublikasının Dövlət rəmzlərini sadə şəkildə izah edir.
2.4. Hüquqi mədəniyyətə malik olduğunu nümayiş etdirir.
2.4.1. Məktəbin daxili nizam-intizam qaydalarını sadalayır.
2.4.2. Şagird hüquqlarını sadalayır.

**3. Mənəviyyat**
Şagird:
3.1. Ünsiyyət mədəniyyəti haqqında təsəvvürə malik olduğunu nümayiş etdirir.
3.1.1. İnsanlararası ünsiyyət etiketlərinə (salamlaşmaq, özünütəqdim, müraciət, müraciətə cavab, xudahafizləşmək) əməl edir.
3.1.2. Etiketdənkənar davranışları fərqləndirir.
3.2. İnsan mənəviyyatını şərtləndirən amilləri anladığını nümayiş etdirir.
3.2.1. Şəxsiyyəti formalaşdıran mənəvi keyfiyyətləri (düzlük, doğruluq, çalışqanlıq, səmimilik) sadə şəkildə şərh edir.
3.2.2. Mənəviyyata zidd xüsusiyyətlərə (yalançılıq, paxıllıq, xəbərçilik) münasibət bildirir.
3.3. Mənəviyyatın formalaşmasında dinin rolunu anladığını nümayiş etdirir.
3.3.1. Təsvirlərdə dini rəmzləri (ibadətgahlar, nişanlar, dini kitablar, əşyalar) fərqləndirir.
3.3.2. Dinlər haqqında ilkin təsəvvürlərini sadə şəkildə izah edir.
3.4. Mənəvi borc haqqında təsəvvürlərə malik olduğunu nümayiş etdirir.
3.4.1. Mənəvi borc (böyüklərə hörmət, kiçiklərə və xəstələrə qayğı) haqqında təsəvvürlərini ifadə edir.

**4. Sağlamlıq və təhlükəsizlik**
Şagird:
4.1. Sağlamlığın mühafizəsi və sağlam həyat tərzi haqqında bilik və bacarıqlara malik olduğunu nümayiş etdirir.
4.1.1. Sağlam həyat tərzinin şərtlərini (təmizkarlıq, düzgün qidalanma, yuxu və istirahət) sadalayır.
4.1.2. Hava durumuna uyğun geyim seçiminin əhəmiyyətini sadə formada əsaslandırır.
4.2. Həyat və sağlamlıq üçün təhlükə törədən mənbələrə dair bilik və bacarıqlar nümayiş etdirir.
4.2.1. Həyat və sağlamlıq üçün təhlükə törədə bilən məişət alət və avadanlıqlarını (elektrik və qaz cihazları, alışdırıcı, kəsici və deşici alətlər) sadalayır.
4.2.2. Ətrafdakı şübhəli əşyalara toxunmağın və tanımadığı insanlarla ünsiyyətin təhlükəsini izah edir.
4.2.3. Sadə yol hərəkəti qaydalarını (səki və yolun kənarı ilə hərəkət etmək, svetoforun işarələrinə əməl etmək) sadalayır.
4.2.4. Nəqliyyat vasitələrini (lift, eskalator, avtomobil, avtobus, qatar, gəmi, təyyarə) tanıyır.

**4.3. Fövqəladə hallar barəsində ilkin təsəvvürlərə malik olduğunu nümayiş etdirir.**
4.3.1. Təbii fövqəladə hadisələri (daşqın, subasma, qasırğa, ildırım, zəlzələ, torpaq sürüşməsi, qar uçqunu) və texnogen qəzaları (partlayış, yanğın, böyük nəqliyyat qəzası, ətraf mühitin zəhərli maddələrlə çirklənməsi) təsvirlərdə tanıyır.
4.3.2. Mülki-müdafiə siqnallarını və qəzalardan mühafizə vasitələrini (əleyhqaz, respirator, yanğınsöndürmə balonu, su, qum) tanıyır.
4.3.3. Yerli şəraitə uyğun süni yaradılmış ekstremal vəziyyətlərdə su, qum, respiratordan istifadə bacarıqları nümayiş etdirir.

# İLLİK PLANLAŞDIRMA VƏ İNTEQRASİYA CƏDVƏLİ

| | STANDARTLAR | İNTEQRASİYA | TƏDRİS VAHİDLƏRİ VƏ MÖVZULAR | |
|---|---|---|---|---|
| | | | **TƏBİƏT VƏ BİZ** | **Saat** |
| **1.** | 1.3.1., 1.3.2. | Fəndaxili - 1.1.1 Fənlərarası - A.d. 1.2.1 | Canlılar və cansızlar | 1 |
| **2.** | 1.3.1. | Fəndaxili - 1.3.1 Fənlərarası - Tex. 3.1.2 | Heyvanlar | 1 |
| **3.** | 1.2.1. | Fəndaxili - 1.1.1 Fənlərarası - İnf. 1.2.3 | Bizi əhatə edən təbiət | 1 |
| **4.** | 1.4.1. | Fəndaxili - 1.1.1; 1.3.2 Fənlərarası - A.d. 1.2.1 | Ətraf mühit | 1 |
| **5.** | | | Ümumiləşdirici dərs | 1 |
| | | | **TƏBİƏT HADİSƏLƏRİ** | |
| **6.** | 1.1.2., 2.2.1. | Fəndaxili - 1.1.1 Fənlərarası - A.d. 1.2.1; Riy. 4.1.1; İnf. 1.2.2; X.d. 2.2.1; Tex. 4.1.3; F.t. 4.1.1 | Gecə və gündüz | 1 |
| **7.** | 1.1.1., 1.1.2., 4.1.2. | Fəndaxili - 4.1.1 Fənlərarası - A.d. 1.2.1; 2.1.1 Riy. 2.3.1; 3.1.1 İnf. 1.2.2; 1.2.1 X.d. 1.1.2;2.2.1 Təs.i. 1.1.2; 3.1.1 | Yaz | 1 |
| **8.** | 1.1.1., 1.1.2., 4.1.2. | Fəndaxili - 4.1.1 Fənlərarası - A.d. 1.2.1; 2.1.1 Riy. 2.3.1; 3.1.1 İnf. 1.2.2; 1.2.1 X.d. 1.1.2;2.2.1 Təs.i. 1.1.2; 3.1.1 | Yay | 1 |
| **9.** | 1.1.1., 1.1.2., 4.1.2. | Fəndaxili - 4.1.1 Fənlərarası - A.d. 1.2.1; 2.1.1 Riy. 2.3.1; 3.1.1 İnf. 1.2.2; 1.2.1 X.d. 1.1.2;2.2.1 Təs.i. 1.1.2; 3.1.1 | Payız | 1 |
| **10.** | 1.1.1., 1.1.2., 4.1.2. | Fəndaxili - 4.1.1 Fənlərarası - A.d. 1.2.1; 2.1.1 Riy. 2.3.1; 3.1.1 İnf. 1.2.2; 1.2.1 X.d. 1.1.2;2.2.1 Təs.i. 1.1.2; 3.1.1 | Qış | 1 |
| **11.** | | | Ümumiləşdirici dərs | 1 |
| | | | **ƏTRAFIMIZDAKI İNSANLAR** | |
| **12.** | 2.1.1., 3.2.1., 3.2.2. | Fəndaxili - 3.1.1; 3.1.2 Fənlərarası - A.d. 3.2.2 | Siz və dostlarınız | 1 |
| **13.** | 2.1.1, 2.1.3, 3.4.1. | Fəndaxili - 2.1.2; 3.1.1; 3.1.2 Fənlərarası -A.d. 3.2.2; F.t. 4.1.2 | Ailə | 1 |
| **14.** | 2.1.1, 2.1.2, 3.2.2. | Fəndaxili - 3.2.1 Fənlərarası - Mus. 3.1.3; 3.1.2 | Kollektiv | 1 |
| **15.** | 3.1.1, 3.1.2. | Fənlərarası - A.d. 1.1.2 | Ünsiyyət | 1 |
| **16.** | 2.4.1, 2.4.2. | Fənlərarası - A.d. 1.2.2; 1.2.3 Tex. 3.1.3 X.d. 2.2.3 | Hüquqlarımız və vəzifələrimiz | 1 |
| **17.** | | | Ümumiləşdirici dərs | 1 |
| | | | **VƏTƏNİMİZ** | |
| **18.** | 2.3.1. | Fəndaxili - 2.2.3 Fənlərarası-A.d. 1.2.1; X.d. 2.2.1; Mus. 3.1.1 | Azərbaycanın dövlət rəmzləri | 1 |
| **19.** | 2.3.1. | Fənlərarası - Riy.4.2.4; Tex. 3.1.5 | Azərbaycan – Odlar Yurdu | 2 |
| **20.** | 2.2.2., 2.2.3. | Fəndaxili - 3.2.1 Fənlərarası - A.d. 1.1.1 X.d. 2.2.1 Təs.i. 2.2.3 Tex. 3.1.4 | Azərbaycan pulu | 1 |
| **21.** | 3.3.1., 3.3.2., 3.4.1. | Fəndaxili - 3.2.1 Fənlərarası - A.d. 1.1.1 X.d. 2.2.1 Təs.i. 2.2.3 Tex. 3.1.4 | Ölkəmizdə dinlər | 1 |
| **22.** | | | Ümumiləşdirici dərs | 1 |
| | | | **SAĞLAMLIĞIMIZ** | |
| **23.** | 4.1.1. | Fəndaxili - 2.2.1 Fənlərarası - F.t. 1.1.1; 1.1.3 Tex.3.1.1 | Təmizkar olaq | 1 |
| **24.** | 4.1.1. | Fəndaxili - 2.2.1 Fənlərarası - F.t. 1.1.1; 1.1.3 Tex.3.1.1 | Yuxu və istirahət | 1 |
| **25.** | 4.1.1. | Fəndaxili -2.2.1; 3.1.1 Fənlərarası - F.t. 1.1.1; 1.1.3 Tex.3.1.1; 3.1.3 | Qidalarımız | 1 |
| **26.** | 4.1.1. | Fəndaxili - 2.2.1; 3.1.1 Fənlərarası- F.t. 1.1.1; 1.1.3 Tex.3.1.1; 3.1.3 | Düzgün qidalanaq | 1 |
| **27.** | | | Ümumiləşdirici dərs | 1 |
| | | | **TƏHLÜKƏSİZLİYİMİZ** | |
| **28.** | 4.2.1. | Fəndaxili - 4.1.1 Fənlərarası - Təs.i. 2.1.4; 2.2.3 İnf. 3.2.6 | Evdə | 1 |
| **29.** | 1.2.2., 4.2.2. | Fəndaxili - 4.2.1 Fənlərarası - F.t. 1.1.1 | Həyətdə və küçədə | 1 |
| **30.** | 4.2.3., 4.2.4. | Fəndaxili - 4.1.1 Fənlərarası - Tex. 3.1.1 | Yolda və nəqliyyatda | 1 |
| **31.** | 4.3.1., 4.3.3. | Fənlərarası - Təs.i. 1.1.3; 3.1.2 | Təbii fövqəladə hadisələr | 1 |
| **32.** | 4.3.2., 4.3.3. | Fənlərarası - Təs.i. 1.1.3; 3.1.2 | Qəza baş verərsə | 1 |
| **33.** | | | Ümumiləşdirici dərs | 1 |






# Təbiət və biz







Öyrənilən obyekt haqqında elmi biliklərin və əldə olunan bacarıqların inkişaf etdirilməsi.

## Mövzu: 1. Canlılar və cansızlar

**St: 1.3.1., 1.3.2.**

**Öyrənilən obyektlər**

Canlılar və cansızlar

**Təlim nəticələri**

Canlıları və cansızları tanıyır, fərqləndirir. Canlıların yaşaması üçün lazım olan faktorları sadalayır.

**Əldə edilən bacarıqlar**

Bu dərsin köməyilə şagirdlər:

- İnsanları, heyvanları və bitkiləri canlı varlıq kimi tanıyacaqlar.
- Bütün canlılara aid olan əsas xüsusiyyətləri – hərəkət, tənəffüs, böyümə, yeməyə və suya olan ehtiyacı müəyyən edəcəklər.
- Canlıları öyrənməklə şagirdlərdə cansız varlıqlar haqqında fikir formalaşacaqdır.

Mövzunun tədrisi zamanı ehtiyac duyulan materiallar və resurslar

**Materiallar və resurslar**

Dərslik, şəkillər

Ziddiyyət doğuran fikirlərin siyahısı

**Şagirdlərin öyrənilən obyektlə bağlı ziddiyyətli fikirləri**

Şagirdlər canlı və cansız varlıqlar haqqında həqiqətə uyğun olmayan müxtəlif fikirlər söyləyə bilərlər.

1. Onlar göydə hərəkət etməsinə görə buludu canlı hesab edə bilərlər.
2. Heyvanların yaşadığı yerlərini dəyişik sala bilərlər və s.

Dərsin mövzu ilə bağlı bilik və bacarıqlara yönələn geniş planı

**DƏRSİN PLANI**

Bu mövzunun tədrisi zamanı proqnozlaşdırma, Venn diaqramı, müzakirə iş üsullarından və kollektivlə iş formasından istifadə edilə bilər.

**Proqnozlaşdırma** – Əvvəlcə öyrəniləcək obyektlər haqqında şagirdlərin baza biliklərinin diaqnostikası aparılır. Bu zaman şagirdlərin reallığa tam uyğun cavabları ilə yanaşı, həqiqətə uyğun olmayan fikirləri də səslənə bilər.

– Şagirdlər deyə bilərlər ki, bitkilər cansızdır, çünki onlar hərəkət etmir və ya nəfəs almır.

– Şagirdlər deyə bilərlər ki, Günəş, buludlar, çaylar canlıdır, çünki onlar hərəkət edir.

Öyrəniləcək obyektlərlə bağlı şagirdlərin ilkin biliklərinin diaqnostikası




**Fikirləş**

Dərslikdəki mətn oxunur, ***canlı, cansız*** sözlərinin mənası müəllim tərəfindən açıqlanır. Müəllim ilk məlumat olaraq canlıların hərəkət etdiyini, cansızların isə hərəkət etmədiyini söyləyir. Sonra şagirdlərin diqqəti dərslikdəki şəkillərə yönəldilir. Onlara **6-cı səhifədəki** şəkildə gördüklərini danışmaq təklif olunur.

**Şəkil üzrə iş**

Müəllim şagirdlərə belə bir tapşırıq verir:

– Burada həm canlılar, həm də cansızlar var. Gəlin onları seçib adlandıraq.

– Burada hansı canlılar var?

– Bəs hansı cansızlar var?

Şagirdlər şəkildə gördükləri canlı və cansızların adlarını söyləyirlər. Müəllim şagirdlərin cavablarını lövhədə çəkdiyi cədvəldə qeyd edir.

| Canlılar | Cansızlar |
|---|---|
| | |

Sonra müəllim onlara belə sual verir:

– Bəs şəkildəki canlılar nə edirlər?

Şagirdlər şəkildə canlıların hərəkətləri haqqında fikir söyləyirlər. Onlar qeyd edirlər ki, qızlar topla oynayırlar, oğlan iti ilə balıq tutmaqdan gəlir, inəyin balası anasına yaxınlaşır.

– Canlıları cansızlardan necə ayırdınız? Bu xüsusiyyətləri müəyyən etməyə çalışaq.




Müəllim şagirdlərin köməyi ilə cədvəldə yazılmış canlı və cansızların bir-birindən fərqini Venn diaqramında qeyd edir.




● Bu suallar dərs prosesində, şagirdlərin verdikləri cavabların əsasında qurulacaqdır. Məsələn, müəllim şagirdlərin şəkildəki varlıqları nə üçün canlı, yaxud cansız adlandırdıqlarını soruşa, onlara bu tipli suallar verə bilər:

1. Şəkildə canlı adlandırdığınızı siz nə üçün canlı hesab edirsiniz?
2. Bəs cansız adlandırdığınızı nə üçün cansız hesab edirsiniz?
3. Hansı canlılara yalnız günəş işığı və su lazımdır?
4. Bitkilərə nə üçün su vermək lazımdır?

Beləliklə, şagirdlər canlı və cansızların bir-birindən fərqini daha dərindən mənimsəyirlər. Öyrənirlər ki, canlılar cansızlardan fərqli olaraq tənəffüs edir, böyüyür, hərəkət edir, qidalanırlar.

Əldə olunan bilik və bacarıqların möhkəmləndirilməsi üçün suallar

– Qida canlılara nə üçün lazımdır?–sualına cavab olaraq şagirdlər deyə bilərlər ki, canlılar yemək yeyirlər.

– Quş balalarına qida gətirir. Qız yemək yeyir. Oğlan su içir. Bitki suvarılır.

– Canlıların daha nələrə ehtiyacı var? – sualı altında verilmiş şəkillərdə şagirdlər canlıların havaya, suya, günəş işığına olan ehtiyacını qeyd edəcəklər. Bu anlayışlar onlara hələ məktəbəhazırlıq qruplarındakı məşğələlərdən məlumdur.

– Bəs bu şəkillər nəyi göstərir? – sualına cavab olaraq şagirdlər canlıların böyümə xüsusiyyətini söyləyəcəklər.

Deməli, canlılar tənəffüs edir, qidalanır və böyüyürlər. Eyni zamanda şagirdlər canlıların yaşaması üçün tənəffüsetmənin və qidalanmanın əsas şərt olduğunu da qeyd edəcəklər.

–Aşağıdakı şəkillərdə uyğunluq görürsünüzmü? Uyğun gələn şəkilləri birləşdirin.

– Bəs onlar arasında hansı fərqlər var? Şagirdlər əvvəlcə balığın, atın, quşun canlı, avtomobil, təyyarə və gəminin cansız olduğunu söyləyəcəklər. Daha sonra isə onlar balıq ilə gəmini (hər ikisi üzdüyü üçün), at ilə avtomobili (hər ikisi yeridiyi üçün), quş ilə təyyarəni (hər ikisi uçduğu üçün) uyğunlaşdırıb birləşdirəcəklər.

Müəllim həmin cansız varlıqların hərəkət etsələr də, onların canlı olmadıqlarını izah edir. Onların bəzilərinin insanlar tərəfindən hərəkətə gətirildiyini, bəzilərinin isə təbiət hadisəsi olduğunu izah edir. Günəşi, çayın axmasını buludu da misal göstərə bilər.

**Nəticə** – Şagirdlər bu dərsin köməyi ilə öyrənirlər ki, canlılar tənəffüs edir, böyüyür, qidalanırlar. Cansızlar isə canlılardan fərqli olaraq tənəffüs etmir, qidalanmır və böyümür. Canlıların havaya, suya, qidaya və istiyə ehtiyacı var.

## Müəllim üçün mövzuya dair məlumat

Canlı və cansızları müəyyən edən əsas xüsusiyyətlər aşağıdakılardır:

– hərəkət (hərəkət gözlə görülən, yaxud gözlə görünməyən ola bilər – bitkilərin inkişaf etməsi kimi);
– tənəffüs (havaya olan ehtiyac);
– inkişaf (ölçülərin dəyişməsi);
– qidalanma (yeməyə, suya olan ehtiyac);
– çoxalma ( özünə uyğun nəsilvermə).

## Mövzu: 2. Heyvanlar

**St: 1.3.1.**

**Öyrənilən obyektlər:**
Vəhşi heyvanlar, ev heyvanları və ev quşları

**Təlim nəticələri:**
Heyvanları tanıyır və onları bir-birindən fərqləndirir.

**Əldə olunan bacarıqlar**
Bu dərsin köməyi ilə şagirdlər:

– vəhşi heyvanları, ev heyvanlarını və ev quşlarını tanıyacaqlar;
– ətyeyən və otyeyən heyvanları bir-birindən fərqləndirəcəklər;
– ev heyvanlarının və ev quşlarının faydası haqqında məlumat alacaqlar.

**Materiallar və resurslar:**
Dərslik, şəkillər

**Şagirdlərin öyrənilən obyektlərlə bağlı ziddiyyətli fikirləri:**

– vəhşi heyvanlar insanlara yaxın yerlərdə yaşayırlar;
– vəhşi heyvanları ev şəraitində saxlamaq olar;
– ev heyvanları çöldə yaşayırlar;
– ev heyvanları insanlara zərər verir.

### ● DƏRSİN PLANI

Bu mövzunun tədrisi zamanı proqnozlaşdırma, BİBÖ, Venn diaqramı, müzakirə iş üsullarından, kollektivlə iş formasından istifadə edilə bilər.

**Proqnozlaşdırma:** Əvvəlcə öyrəniləcək obyektlər haqqında şagirdlərin baza biliklərinin diaqnostikası aparılır. Bu zaman müəllim BİBÖ üsulundan istifadə edərək şagirdlərin heyvanlar haqqında ilkin biliklərini cədvəlin 1-ci hissəsində qeyd edir. Sonra isə şagirdlərdən heyvanlar haqqında daha nələr öyrənmək istədiklərini soruşub cədvəlin 2-ci hissəsində qeyd edir. Daha sonra dərslik üzərində iş aparılır.

| Bilirəm | İstəyirəm biləm | Öyrəndim |
|---|---|---|
| | | |




**Fikirləş**

Dərslikdəki mətn oxunur, heyvanların müxtəlif olduğunu, yəni çöl və ev heyvanlarına ayrıldığını öyrənirlər.

Şagirdlərdən **8 və 9-cu səhifədəki** şəkillərdə gördüklərini danışmağı təklif olunur.

**Şəkil üzrə iş**

Şagirdlər əvvəlcə 8-ci səhifədəki şəkil üzrə danışaraq gördüklərini şərh edəcəklər. Onlar şəkildə ayı, canavar, dovşan, tülkü, siçan, kirpi, zürafə, fil, ceyran, meymun, bəbir, aslan gördüklərini söyləyəcəklər. Müəllim bu heyvanların bəzilərinin vəhşi heyvan olduğunu və onların çöldə, meşədə yaşadıqlarını söyləyəcək və müəyyən məlumatlar verəcək.

Sonra dərslikdəki suallar cavablandırılacaq:

– Bu heyvanların yaşadığı yerlər necə fərqlənir? Bu suala cavab olaraq şagirdlər 1-ci şəkli soyuq yerlər, 2-ci şəkli isə isti yerlər kimi göstərir. Beləliklə, bəzi heyvanların soyuq mühitdə, digər heyvanların isə isti mühitdə yaşadıqlarını öyrənəcəklər.




– Onlar özlərini təhlükələrdən necə qoruyurlar? – sualına isə heyvanlarda güclü hissiyyatın olmasını deyəcəklər. Onlar səsləri eşidirlər, ayaq izlərini görürlər və s. Kirpi tikanları ilə, bəzi heyvanlar sürətli qaçmaları ilə, bəziləri buynuzları və ya caynaqları ilə, ilan zəhəri ilə özünü müdafiə edir.

– Şəkildə hansı heyvanları görürsünüz, onlar harada yaşayırlar? – sualının cavabında isə şagirdlər su hövzələrində yaşayan heyvanların adlarını söyləyəcəklər.

Vəhşi heyvanların nə ilə qidalanması da onları fərqləndirən xüsusiyyətlərdəndir. Şagirdlər ətlə qidalanan, otla qidalanan, həm ətlə, həm də otla qidalanan heyvanların adlarını müəllimin köməyi ilə söyləyəcəklər. Müəllim şagirdlərin söylədiklərini aşağıdakı cədvəldə qeyd edir.

| Ətlə qidalananlar | Otla qidalananlar | Həm ət, həm də otla qidalananlar |
|---|---|---|
| | | |

Bu zaman şagirdlər dərslikdə şəkli olmayan heyvanlar haqqında da məlumat verə bilərlər.

Şagirdlər 9-cu səhifədəki şəkil üzrə danışaraq gördüklərini şərh edəcəklər. Onlar şəkildə toyuq, hinduşka, cücə, xoruz, inək, qoyun, uzunqulaq, it və s. gördüklərini söyləyəcəklər.

– İnsanlar bu heyvanları nə üçün bəsləyirlər? Bu sualın cavabını şagirdlər müəllimin köməyi ilə cavablandıracaqlar: ev heyvanlarının və ev quşlarının ətini yeyirik. Onların südündən istifadə edirik. Ev quşlarının yumurtasını yeyirik və s.

– Qoyunun yununu niyə qırxırlar? – sualının cavabında isə onlardan yorğan-döşək və yun saplar hazırlandığını deyəcəklər.

– İtin və uzunqulağın fayası nədir? – sualının cavabında isə insanların bu heyvanlara qayğı ilə yanaşmasını söyləyəcəklər. Çünki uzunqulaqdan yük daşımaq üçün istifadə edirlər. İt isə insanları, həyəti qoruyur, ev heyvanlarını qoruyur.

– Bu məhsullar şəkildə gördüyümüz hansı heyvanlardan alınır? – sualının cavabında isə yumurtanın toyuqdan, südün, yağın, pendirin inəkdən, yun sapların isə qoyundan alındığını söyləyəcəklər.

Müəllimin əlavə verdiyi məlumatlar (qazanılmış biliklər) əsasında BİBÖ cədvəlinin 3-cü hissəsi doldurulur.

Müəllim dərsin möhkəmləndirilməsi məqsədilə şagirdlərlə birgə Venn diaqramı quraraq vəhşi və ev heyvanlarının bir-birindən fərqli və oxşar cəhətlərini qeyd edəcəklər.

**Nəticə** – Şagirdlər bu dərsin köməyi ilə öyrənirlər ki, vəhşi heyvanlar meşədə, çöldə yaşayırlar. Onlar yuvalarını özləri qurur, özləri üçün qida əldə edirlər. Ev heyvanlarının insanlara çox böyük xeyri var. Ətini yeyirik, südünü içirik, südündən qatıq, pendir, qaymaq, yağ hazırlanır. Ona görə də insanlar ev heyvanlarını bəsləyib çoxaldırlar.

## Mövzu: 3. Bizi əhatə edən təbiət

**St: 1.2.1.**

**Öyrənilən obyektlər:**
Dağ, düzənlik, çay, göl, dərə, təpə

**Təlim nəticələri:**
Coğrafi obyektləri əlamətlərinə görə fərqləndirir.

**Əldə olunan bacarıqlar**
Bu dərsin köməyi ilə şagirdlər:
– dağ, düzənlik, çay, göl, dərə, təpə haqqında məlumatlar alacaqlar;
– onları əlamətlərinə görə (hündür, alçaq, düz, uzun-qısa, axan-axmayan və s.) fərqləndirəcəklər.

**Materiallar və resurslar:**
Dərslik, şəkillər

**Şagirdlərin öyrənilən obyektlərlə bağlı ziddiyyətli fikirləri:**
– Göl də çay kimi axır.
– Təpə dağdan hündürdür.




### ● DƏRSİN PLANI

Bu mövzunun tədrisi zamanı proqnozlaşdırma, müzakirə iş üsullarından, kollektivlə iş formasından istifadə edilə bilər.

**Proqnozlaşdırma:** Əvvəlcə öyrəniləcək obyektlər haqqında şagirdlərin baza biliklərinin diaqnostikası aparılır. Bu zaman müəllim şagirdlərə belə bir tapmaca deyir:

*Dağdan gəlir,*
*Daşdan gəlir,*
*Qəzəbli bir*
*Aslan gəlir.*
*(çay)*

Şagirdlər müəllimin köməyi ilə tapmacanın cavabını tapırlar və çay haqqında ilkin biliklərini nümayiş etdirirlər. Bu zaman müəllim şagirdlərin digər coğrafi obyektlər: dağ, düzənlik, göl, dərə, təpə haqqında ilkin biliklərini öyrənir.

**Fikirləş**

Dərslikdəki mətn oxunur, dağ, düzənlik, çay, göl, dərə, təpə sözlərinin mənası, onların bizi əhatə edən təbiət olması müəllim tərəfindən açıqlanır.

Şagirdlərə **10-cu səhifədəki** şəkildə gördüklərini danışmaq təklif olunur.

**Şəkil üzrə iş**

Şagirdlər şəkil üzrə danışaraq gördüklərini şərh edəcəklər.

– Qartal nəyin üzərində uçur?

– Dovşan nəyin üstündə dayanıb? – suallarının cavabında isə onlar hündür dağları, təpələri, axan çayı, ağacları, çəmənliyi, təpədəki dovşanı, uca dağlarda uçan qartalı təsvir edəcəklər. Bu halda müəllim onlara belə bir sualla müraciət edə bilər:

– Şəkildə həm dağ, həm də təpə vardır. Onları seçib göstərə bilərsinizmi? – Bu fəaliyyət zamanı şagirdlər şəkildə dağı və təpəni ayırd edəcəklər.

– Dağla təpə necə fərqlənir? – sualının cavabında şagirdlər şəkillərdə əvvəlcə hər iki-




sinin ətrafdakılara nisbətən hündür olduğunu, sonra isə dağın hündür, təpənin isə dağa nisbətən alçaq olduğunu söyləyəcəklər.

– Oğlan balığı harada tutur: göldə, yoxsa çayda? – sualının cavabında şagirdlər oğlanın göldə balıq tutduğunu söyləyəcəklər.

– Söyləyə bilərsinizmi, çayla gölün fərqi nədir? – sualı ilə verilmiş şəkildə isə şagirdlər cavabında çayın daima axdığını, gölün isə axmadığını deyəcəklər.

– Cavabları bilirsinizmi? – Bu fəaliyyət zamanı şagirdlər tapmacaların cavablarını söyləyəcəklər.

1. Çay
2. Dağ

**Nəticə** – Şagirdlər bu dərsin köməyi ilə öyrənirlər ki, təbiətdə dağ, düzənlik, çay və göllər vardır. Çay axır, göl isə axmır. Dağ hündür, təpə alçaq olur. Düzənlik düz yerdir.

**Müəllim üçün mövzuya dair məlumat**

Təbiətə qayğıkeş münasibət, ekoloji təfəkkürün yaranması əhalidə və gənc nəsildə ekoloji tərbiyə və mədəniyyətin hansı səviyyədə olmasından asılıdır. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ətraf mühitin mühafizəsi və ekoloji təhsillə bağlı qəbul edilmiş ekoloji qanunvericilik və qərarlar bu problemin həllində atılmış mühüm addımlardır. Milli Təhsil Konsepsiyasında da gənc nəslin ekoloji təhsil və tərbiyəsinə xüsusi diqqət yetirilir. Müasir dövrdə qloballaşan dünyanın daha çox diqqət yetirdiyi məsələlərdən biri narahatlıq doğuran ekoloji problemlərdir. Əhalinin ətraf mühitə neqativ münasibəti mövcud problemin yaranmasına gətirib çıxarmışdır. Ekoloji maarifləndirməyə böyük ehtiyac var. Bunun üçün hər kəs müəyyən ekoloji biliklərə yiyələnməli, əhalidə ekoloji dünyagörüşü formalaşmalı, təhsilin ayrı-ayrı pillələrində ekoloji təlimin həyata keçirilməsi təmin edilməli, məktəb, eləcə də, məktəbəqədər tədris-tərbiyə müəssisələrində uşaqlar və şagirdlər arasında ekoloji tərbiyəyə xüsusi fikir verilməlidir. “Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda (2002) ümumi ekoloji biliklərə yiyələnməsi üçün hər kəsə bərabər şəraitin yaradılması, orta təhsil sistemində ekoloji biliklərin tədrisinin icbariliyi, ekoloji təhsil və maarifləndirmə prosesinin fasiləsizliyi dövlət siyasətinin əsas prinsipləri kimi götürülmüşdür.

## Mövzu: 4. Ətraf mühit

**St: 1.4.1.**

**Öyrənilən obyektlər:**
Ətraf mühit – hava, su, torpaq

**Təlim nəticələri:**
Ətraf mühitin təmiz saxlanılmasının vacib olduğunu izah edir.

**Əldə olunan bacarıqlar**
Bu dərsin köməyi ilə şagirdlər:
- evin, sinfin, həyətin təmiz saxlanılmasının əhəmiyyətini öyrənəcəklər;
- havanın, suyun, torpağın təmiz olmasının sağlamlıq üçün vacibliyini dərk edəcəklər.

**Materiallar və resurslar:**
Dərslik, şəkillər

**Şagirdlərin öyrənilən obyektlərlə bağlı ziddiyyətli fikirləri:**
- Şagirdlər səliqəsiz otaqdan xoşlandıqlarını söyləyə bilərlər.
- Uşaqlar yerə zibil ata bilərlər, böyüklər isə onları yığmalıdırlar.




### • DƏRSİN PLANI

Bu mövzunun tədrisi zamanı proqnozlaşdırma, müzakirə iş üsullarından, kollektivlə iş formasından istifadə edilə bilər.

**Proqnozlaşdırma:** Əvvəlcə öyrəniləcək obyektlər haqqında şagirdlərin baza biliklərinn diaqnostikası aparılır. Bu zaman müəllim şagirdlərə belə bir tapmaca deyir:

*Üç qardaşım var:*
*Biri sulayır,*
*Biri üfürür,*
*Biri bitirir.*
*(su, hava, torpaq)*

Şagirdlər müəllimin köməyi ilə tapmacanın cavabını tapırlar və canlıların həyatında su, hava, torpaq haqqında ilkin biliklərini nümayiş etdirirlər.

**Fikirləş**

Dərslikdəki mətn oxunur.

Şagirdlərə **12-ci və 13-cü səhifələrdəki** şəkillərdə gördüklərini danışmaq təklif olunur.

**Şəkil üzrə iş**

Şagirdlər şəkil üzrə danışaraq gördüklərini şərh edəcəklər. – Bu otağı nə üçün səliqəli hesab etmək olmaz? – sualına cavab olaraq böyük ehtimalla şagirdlər otağın dağınıq olduğunu söyləyəcəklər.

Otağımızı nə üçün təmiz saxlamalıyıq? – sualı altında verilmiş şəkillərdə isə şagirdlər uşaq otağının təmiz saxlanılmasının əhəmiyyəti haqqında fikirlər söyləyəcəklər. Hər bir insan öz ətrafını təmiz saxlamalıdır, – deyə fikirlərini qeyd edəcəklər.

– Sizcə, bu uşaqlar yaşadıqları həyətin təmizliyini necə qoruyurlar? Onlar zibili yerə yox, zibil qutusuna atırlar, – deyə söyləyəcəklər.

– Sinif otağının təmizliyi ətraf mühitin təmizliyinə aiddirmi? Nə üçün? Bu suala isə şagirdlər – əlbəttə, – deyə cavab verəcəklər. Çünki biz günümüzün əsas hissəsini məktəbdə keçiririk. Oturduğumuz yeri də təmiz saxlamalıyıq.




– Yanınızda kimsə yerə zibil atarsa, siz ona nə deyərsiniz? – sualına isə şagirdlər müxtəlif cavablar səsləndirəcəklər. Bu cavablar onların ətraf mühitə münasibətdə nə dərəcədə fəal mövqedə olmalarının göstəricisidir.

– Hansı paket ətrafın çirklənməsinə səbəb olur? Seçiminizi izah edin. Bu fəaliyyət zamanı şagirdlər sellofan paketi işarə edəcəklər.

Plastik qablaşdırma ilə bağlı sual şagirdlərin diqqətini sellofan paketlərdən istifadənin ziyanlı olmasına yönəldəcəkdir.

**Nəticə** – Şagirdlər bu dərsin köməyi ilə öyrənirlər ki, insanların sağlamlığı ətraf mühitdən asılıdır. Sağlam olmaq üçün evimizi, həyətimizi, küçəmizi, sinif otağımızı təmiz saxlamalıyıq.

**Müəllim üçün mövzuya dair məlumat**

"Azərbaycan Respublikasında plastik qablaşdırma tullantılarının ətraf mühitə mənfi təsirinin azaldılmasına dair 2019–2020-ci illər üçün Tədbirlər Planı" "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"nə müvafiq olaraq, plastik qablaşdırma məhsullarından kütləvi istifadənin bitkilərə, heyvanlara, torpaq və su resurslarına mənfi təsirinin qiymətləndirilməsi əsasında bu sahədə çirklənmənin azaldılması ilə bağlı tədbirlərin icrası məqsədilə hazırlanmışdır.

Tədbirlər Planı 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışı və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışını əhatə edir. Burada sahə üzrə idarəetmənin səmərəliliyinə və yüksək xidmət səviyyəsinə nail olmaq üçün genişmiqyaslı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Təhsil müəssisələrində ictimai məlumatlılığın artırılması istiqamətində tədbirlər görülməsi bu sahədə maarifləndirmə fəaliyyətinin səmərəliliyi baxımından təhsil müəssisələrində təhsilalanlar və müəllimlər arasında maarifləndirmə işinin təşkilində xüsusi önəm kəsb edir.

Bu məqsədlə ümumi təhsil pilləsində tədris edilən "Həyat bilgisi" fənninin tədrisi üçün dəstəkləyici vəsaitlər hazırlanacaq və bu fənni tədris edən müəllimlərə müvafiq təlimlər, şagird və tələbələr üçün plastik qablaşdırma tullantılarının ətraf mühitə təsiri və alternativ qablaşdırma materiallarından istifadənin əhəmiyyəti haqqında müxtəlif maarifləndirici seminar və təlimlər keçiriləcəkdir.

# Təbiət hadisələri











## Mövzu: 5. Gecə və gündüz

**St: 1.1.2., 2.2.1.**

**Öyrənilən obyektlər:**
Gecə və gündüz

**Təlim nəticələri:**
Günəşin çıxması və batması kimi hadisələri təsvir edir.
Gecə və gündüzün yaranması və gün rejimi barədə təsəvvürlərini sadə şəkildə ifadə edir.

**Əldə olunan bacarıqlar**
Bu dərsin köməyi ilə şagirdlər:
– gecə və gündüzün yaranma səbəblərini öyrənəcəklər;
– səhər, günorta və axşama aid fəaliyyətləri fərqləndirəcəklər.

**Materiallar və resurslar:**
Dərslik, şəkillər

**Şagirdlərin öyrənilən obyektlərlə bağlı ziddiyyətli fikirləri:**
– günəş çıxmasa, hava qaranlıq olar;
– axşam ay və ulduzlar hər tərəfi işıqlandırır.




## ● DƏRSİN PLANI

Bu mövzunun tədrisi zamanı proqnozlaşdırma, Venn diaqramı, müzakirə iş üsullarından, kollektivlə iş formasından istifadə edilə bilər.

**Proqnozlaşdırma:** Müəllim sinfə belə bir tapmaca verir:

*O hansı quşdur ki,*
*Bir qanadı ağdır,*
*Bir qanadı qara.*
*(gündüz, gecə)*

Şagirdlər bu tapmacanın cavabının gecə və gündüz olduğunu söyləyəcəklər. Müəllim isə bugünkü dərsin mövzusunun da gecə və gündüz olduğunu qeyd edir.

Əvvəlcə öyrəniləcək obyektlər haqqında biliklərinin diaqnostikası aparılır. Şagirdlər gecə və gündüz haqqında bildiklərini nümayiş etdirirlər. Daha sonra dərslik üzərində iş aparılır.

**Fikirləş**

Dərslikdəki mətn oxunur. Şagirdlərdən **16-cı səhifədəki** şəkildə gördüklərini danışmağı təklif olunur.

**Şəkil üzrə iş**

Şagirdlər şəkil üzrə danışaraq öz gördüklərini nəql edəcəklər. Onlar şəkildə Yer kürəsini, onun bir tərəfinin qaranlıq, digər tərəfinin günəş şüası tərəfindən işıqlandığını, qaranlıq tərəfdə uşağın yatdığını, işıqlı tərəfdə uşağın yuxudan durduğunu söyləyəcəklər. Bu halda müəllim onlara belə bir məlumat verəcək.

Bizim ölkədə gecə olanda bəzi ölkələrdə səhər, bizdə səhər olanda bəzi ölkələrdə gecə olur. Müəllim uşaqlara belə bir sual verir:

– Bu şəkildə hansı təbiət hadisəsi təsvir olunub? – Şagirdlər şəkildə gördüklərinə və müəllim tərəfindən qazandığı biliklərə əsaslanaraq gecə və gündüzün Yer kürəsinin fırlanması nəticəsində yarandığını söyləyəcəklər.

– Gecə ilə gündüz bir-birindən nə ilə fərqlənir? – sualının cavablandırılması zamanı müəllim gecə və gündüzün oxşar və fərqli cəhətlərini şagirdlərin söylədikləri əsasında qeyd edə bilər.







Bu tapşırıq zamanı uşaqlar gecə və gündüzün fərqini daha dərindən öyrənəcəklər.

– Sizcə, hansı fəsildə gündüzlər uzun olur? – sualına cavabında şagirdlər müəllimin köməyi ilə yay fəslində havanın daha çox işıqlı, qış fəslində isə havanın daha çox qaranlıq olduğunu söyləyəcəklər.

– Şəkillər arasındakı fərqi izah edin – tapşırığı altında verilmiş şəkildə şagirdlər 1-ci şəkildə günün çıxmasını, 2-ci şəkildə isə günün batmasını gördüklərini qeyd edəcəklər.

Bu zaman onlar səhər və axşam haqqında məlumat alacaqlar.

– Gün hansı hissələrə bölünür? – sualını bir qədər retrospektiv sual adlandırmaq olar, çünki məktəbəhazırlıq dövründə uşaqlar bu haqda məlumat almışlar. Onlar günün səhər, günorta, axşam və gecə hissələrindən ibarət olduğunu bilirlər.

– Şəkillər günün hansı vaxtlarını göstərir?

Şəkillərin altındakı dairələri şagirdlər günəş saatının altında təsvir olunan rənglərlə rəngləyəcəklər.

– Gün ərzində siz hansı işləri görürsünüz? – sualını cavablandırarkən şagirdlər gün rejimi haqqında sadə təsəvvürlərini şərh edəcəklər.

Bu fəaliyyət zamanı şagirdlər, eyni zamanda müəllimin köməyi ilə gün rejimi haqqında da məlumat əldə edəcəklər.

**Nəticə –** Yer kürəsi daim fırlanır. O fırlandığı üçün gecə və gündüz yaranır. Biz səhər oyanır, məktəbdə dərs oxuyur, günorta evə qayıdıb nahar edir, dərslərimizi hazırlayırıq. Axşam ailəmizlə birlikdə şam yeməyi yeyirik.

## Mövzu: 6. Yaz

**St: 1.1.1., 1.1.2., 4.1.2.**

**Öyrənilən obyektlər:**
Yaz fəsli

**Təlim nəticələri:**
Fəsillərin dəyişməsi zamanı ətraf aləmdə baş verən dəyişiklikləri izah edir.

Fəsillərin dəyişməsi zamanı havada temperaturun artması və azalmasını, insanların əməyində baş verən dəyişiklikləri fərqləndirir.

Geyimi hava durumuna uyğun seçmək lazım olduğunu izah edir.

**Əldə olunan bacarıqlar**
Bu dərsin köməyi ilə şagirdlər:
– yaz fəslinin əlamətləri haqqında məlumat alacaqlar.
– yaz fəslini digər fəsillərdən fərqləndirəcəklər.

**Materiallar və resurslar:**
Dərslik, şəkillər, rəngli karandaşlar,
A4 vərəqləri

**Şagirdlərin öyrənilən obyektlərlə bağlı ziddiyyətli fikirləri:**
– yaz fəslində meyvələr yetişir.
– yaz fəslində yağışlar yağmır.
– yaz fəslində havalar çox isti olur.




## ● DƏRSİN PLANI

Bu mövzunun tədrisi zamanı proqnozlaşdırma, klaster, Venn diaqramı, müzakirə iş üsullarından, kollektivlə iş formasından istifadə edilə bilər.

**Proqnozlaşdırma:** Müəllim şagirdlərə belə bir hekayə danışır.

Havalar isinməyə başlayır. Ağaclar tumurcuqlayır. Çayların suyu aşıb-daşır. Təbiət canlanır. Quşlar isti ölkələrdən qayıdırdı.

Bir oğlan uşaqlarla tez-tez çayda balıq tutmağa gedir. O, çiçəklənən ağaclara, göydə uçuşan qaranquşlara baxıb, təbiətin gözəlliyindən zövq alaraq atasına deyir:

– Ata, mən bu fəsli çox sevirəm.

Ata oğlunun dediklərini cib dəftərçəsinə qeyd edir.

Sizcə, uşaq atasına hansı fəsli sevdiyini söylədi?

Uşaqlar bu sualın cavabında yaz fəsli olduğunu söyləyəcəklər. Müəllim də bugünkü mövzunun yaz fəsli olduğunu deyir.

Sonra müəllim öyrəniləcək obyekt haqqında şagirdlərin baza biliklərinin diaqnostikasını aparır. Bunun üçün yazı lövhəsində klaster sxemi çəkir. Şagirdlər yaz fəsli haqqında bildiklərini nümayiş etdirirlər.

**YAZ**

Yaz fəslində:
– otlar yaşıllaşır;
– təbiət canlanır;
– quşlar isti ölkələrdən qayıdır;
– tez-tez yağışlar yağır;
– qar, buz əriyir;
– qış yuxusuna ayılır;
– çayların suyu çoxalır;
– ağaclar tumurcuqlayır.

Daha sonra dərslik üzərində iş aparılır.




**Fikirləş**

Dərslikdəki mətn oxunur. Müəllim yaz fəslinin dörd fəsildən biri, mart, aprel, mayın yaz ayları olduğunu qeyd edir. Şagirdlərə **18-ci səhifədəki** şəkildə gördüklərini danışmaq təklif edilir.

**Şəkil üzrə iş**

Şagirdlər şəkildə günəşin çıxmasını, qaranquşun yuva qurmasını, digər qaranquşların alçaqdan uçduqlarını, ağacların tumurcuqlamasını, qarın altından novruzgülünün çıxmasını, qarın ərimısini, oğlanın həvəslə bu mənzərəyə baxmasını və pəncərədəki pişiyi gördüklərini söyləyəcəklər.

– Yazda təbiətdə hansı dəyişikliklər baş verir? Bu dəyişmələrin səbəbi nədir? – sualları şagirdlərin diqqətini ətraf aləmin və canlıların həyatında temperaturun roluna yönəldəcək. Suala cavab olaraq şagirdlər deyəcəklər ki:

– qış fəslində təbiət yatmışdı, indi oyanıb canlanır;
– çayların suyu donmuşdu, indi axır;
– ağaclar çılpaqlaşmışdı, indi tumurcuqlayır.
– quşlar isti ölkələrdən qayıdır.

– Yazın ilin hansı fəsli ilə oxşarlığı var? – sualına isə şagirdlər payız fəsli ilə cavabını verəcəklər.

– Bu oxşarlıqları söyləyə bilərsinizmi? – sualı ilə müəllim şagirdlərdən bu fəsillər arasında oxşar və fərqli cəhətləri soruşur. Və onların cavablarını Venn diaqramında qeyd edir.




Yazda insanların geyimi necə olur? – sualına cavab verərkən şagirdlər deyə bilərlər ki, yaz fəslində havalar isinməyə başladığı üçün insanlar da geyimlərini bir qədər nazikləşdirir. Onlar gödəkcə, nazik papaq, burnuörtülü çəkmə geyinirlər.

Şagirdlər bu biliklərə əsaslanaraq “Dərslikdə verilmiş yaz geyimlərini seçin” – tapşırığını yerinə yetirəcəklər.

–Yazda insanlar hansı işləri görürlər? – sualını cavablandırarkən şagirdlər müəllimin köməyi ilə öyrənəcəklər ki, tarlalarda iş başlayır. Kəndlərdə insanlar əkin işləri ilə məşğul olurlar. Bostanlarda tərəvəz şitilləri əkilir. Torpağa toxum səpilir.

**Nəticə** – Şagirdlər bu dərsin köməyi ilə öyrənirlər ki, yaz fəslində təbiət canlanır, ağaclar yuxudan oyanır. Tarlalarda əkin işləri başlanır. Quşlar isti ölkələrdən qayıdırlar. Gündüzlər gündən-günə uzanır.

**Yaradıcı tətbiqetmə** – Yaz fəslinin şəklini çəkin.

## Mövzu: 7. Yay

**St: 1.1.1., 1.1.2., 4.1.2.**

**Öyrənilən obyektlər:**
Yay fəsli

**Təlim nəticələri:**
Fəsillərin dəyişməsi zamanı ətraf aləmdə baş verən dəyişiklikləri izah edir.
Fəsillərin dəyişməsi zamanı havada temperaturun artması və azalmasını, insanların əməyində baş verən dəyişiklikləri fərqləndirir.
Geyimi hava durumuna uyğun seçmək lazım olduğunu izah edir.

**Əldə olunan bacarıqlar**
Bu dərsin köməyi ilə şagirdlər:
– yay fəslinin əlamətləri haqqında məlumat alacaqlar;
– yay fəslini digər fəsillərdən fərqləndirəcəklər.

**Materiallar və resurslar:**
Dərslik, şəkillər, rəngli karandaşlar, A4 vərəqləri

**Şagirdlərin öyrənilən obyektlərlə bağlı ziddiyyətli fikirləri:**
– yayda heç vaxt yağış yağmır;
– bütün meyvələr yayda yetişir;
– yayda isti olmur.

**● DƏRSİN PLANI**

Bu mövzunun tədrisi zamanı proqnozlaşdırma, klaster, müzakirə iş üsullarından, kollektivlə iş formasından istifadə edilə bilər.
**Proqnozlaşdırma:** Müəllim şagirdlərə keçən dərsdə danışdığı hekayənin ardını danışır.
... Aylar keçir.
Bir gün atası oğlunu özü ilə dənizə çimməyə aparır. O, dənizdə çimir, günəş şüalarını qəbul edir. Apardıqları qarpızdan, yemişdən yeyir, isti qumun üzərində uşaqlarla maraqlı oyunlar oynayırdı. Səhəri gün atası onu meşəyə gəzməyə aparır. O biri gün isə o uşaqlarla həyətdə oynayır. İsti, günəşli günlərdən zövq alan uşaq atasına deyir:
– Ata, mən bu fəsli çox sevirəm.
Atası yenə ona heç nə demir, amma uşağın dediklərini cib dəftərçəsinə qeyd edir.
Müəllim "hekayənin ardını sizə gələn dərs danışacağam" deyir və şagirdlərə müraciət edir:




– Sizcə, uşaq atasına hansı fəsli sevdiyini söylədi?
Uşaqlar bu fəslin yay fəsli olduğunu söyləyəcəklər. Müəllim də bugünkü mövzunun yay fəsli olduğunu söyləyir.
Sonra müəllim öyrəniləcək obyekt haqqında şagirdlərin baza biliklərinin diaqnostikasını aparır. Bunun üçün yazı lövhəsində klaster sxemi çəkir. Şagirdlər yay fəsli haqqında bildiklərini nümayiş etdirirlər.

**YAY**

Yay fəslində:
– çayda balıq tuturlar;
– qarpız, yemiş yetişir;
– kəndə istirahətə gedirlər;
– uşaqlar tətilə çıxır;
– çiyələk, alça yetişir;
– dənizdə çimirlər;
– isti, günəşli havalar olur.
Daha sonra dərslik üzərində iş aparılır.




**Fikirləş**

Dərslikdəki mətn oxunur. Müəllim yay fəslinin dörd fəsildən biri olmasını, iyun, iyul, avqustun yay ayları olduğunu qeyd edir.

Şagirdlərə **20-ci səhifədəki** şəkildə gördüklərini danışmağı təklif edilir.

**Şəkil üzrə iş**

Şagirdlər şəkil üzrə danışaraq gördüklərini nəql edəcəklər. Onlar şəkildə çimərlikdə uşaqların qumla, digər uşaqların isə çəmənlikdə topla oynadıqlarını, böyüklərin təmiz havada istirahət etdiklərini deyəcəklər. Müəllim uşaqlara belə bir sualla müraciət edir.

– Yay başqa fəsillərdən hansı xüsusiyyətləri ilə fəqlənir? – Bu suala şagirdlər müxtəlif cavablar verə bilərlər:

– digər fəsillərdə dənizdə çimmirlər;

– digər fəsillərdə uşaqlar məktəbə gedirlər;

– digər fəsillərdə havalar çox isti olmur;

– digər fəsillərdə alça, çiyələk, qarpız, yemiş yetişmir.

– Günəş şüasının insanlara nə faydası var? – sualının cavabında isə şagirdlər müəllimin köməyi ilə günəşin şüalarının vitaminlə zəngin olmasını öyrənəcəklər.

– Yayda insanlar hansı işləri görürlər? – sualına cavabda isə şagirdlər müəllimin köməyi ilə öyrənəcəklər ki, yayda insanlar bağlarda, bostanlarda, tarlalarda, evlərdə qışa hazırlıq işləri ilə məşğul olurlar. Mürəbbə bişirirlər, turşu qoyurlar, kompot hazırlayırlar. Meyvə-tərəvəz, dənli bitkilər yığıb, qış tədarükü görürlər.

– Oğlan otu nə üçün arabaya yığır? – sualını yenə də müəllimin köməyi ilə cavablandıracaqlar. Onlar oğlanın otu qışda ev heyvanlarını yemləmək üçün yığdığını deyəcəklər.

– Uşaqlar nənə və babaya hansı işdə kömək edirlər? – sualına isə uşaqların gücləri çatdıqları qədər baba və nənələrinə meyvə toplamağa və daşımağa kömək etdiklərini söyləyəcəklər.

– Yay geyimləri hansılardır? – fəaliyyəti zamanı şagirdlər verilmiş şəkillərdə yay geyimlərini seçəcəklər. Bu da “Həyat bilgisi” fənninin “Təsviri incəsənət” fənni ilə inteqrasiyasını əks etdirəcək.

**Nəticə** – Şagirdlər bu dərsin köməyi ilə öyrənirlər ki, yay fəsli ən isti fəsildir. İnsanlar dənizdə çimir, istirahət edirlər. Yayda bir çox meyvələr yetişir. Yayda qış üçün hazırlıq işləri görürlər.

**Yaradıcı tətbiqetmə** – Yay fəslinin şəklini çəkin.

## Mövzu: 8. Payız

**St: 1.1.1., 1.1.2., 4.1.2.**

**Öyrənilən obyektlər:**
Payız fəsli

**Təlim nəticələri:**
Fəsillərin dəyişməsi zamanı ətraf aləmdə baş verən dəyişiklikləri izah edir.

Fəsillərin dəyişməsi zamanı havada temperaturun artması və azalmasını, insanların əmə-yində baş verən dəyişiklikləri fərqləndirir.

Geyimi hava durumuna uyğun seçmək lazım olduğunu izah edir.

**Əldə olunan bacarıqlar**
Bu dərsin köməyi ilə şagirdlər:
– payız fəslinin əlamətləri haqqında məlumat alacaqlar;
– payız fəslini digər fəsillərdən fərqləndirəcəklər.

**Materiallar və resurslar:**
Dərslik, şəkillər, rəngli karandaşlar, A4 vərəqləri

**Şagirdlərin öyrənilən obyektlərlə bağlı ziddiyyətli fikirləri:**
– payız fəslində hər gün yağış yağır;
– payız fəslində ölkəmizə çoxlu quşlar gəlir;
– payızda ərik, alça yetişir.

**● DƏRSİN PLANI**

Bu mövzunun tədrisi zamanı proqnozlaşdırma, klaster, müzakirə iş üsullarından, kollektivlə iş formasından istifadə edilə bilər.

**Proqnozlaşdırma:** Müəllim keçən dərsdə danışdığı hekayənin ardını danışır.

... Aylar keçir. Havalar bir qədər sərinləşir. Bağlarda alma, heyva, nar yetişir. Oğlan bu meyvələrdən ləzzətlə yeyir. Saralıb tökülən yarpaqların üstündə gəzərək, isti ölkələrə uçub gedən köçəri quşlara tamaşa edir. Bu anda o atasına söyləyir:

– Ata, mən bu fəsli çox sevirəm.

Ata ona heç nə demir, amma uşağın dediklərini yenə cib dəftərçəsinə qeyd edir.

Müəllim “hekayənin ardını sizə gələn dərs danışacağam”, – deyir və şagirdlərə müraciət edir:

– Sizcə, uşaq atasına hansı fəsli sevdiyini söylədi?




Uşaqlar bu sualın cavabında payız fəsli olduğunu söyləyəcəklər. Müəllim də bugünkü mövzunun payız fəsli olduğunu söyləyir.

Sonra müəllim öyrəniləcək obyekt haqqında şagirdlərin baza biliklərinin diaqnostikasını aparır. Bunun üçün müəllim yazı lövhəsində klaster sxemi çəkir. Şagirdlər payız fəsli haqqında bildiklərini nümayiş etdirirlər.

**PAYIZ**

Payız fəslində:
– küləklər əsir;
– ağacların yarpaqları saralıb tökülür;
– yağışlar yağır;
– insanlar isti geyinməyə başlayırlar;
– alma, armud, heyva, nar yetişir;
– quşlar isti ölkələrə uçub gedir.
Daha sonra dərslik üzərində iş aparılır.




**Fikirləş**

Dərslikdəki mətn oxunur. Müəllim payız fəslinin dörd fəsildən biri olduğunu deyir. Sentyabr, oktyabr, noyabrın payız ayları olduğunu qeyd edir. Şagirdlərə **22-ci səhifədəki** şəkildə gördüklərini danışmağı təklif edilir.

**Şəkil üzrə iş:**

Şagirdlər şəkildə quşların uçduğunu, yarpaqların saralıb yerə töküldüyünü, uşaqların isti paltar geyindiklərini deyəcəklər.

– Payız başqa fəsillərdən hansı xüsusiyyətləri ilə fəqlənir? – sualına şagirdlər müxtəlif cavablar verə bilərlər:

– digər fəsillərdə quşlar isti ölkələrə uçub getmirlər;

– digər fəsillərdə nar, üzüm, heyva yetişmir;

– digər fəsillərdə ağacların yarpaqları saralıb, tökülmür;

– Payızda təbiət necə dəyişir? – sualına cavab olaraq şagirdlər yaydan sonra havaların sərinləşdiyini, ağaclarda yaşıl yarpaqların sarı rəngə boyanmasını deyəcəklər.

– Payızda insanlar hansı işləri görürlər? – sualına – Payızda insanlar qışa hazırlıq işləri görürlər, – deyə cavab verəcəklər.

– Payız meyvələrindən nə hazırlanır? – sualına şagirdlər bu meyvələrdən mürəbbə bişirildiyini, kompot hazırlandığını və bu meyvələrdən təbii şirələrin hazırlandığını söyləyəcəklər.

– Uşaqlar hansı meyvələri yığırlar? – sualı ilə uşaqların diqqətini **səhifə 23-dəki** şəklə yönəldərək payızda yetişən meyvələri: xurma, nar və heyvanı onların nəzərinə çatdıracaq.

– Payızda daha hansı meyvələr yetişir? – sualına verilən cavablar şagirdlərin alma, armud, heyva, nar, xurma, feyxoa, üzüm, portağal, naringi və s. meyvələrin payızda yetişməsini öyrənmələrinə vəsilə olacaqdır. Bu fəaliyyət zamanı şagirdlər bir çox payız meyvələrinin adlarını öyrənəcəklər.

Uşaqların geyimi yaydakından necə fərqlənir? – sualına cavab verərək insanların yay fəslindən fərqli daha isti, yəni plaş, gödəkcə və burnuörtülü ayaqqabı geyindiklərini, isti papaq qoyduqlarını qeyd edəcəklər.

Müəllim payız fəslində insanların özləri ilə çətir gəzdirmələrində fayda olduğunu söyləyir, çünki payız fəslində tez-tez yağışlar yağır.

Şagirdlər payızda havaların getdikcə soyuduğu üçün daha isti geyinməyin vacib olduğunu söyləyəcəklər.

“Payız meyvələrini rəngləyin”. Bu fəaliyyət zamanı şagirdlər meyvələri rənglərinə uyğun rəngləyirlər. Bu da “Həyat bilgisi” fənninin “Təsviri incəsənət” fənni ilə inteqrasiyası olacaqdır.

**Müəllim üçün mövzuya dair məlumat**

“Payız meyvələrini rəngləyin” tapşırığında şagirdlərə payızda yetişən qabaq, alma, armud və üzüm rəngləmək təklif olunur. Burada bir məqamı nəzərə çatdırmağı məqsədəuyğun hesab edirik: mətbəximizdə geniş istifadə olunan və çoxlarının tərəvəz hesab etdiyi qabaq əslində giləmeyvədir. Bu səbəbdən tapşırığın şərtində ümumiləşdirici “meyvə” sözündən istifadə olunmuşdur.

**Nəticə** – Şagirdlər bu dərsin köməyi ilə öyrənirlər ki, payız fəslində havalar sərinləşir, tez-tez yağışlar yağır, insanlar isti geyinir, quşlar isti ölkələrə köçür. Gündüzlər getdikcə qısalır.

**Yaradıcı tətbiqetmə** – Payız fəslinin şəklini çəkin.

## Mövzu: 9. Qış

**St: 1.1.1., 1.1.2., 4.1.2.**

**Öyrənilən obyektlər:**
Qış fəsli

**Təlim nəticələri:**

Fəsillərin dəyişməsi zamanı ətraf aləmdə baş verən dəyişiklikləri izah edir.

Fəsillərin dəyişməsi zamanı havada temperaturun artması və azalmasını, insanların əməyində baş verən dəyişiklikləri fərqləndirir.

Geyimi hava durumuna uyğun seçmək lazım olduğunu izah edir.

**Əldə olunan bacarıqlar**

Bu dərsin köməyi ilə şagirdlər:

– qış fəslinin əlamətləri haqqında məlumat alacaqlar.

– qış fəslini digər fəsillərdən fərqləndirəcəklər.

**Materiallar və resurslar:**

Dərslik, şəkillər, rəngli karandaşlar, A4 vərəqləri

**Şagirdlərin öyrənilən obyektlərlə bağlı ziddiyyətli fikirləri:**

– qış fəslində uşaqlar soyuq olduğu üçün dərsə getmirlər;

– qışda heyvanlar çöldə soyuqdan məhv olurlar;

– qışda portağal, naringi yetişir.

### ● DƏRSİN PLANI

Bu mövzunun tədrisi zamanı proqnozlaşdırma, klaster, müzakirə iş üsullarından, kollektivlə iş formasından istifadə edilə bilər.

**Proqnozlaşdırma:** Müəllim keçən dərsdə danışdığı hekayənin ardını danışır.

... Aylar keçir. Havalar soyuyur. Qar yağır. Sular buz bağlayır. Ağaclar çılpaq olur. Oğlan həyətdə uşaqlarla qartopu oynayır, xizəklə sürüşür. Qardan adam düzəldir. Şaxtadan yanaqları qıpqırmızı qızarır. O, atasına deyir:

– Ata, mən bu fəsli çox sevirəm.

Atası üzünü oğluna tutub deyir:

– Oğlum, sən bu sözləri o biri fəsillər üçün də demişdin. Deməli, sən bütün fəsilləri sevirsən. Əlbəttə, hər fəslin öz gözəlliyi, öz yeri var.

– Sizcə, uşaq atasına hansı fəsli sevdiyini söylədi?




Uşaqlar bu sualın cavabının qış fəsli olduğunu söyləyəcəklər. Müəllim bugünkü mövzunun da qış fəsli olduğunu söyləyir.

Sonra müəllim öyrəniləcək obyekt haqqında şagirdlərin baza biliklərinin diaqnostikasını aparır. Bunun üçün yazı lövhəsində klaster sxemi çəkir. Şagirdlər qış fəsli haqqında bildiklərini nümayiş etdirirlər.

**QIŞ**

Qış fəslində:
– havalar soyuyur;
– qar yağır;
– sular donur;
– insanlar qalın geyinir;
– ağaclar çılpaqlaşır;
– tarlalarda işlər dayanır.
Daha sonra dərslik üzərində iş aparılır.




**Fikirləş**

Dərslikdəki mətn oxunur. Müəllim qış fəslinin dörd fəsildən biri olmasını, dekabr, yanvar, fevralın qış ayları olduğunu qeyd edir. Şagirdlərə **24-cü səhifədəki** şəkildə gördüklərini danışmağı təklif edilir.

**Şəkil üzrə iş:**

Şagirdlər şəkildə hər tərəfə qar yağdığını, uşaqların papaq, əlcək, şərf, palto, uzunboğaz çəkmə geyinib həyətdə qartopu oynadıqlarını, qardan qaradamı düzəltdiklərini, yerdə suların buz bağladığını, uşaqların quş dənliyində olan quşlara dən verdiklərini deyəcəklər.

– Qış başqa fəsillərdən hansı xüsusiyyətləri ilə fəqlənir? – sualına şagirdlər müxtəlif cavablar verə bilərlər:

– digər fəsillərdə qar yağmır, sular donmur;
– digər fəsillərdə uşaqlar əlcək, şərf taxmırlar;
– digər fəsillərdə ağaclar çılpaq olmur;
– digər fəsillərdə tarlalarda iş gedir, bu fəsildə isə torpaq dincəlir;
– qış fəslində gecələr uzun olur.

– İnsanlar qışda necə geyinirlər? – sualına şagirdlər qışda insanların əlcək geyindiklərini, şərf bağladıqlarını, uzunboğaz çəkmə, qalın palto geyindiklərini söyləyəcəklər.

– Qışda heyvanların yem tapması nə üçün çətinləşir? – sualını cavablandıraraq şagirdlər qış fəslində qar yağdığını və hər tərəfin qarla örtüldüyünü, bu səbəbdən heyvanların yem tapmalarının çətinləşdiyini söyləyəcəklər.

Qışda vəhşi heyvanların yem tapması çətinləşir, çünki ev heyvanları insanların qayğısı altında olurlar – söyləyəcəklər. Bu zaman müəllim şagirdlərə maraqlı məlumat da verəcək. Bir çox heyvanlar yuvalarına çəkilib bütün qışı yatırlar. Buna misal olaraq ayını göstərə bilərlər.

– İnsanlar qışda heyvanlara necə kömək edə bilərlər?– Bu sual şagirdlərin diqqətini ətraf mühit və canlı aləmin qorunması üçün insanların fəaliyyətinə istiqamətləndirmək üçündür. Şagirdlər şəklə əsasən deyəcəklər ki, bu çətinliyi aradan qaldırmaq üçün uşaqlar ağacların budaqlarında quş yuvaları düzəldib, quşlara dən atırlar. Onları qışda ac qalmağa qoymurlar.

“ Tapmacaların cavablarını tapıb çərçivələrə şəklini çəkin” (1-ci tapmacanın cavabı əlcək, 2-ci tapmacanın cavabı isə şərfdir). Bu fəaliyyət zamanı şagirdlər verilən tapmacaların cavabını tapıb rənglərə uyğun çərçivədə şəkillərini çəkəcəklər. Bu da “Həyat bilgisi” fənninin “Təsviri incəsənət” fənni ilə inteqrasiyasını əks etdirəcək.

**Nəticə –** Şagirdlər bu dərsin köməyi ilə öyrənirlər ki, qış fəsli ilin ən soyuq fəslidir. Qışda heyvanların yem tapmaları çətinləşir. Qış fəslində gecələr uzun olur. İnsanlar qalın geyinirlər. Ağaclar çılpaqlaşır.

**Yaradıcı tətbiqetmə –** Qış fəslinin şəklini çəkin.








# Ətrafımızdakı insanlar



## Mövzu: 10. Siz və dostlarınız

**St: 2.1.1., 3.2.1., 3.2.2.**

**Öyrənilən obyektlər:**

Fərd, şəxsiyyət, mənəvi keyfiyyətlər

**Təlim nəticələri:**

Özünü ayrılıqda bir şəxs olduğunu dərk edir.

Şəxsiyyətin formalaşmasında mənəvi keyfiyyətləri nümayiş etdirir.

Mənəviyyata zidd olan xüsusiyyətlərin mənfi hərəkət olmasına münasibət bildirir.

**Əldə olunan bacarıqlar**

Bu dərsin köməyi ilə şagirdlər:

– özünün və hər bir dostunun ayrı-ayrılıqda fərd, şəxsiyyət olduğunu öyrənəcəklər;

– şəxsiyyəti formalaşdıran mənəvi keyfiyyətlərin (düzlüyün, doğruluğun, çalışqanlığın, səmimiliyin) insanın formalaşması üçün lazımi keyfiyyətlər olduğunu dərk edəcəklər;

– mənəviyyata zidd olan xüsusiyyətlərin (inamı itirmək, sağlam olmayan rəqabət aparmaq, etibarı itirmək) insana ziyan vurduğunu, (yalan danışmağın, xəbərçilik, paxıllıq etməyin) mənfi hərəkət olmasını başa düşəcəklər.

**Materiallar və resurslar:**

Dərslik, şəkillər, iş vərəqləri.

**Şagirdlərin öyrənilən obyektlərlə bağlı ziddiyyətli fikirləri:**

– mən hamıdan fərqliyəm;

– bütün insanların xasiyyəti eynidir və onlar mehriban, səmimidirlər.

### ● DƏRSİN PLANI

Bu mövzunun tədrisi zamanı proqnozlaşdırma, anlayışın çıxarılması, müzakirə iş üsullarından, qrup işi və kollektivlə iş formalarından istifadə edilə bilər.

**Proqnozlaşdırma:** Əvvəlcə öyrəniləcək obyektlər haqqında şagirdlərin ilkin baza biliklərinin diaqnostikası aparılır.




Bu zaman müəllim anlayışın çıxarılması sxemini qurur.




Müəllimin köməyi ilə şagirdlər bu sözün **dost** olduğunu söyləyəcəklər.

Sonra müəllim uşaqlara belə bir sual verir:

– Sizcə, necə insanlarla dostluq etmək yaxşıdır?

Şagirdlər suala müxtəlif cavablar verəcəklər. Cavablar ümumiləşdiriləcək.

**Fikirləş:**

Əsl dost necə olmalıdır? Dərslikdəki mətn oxunur, şagirdlər özlərinin bir fərd olduqlarını, ətrafdakı həmyaşıdlarının isə onların dostu olduqlarını öyrənəcəklər.

Şagirdlərə **28-ci və 29-cu səhifələrdəki** şəkillərdə gördüklərini danışmaq təklif olunur.




**Şəkil üzrə iş:**

Şagirdlər şəkildə gördüklərini şərh edərək sualları cavablandıracaqlar.

– Sizcə, şəkildə gördüyünüz insanları hansı münasibətlər bağlayır? – Bu suala şagirdlər cavab olaraq insanları bir-birinə dostluq və insani keyfiyyətlər bağlayır, – deyə söyləyəcəklər.

– Bu oğlan uşaqlara qarışmır. Onun çatışmayan hansı xüsusiyyətlərini deyə bilərsiniz? – Şagirdlər o lovğadır, özünü dartır, özündən başqa heç kimi sevmir və s. deyə cavab verəcəklər. Bu zaman müəllim bu xüsusiyyətlərin pis vərdiş olduğunu anladacaq.

– Dostluq etmək üçün insanda hansı keyfiyyətlər olmalıdır? – Bu suala cavab olaraq şagirdlər səmimi, fədakar, əliaçıq, cəsarətli, mərd kimi insani keyfiyyətləri sadalayacaqlar.

– Bu uşaqlar bir-biri ilə necə davranırlar? Onlar buna necə nail olublar? – Bu sualın cavabında şagirdlər bu uşaqlar bir-biri ilə mehriban davranırlar deyə, – söyləyəcəklər, bu dostluğa onlarda yüksək mənəvi keyfiyyətlərin olduğu üçün nail olduqlarını deyəcəklər.

– Qız müsabiqənin qalibi olan rəfiqəsinə niyə belə baxır?

– Qız rəfiqəsinə paxıllıq edir, çünki o yer tutmayıb, – deyə şagirdlər cavab verəcəklər.

– Rəfiqəsinin uğruna onun münasibəti əslində necə olmalıdır? Şagirdlər bu sualın cavabına təbii ki, belə söyləyəcəklər:

– Rəfiqəsi dostunun uğuruna pis olmamalıdır, əksinə sevinməli və onu təbrik etməlidir. Çünki paxıllıq pis xüsusiyyətdir. Nə vaxtsa o özü də uğur qazana bilər.

– Yaxşı keyfiyyətləri göstərən sözləri seçib altından xətt çəkin. Bu fəailyyəti yerinə yetirərkən şagirdlər bir daha müsbət keyfiyyətlər haqqında məlumat alacaqlar.

**Qrup işi –** Müəllim şagirdləri 4 qrupa bölür.

**I qrup** – Dost insana nə üçün lazımdır? Cavabınızı əsaslandırın.

**II qrup** – “Dost dosta tən gərək, tən olmasa, gen gərək” atalar sözünün mənasını açıqlayın.

**III qrup** – “Əsl dost dar gündə tanınar” atalar sözünün mənasını açıqlayın.

**IV qrup** – “Dost yolunda boran olar, qar olar” ifadəsini izah edin.

**Nəticə –** Bu dərsin köməyi ilə şagirdlər öyrəndilər ki, yaxşı insan olmaq üçün hər kəs yüksək mənəvi keyfiyyətlərə malik olmalıdır. Mənfi xüsusiyyətlər isə insanı hörmətdən salır və heç kim onunla dostluq etmək istəmir.

## Mövzu: 11. Ailə

**St: 2.1.1., 2.1.3., 3.4.1.**

**Öyrənilən obyektlər:**
Ailə, ailə üzvləri

**Təlim nəticələri:**
Ailənin birlikdə yaşamasını izah edir.

Ailədə (evə çörək almaq, zibil atmaq, əşyaları yığışdırmaq) və məktəbdə yerinə yetiriləcək işlər (sinifdə növbətçi olmaq, dərs ləvazimatlarını yığışdırmaq) barədə məlumat verir.

Ailədaxili münasibətlərin əhəmiyyətini (qarşılıqlı köməyin, mehribanlığın, doğruçuluğun, çalışqanlığın, səmimiliyin) şərh edir.

Mənəvi borc (böyüklərə hörmət, kiçiklərə və xəstələrə qayğı) haqqında təsəvvürlərini ifadə edir.

**Əldə olunan bacarıqlar**
Bu dərsin köməyi ilə şagirdlər:
– ailənin doğma insanların birliyi olduğunu öyrənəcəklər;
– yaxın qohumlarının da ailə üzvü olduğunu öyrənəcəklər;
– ailədə üzərinə düşən vəzifələr haqqında məlumat alacaqlar;
– kiçiklərə qayğı göstərməyin, xəstə və zəif insanlara yardım etməyin mənəvi borc olduğunu dərk edəcəklər.

**Materiallar və resurslar:**
Dərslik, şəkillər, rəngli karandaşlar, A4 vərəqləri

**Şagirdlərin öyrənilən obyektlərlə bağlı ziddiyyətli fikirləri:**
– nənə, baba ailə üzvləri deyil;
– yaxın qonşular da ailə üzvləridir;
– ailədə bütün işləri ata-ana etməlidir.

### ● DƏRSİN PLANI

Bu mövzunun tədrisi zamanı proqnozlaşdırma, anlayışın çıxarılması, müzakirə iş üsullarından, kollektivlə iş və fərdi iş formalarından istifadə edilə bilər.

**Proqnozlaşdırma:** Əvvəlcə öyrəniləcək obyektlər haqqında şagirdlərin baza biliklərinin diaqnostikası aparılır. Bu zaman müəllim şagirdlərə belə bir şeir parçası oxuyur.

*Bilirsiniz, mən nə üçün*
*Çox sevirəm bibimi?*
*O mənə çox mehribandır,*
*Əzizdir anam kimi.*

*Xalamı da çox sevirəm,*
*Mənə elə "can" deyir,*
*Sən ağıllı, sözəbaxan*
*"Qəşəng qızımsan" – deyir.*




*Evimizdə mən hamıdan*
*Çox sevirəm nənəmi,*
*Qış gecəsi nağıl deyir,*
*Əyləndirir o məni.*

*Ancaq niyə heç bilmirəm,*
*Gözüm yaşla dolanda,*
*Mən anamın qucağına*
*Atılıram bir anda?!*

– Uşaqlar, şeirdə səslənən bibi, xala, ana, nənə sözlərinin ardıcıllığını davam etdirin, – deyə müəllim sinfə müraciət edir. Onlar dayı, əmi, baba, ata, bacı, qardaş, – deyə yaxın qohumluq əlaqəsində olan insanları sadalayacaqlar.

– Bəs bunlara ümumilikdə necə ad verə bilərik? – sualına isə şagirdlər – ailə üzvləri və ya qohumlar, – deyə bilərlər. Müəllim əlavə olaraq bir neçə sual da verə bilər:

– Əmi, dayı, xala, bibi kimlərə deyilir?

– Nə üçün sizin iki nənəniz, iki babanız var?

Beləliklə, şagirdlər ailə üzvləri haqqında ilkin biliklərini nümayiş etdirirlər.

**Fikirləş**

Müəllim yazı lövhəsində şagirdlərin köməyi ilə anlayışın çıxarılması sxemini qurur.




Ailə üzvləri boş vaxtlarını necə keçirə bilərlər?

Tapmacaların cavabını çərçivələrə yazın.

1. Doğulan gündən,
Qoymayır gözdən.
Dəcəl olsaq da,
İncimir bizdən.

2. Hamımızın böyüyüdür,
Saçı-saqqalı ağdır.
Nəvəsi ilə qürurlanır,
Deyir: "Balam qoçaqdır!"

3. Hər gün bizimlə oynayar,
Axşam işdən gələndə.
Hamımızın üzü gülər
O, "Afərin!" deyəndə.

4. Anamızın anasıdır,
Qayğıkeş, mehribandır.
Ondan çox şey öyrənirik,
Bizə əziz insandır.

Ailə doğma insanların birliyidir. Ailə üzvləri hər işdə bir-birlərinə kömək etməlidirlər.

31

Şagirdlərə **30-cu və 31-ci səhifələrdəki** şəkillərdə gördüklərini danışmaq təklif olunur.

**Şəkil üzrə iş:**

Şagirdlər şəkildə ata, ana və uşaqlar olduğunu söyləyəcəklər. Və bu uşaqların bacı-qardaş olduqlarını da qeyd edəcəklər.

– Ailə üzvləri bir-birilərinin qayğısına necə qalırlar? – sualını da hər bir şagird fərdi olaraq cavablandıracaq.

– Ailə üzvləri bir-birilərinə hansı işlərdə kömək edirlər?

Bu fəaliyyət zamanı müəllim onlara uşaqların valideynlərinə hansı işlərdə köməkçi olmaları haqqında müəyyən istiqamətlər verə bilər. Qızlar yemək süfrəsi hazırlanan zaman analarına kömək etməlidirlər. Oğlanlar çörək ala bilərlər, zibil ata bilərlər. Özlərindən kiçik bacı və qardaşlarına dərslərində kömək edə bilərlər. Ailə üzvləri bir-birilərinə qayğı ilə yanaşmalıdırlar.

– Valideynlərinizə hansı işlərdə kömək edirsiniz?

Bu fəaliyyət zamanı hər bir şagird əvvəlcə dərslikdəki şəkildə gördüklərini təsvir edəcəkdir. Bacısının xəstə qardaşına çay aparmasını, xəstə nənəsinə qızın su verməsini, oğlanın balaca qardaşını gəzdirməsini mənəvi borc olduğunu dərk edəcəklər. Daha sonra isə evdə valideynlərinə hansı işlərdə köməkçi olduqlarını söyləyəcəklər.

– Ailə üzvləri boş vaxtlarını necə keçirə bilərlər? – sualına isə şagirdlər şəklə əsaslanaraq cavab verirlər ki, onlar birlikdə maraqlı oyunlar oynaya, yaxın qohumlarına qonaq gedə, əzizlərini, doğmalarını ziyarət edə bilərlər. Müəllim qeyd edir ki, bu cür fəaliyyətlər qohumlar arasında səmimi münasibət yaradır və çox müsbət keyfiyyətdir. Xüsusi ilə də baba və nənələrə hər zaman diqqət yetirmək hər birimizin mənəvi borcudur.

*Anamızın anasıdır,*
*Qayğıkeş, mehribandır.*
*Onu hamımız sevirik,*
*Bizə əziz insandır.*
*(nənə)*

*Hamımızın böyüyüdür,*
*Saçı-saqqalı ağdır.*
*Nəvəsilə qürurlanır,*
*Deyir: "Balam qoçaqdır".*
*(baba)*

"Söhbət hansı ailə üzvlərindən gedir?" başlıqlı tapmacaları cavablandıran şagirdlər baba və nənədən söhbət getdiyini deyəcəklər. Nənə və babanın, ayrı yaşasalar da, bir ailə üzvü olduqlarını söyləyəcəklər.

**Nəticə** – Şagirdlər bu dərsin köməyi ilə öyrənirlər ki, ata, ana, bacı, qardaş bir ailənin üzvüdür. Bəzi ailələrdə baba, nənə və digər yaxın qohumlar birlikdə yaşayırlar və ailə üzvlərinin sayı çox olur. Ailə üzvləri bir-birinə qayğı ilə yanaşmalı, ev işlərində bir-birinə kömək etməlidirlər.

**Yaradıcı tətbiqetmə** – A4 vərəqində "Mənim ailəm" mövzusunda şəkil çəkin.

## Mövzu: 12. Kollektiv

**St: 2.1.1., 2.1.2., 3.2.2.**

**Öyrənilən obyektlər:**
Kollektivlər

**Təlim nəticələri:**

Kollektivi eyni yerdə oxuyan, işləyən, çalışan insanların birliyi kimi başa düşdüyünü nümayiş etdirir.

İnsanların kollektivdə birləşməsinin faydalarını nümunələr əsasında izah edir.

Kollektivdaxili münasibətlərdə mənfi keyfiyyətlərin (yalan danışmaq, xəbərçilik, paxıllıq etmək) kollektivin işinə zərər vurmasını anladığını nümayiş etdirir.

**Əldə olunan bacarıqlar**

Bu dərsin köməyi ilə şagirdlər:

– eyni yerdə oxuyan, işləyən çalışan insanların birliyinin kollektiv olmasını öyrənəcəklər;

– kollektivdə insanların çətin və ağır işlərin bir yerdə və bir-birilərinə kömək göstərməklə icra etmələrini öyrənəcəklər;

– kollektivdaxili münasibətlərdə mənfi xüsusiyyətlərdən kənar olmağın əhəmiyyətini öyrənəcəklər.

**Materiallar və resurslar:**
Dərslik, şəkillər, A4 vərəqləri

**Şagirdlərin öyrənilən obyektlərlə bağlı ziddiyyətli fikirləri:**

– kollektivin insanlara xeyri yoxdur;

– kollektivdə hamı bir-biri ilə dalaşır, bir-birlərini aldadırlar.




### ● DƏRSİN PLANI

Bu mövzunun tədrisi zamanı proqnozlaşdırma, anlayışın çıxarılması, müzakirə iş üsullarından, kollektivlə iş, fərdi iş formalarından istifadə edilə bilər.

**Proqnozlaşdırma:** Əvvəlcə öyrəniləcək obyektlər haqqında şagirdlərin baza biliklərinin diaqnostikası aparılır. Şagirdlər kollektiv haqqında bildiklərini nümayiş etdirəcəklər. Sonra müəllim şagirdlərə “Yeddi nar çubuğu” hekayəsini danışır. Bu riyaziyyat fənni ilə inteqrasiyadır.

Bir kişinin 7 oğlu var idi. Bir gün ata onları yanına çağırdı, əlindəki 7 nar çubuğunu bir yerə dəstələyib möhkəm iplə bağladı, sonra çubuqları oğlanlarına verib dedi:

– Çubuqları qırın görüm, gücünüz çatarmı?

Qardaşlar nə qədər çalışdılarsa, çubuq dəstəsini qıra bilmədilər. Ata çubuq dəstəsini açıb hərəsini bir oğluna verdi. Oğullar hərəsi bir nar çubuğunu götürüb qatlayan kimi iki yerə böldülər.

Ata üzünü oğullarına tutub dedi:

– Nə qədər ki nar çubuqları bir yerdə – dəstə halında idi, heç biriniz qıra bilmədiniz, amma ayrılıqda tək-tək hərəniz bir çubuq qıra bildiniz. Bax siz də 7 qardaşsınız. Əgər həmişə bir yerdə olsanız, gücünüz də bir olar, heç kim sizə qalib gələ bilməz! Qardaşlar gördülər ki, ataları düz deyir. Güc birlikdədir!

Müəllim sinfə belə bir sualla müraciət edir:

“Güc birlikdədir”, “Tək əldən səs çıxmaz” atalar sözlərini necə başa düşürsünüz?

Şagirdlər müxtəlif cavablar verəcəklər. Müəllim cavabları ümumiləşdirərək atalar sözlərinin mənasını açıqlayır və kollektivin də bir yerdə hər bir işin öhdəsindən gəldiyini izah edir.




**Fikirləş**

Müəllim şagirdlərdən 4-nü bir, 2-sini bir, 1 nəfəri isə fərdi olaraq qruplara ayırır. Qrupa, cütə və fərdə bir riyazi məsələni həll etməyi tapşırır və vaxt qoyur.

Təbii ki, qrupla işləyən şagirdlər bu tapşırığı 1-ci bitirəcəklər. Müəllim bunun səbəbini onların kollektiv şəkildə işləmələri ilə əlaqələndirir. Kollektivdə insanlar öz gücünü birləşdirir, nəticə çox tez və keyfiyyətli olur.

Dərslikdəki mətn oxunur. Ətrafda çoxlu sayda kollektivlərin olduğu öyrənilir. Şagirdlərə **32-ci və 33-cü səhifələrdəki** şəkillərdə gördüklərini danışmaq təklif olunur.

**Şəkil üzrə iş:**

Şagirdlər şəkil üzrə danışaraq gördüklərini şərh edəcəklər.

– Uşaqlar melodiyanı nə üçün birlikdə ifa edirlər? – sualının cavabında şagirdlər musiqi fənnindən əldə etdikləri biliklərə əsasən onların bir ansambl olduğunu söyləyəcəklər və ansamblın musiqi kollektivi olduğunu öyrənəcəklər.

– Bu oyunu təklikdə oynamaq olarmı? – sualına şagirdlər təbii ki, "xeyr" cavabını verəcəklər.

– Çoxluqla oynanılan daha hansı oyunları bilirsiniz? – Şagirdlər müxtəlif oyunların adlarını söyləyəcəklər. Məsələn: futbol, voleybol, xokkey, basketbol və s. Bunların da idman kollektivi olduğunu deyəcəklər.

– Təklikdə bu binanı tikmək mümkündürmü? – sualına artıq şagirdlər əvvəlki sualları cavablandıran zaman aldıqları biliklərə əsaslanaraq "əlbəttə, yox" cavabını verər və bu çalışanların tikinti kollektivi olduğunu söyləyə bilərlər.

– İnsanlar daha hansı işləri kollektiv şəkildə görürlər? – sualına cavab olaraq şagirdlər müxtəlif kollektivlərin adını çəkəcəklər.

– Kollektiv üzvləri arasında münasibət necə olmalıdır? – sualına cavabda şagirdlər kollektivdə insanların bir-birinə hörmət etməsini söyləyəcəklər.

– Kollektivdə insanlar bir-birini aldatsalar, yalan danışsalar, bu, kollektivin işinə necə təsir göstərə bilər?

Şagirdlər, ümumiyyətlə, yalan danışmağın, insanların bir-birini aldatmasının, xəbərçiliyin insanlara yaraşmayan mənfi, pis xüsusiyyətlər olduğunu söyləyəcəklər. Onlar "həmin insanı heç kim sevməz, ona heç kim hörmət etməz" deyəcəklər. Hətta həmin insanla birlikdə çalışmaq istəmədiklərini də söyləyə bilərlər. Bu da kollektivin işinə mənfi təsir göstərə bilər.

– Siz böyüyəndə hansı kollektivdə işləmək istərdiniz? – sualına isə şagirdlər öz istək və arzularına görə müxtəlif cavablar verə bilərlər.

– Turpu çıxarmaqda babaya kömək edənləri seçib ardıcıl sıralayın. Bu fəaliyyət zamanı Ana dili dərsində öyrəndiyi turp nağılı yada salınır və tapşırıq yerinə yetirilir. Bu da "Ana dili" fənni ilə inteqrasiya yaradır.

– Turp nağılını ailə və kollektiv mövzular ilə əlaqələndirin. Bu zaman şagirdlər baba, nənə və nəvənin bir ailə olduğunu və ailədə hər bir işdə bir-birilərinə kömək olduqlarını kollektiv olaraq isə turpu bir yerdə çıxara bildiklərini söyləyəcəklər.

Bu zaman müəllim anlayışın çıxarılması sxemini qurur.




**Nəticə –** Şagirdlər bu dərsin köməyi ilə öyrənirlər ki, kollektiv birlik deməkdir. Hər işi birlikdə görmək həm asandır, həm də iş keyfiyyətli alınır. Güc birlikdədir.

## Mövzu: 13. Ünsiyyət

**St: 3.1.1., 3.1.2.**

**Öyrənilən obyektlər:**
Ünsiyyət, nitq etiketləri

**Təlim nəticələri:**
Ünsiyyət zamanı qəbul olunmuş etiket qaydalarına (salam, zəhmət olmasa, bəli, xeyr, sağlıqla qal) uyğun olaraq danışır.

Kobudluq, təhqiramiz ifadələrin etik qaydalara uyğun gəlmədiyini izah edir. Danışarkən bu ifadələrdən istifadə etməyin düzgün olmadığını başa düşür.

**Əldə olunan bacarıqlar**
Bu dərsin köməyi ilə şagirdlər:
– ünsiyyət zamanı nitq etiketlərindən istifadəni öyrənəcəklər.
– ünsiyyət zamanı etik qaydalara uyğun olmayan davranışı fərqləndirəcəklər.

**Materiallar və resurslar:**
Dərslik, şəkillər

**Şagirdlərin öyrənilən obyektlərlə bağlı ziddiyyətli fikirləri:**
– biz öz yaşıdlarımızla, sinif yoldaşlarımızla istədiyimiz kimi danışa bilərik;
– nitq etiketlərindən yanlız müəllimlə ünsiyyət zamanı istifadə etmək lazımdır;
– tanımadığımız insanlarla kobud rəftar etmək olar.




## ● DƏRSİN PLANI

Bu mövzunun tədrisi zamanı proqnozlaşdırma, anlayışın çıxarılması, müzakirə iş üsullarından, qrup işi və kollektivlə iş formalarından istifadə edilə bilər.

**Proqnozlaşdırma:** Əvvəlcə öyrəniləcək obyektlər haqqında şagirdlərin baza biliklərinin diaqnostikası aparılır. Bu zaman müəllim şagirdlərə "Nəzakətli dovşan" mətnini kompüter vasitəsi ilə səsləndirir. (Elektron resurslar olmadığı halda müəllim bu nağılı özü danışa bilər.)

Meşədə nəzakətli bir dovşan yaşayırdı. Danışanda "xoş gəlmisiniz", "zəhmət olmazsa", "buyurun", "təşəkkür edirəm" kimi sözlər işlədərdi.

Bir dəfə dovşan uzaqdan tülkünün gəldiyini gördü. O, yaxınlıqdakı mağarada gizlənmək istədi. Dovşan bilmirdi ki, orada ilan yaşayır. Mağaraya çatıb dayandı. Axı o, tərbiyəli dovşan idi. Bilirdi ki, icazəsiz içəri girmək olmaz. Üzünü mağaraya tutub nəzakətlə dedi:

– Axşamınız xeyir, hörmətli mağara! Xahiş edirəm, içəri keçməyə icazə verin.

İlan sevindi. O, dovşan ətini çox xoşladığı üçün cavab verdi:

– Keçin!

Amma dovşan ilanın səsini tanımışdı. Buna görə də:

– Narahat etdiyimə görə üzr istəyirəm, – dedi. – Az qala unutmuşdum. Evdə vacib işim var. Sağlıqla qalın!

Dovşan qaçıb yuvasına girdi. O fikirləşdi ki, nəzakətli olmaq hələ heç kimə ziyan gətirməyib.

Nağıl bitdikdən sonra müəllim sinfə müraciət edir :

– Necə oldu ki, dovşan ilandan qurtula bildi?

– Dovşan hansı nəzakətli sözləri işlətdi?

Şagirdlər sualları cavablandırırlar. Müəllim:

– Siz necə, bu sözlərdən istifadə edirsinizmi?

Şagirdlər müxtəlif cavablar verirlər. Müəllim şagirdlərin söylədiyi nəzakətli sözləri ya-




zı lövhəsində çəkdiyi anlayışın çıxarılması sxemində qeyd edir. Uşaqların dediklərinə nəzakətli sözləri də əlavə edir.

*böyük məmnuniyyətlə*

*nuş olsun* — *narahat olma*

*salam* — *təşəkkür edirəm*

? 

*çox sağol* — *üzr istəyirəm*

*bağışla* — *zəhmət olmasa*

Müəllim bu sözlərin nitq etiketləri olduğunu söyləyir və bugünkü mövzunun isə ünsiyyət zamanı bu nitq etiketlərindən istifadə qaydaları ilə bağlı olmasını qeyd edir.

**Fikirləş**

Dərslikdəki mətn oxunur, şagirdlər ***ünsiyyət*** anlayışının nə demək olduğunu öyrənirlər.

Şagirdlərə **34-cü səhifədəki** şəkildə gördüklərini danışmaq təklif olunur.

**Şəkil üzrə iş:**

Şagirdlər şəkil üzrə danışaraq gördüklərini şərh edəcəklər. Onlar oğlanın yaşlı qadına yol keçməkdə kömək etməsini; köşkdə satıcının alıcı ilə ünsiyyət qurmasını; digər oğlanın xarici turistə yol göstərməsini; qızların salamlaşmasını; oğlanın dostlarının şəklini çəkməsini və s.-ni qeyd edəcəklər.

– İnsanlar salamlaşarkən hansı sözlərdən istifadə edirlər? – Şagirdlərin insanlar salamlaşarkən ***salam, xoş gördük, sabahınız xeyir, axşamınız xeyir*** sözlərindən istifadə edirlər, – cavabını verəcəklər.

– Bəs ayrılarkən hansı ifadələri işlədirik? – Bu sualın cavabına isə şagirdlər ***sağolun, salamat qalın, xoş getdiniz, gülə-gülə gedin*** ifadələrindən istifadə olunduğunu qeyd edə bilərlər.

– Kimdənsə kömək istəyəndə ona necə müraciət etmək lazımdır?– Bu fəaliyyət zamanı isə şagirdlər ***xahiş edirəm, zəhmət olmasa, mümkünsə*** ifadələrini söyləyəcəklər.

– Bəs bizə kömək edən şəxsə nə deməliyik? sualına isə şagirdlər –“biz ona təşəkkür etməliyik, ***çox sağolun, minnətdaram, əziyyət verdim*** ifadələrini söyləməliyik”, – deyə cavab verəcəklər. Sonra şagirdlər növbəti səhifədə verilmiş şəkillər üzrə aşağıdakı sualları cavablandıracaqlar:

– Bu sözlərə ümumi halda nə deyirlər?

Şagirdlər bu sözlərə nitq etiketləri deyildiyini söyləyəcəklər.

– Siz daha hansı nitq etiketlərindən istifadə edirsiniz? Şagirdlər müxtəlif cavablar verəcəklər.

– İnsanlar nə üçün nitq etiketlərindən istifadə edirlər? – Bu sualın cavabına şagirdlər müəllimin köməyi ilə cavab verəcəklər. “İnsanlar nitq etiketlərindən istifadə etməklə bir-biriləri ilə yaxşı ünsiyyət qururlar, bir-birilərinə qarşı hörmətli davranırlar”, – deyə cavab verəcəklər.

– Sizcə, uşaqlar nə söyləyirlər? Sözləri yazın. – Bu fəaliyyət zamanı şagirdlər şəkillərə uyğun nitq etiketlərini qeyd edəcəklər.

**Qrup işi –** Müəllim şagirdləri 4 qrupa bölür. Hər qrupa nitq etiketlərindən istifadə etməklə kiçik mətnlər qurmağı tapşırır. Qruplar mətnləri təqdim edirlər, müzakirə və mübadilə aparırlar.

**Nəticə** – Şagirdlər öyrənirlər ki, nitq etiketləri insanları bir-birinə mehriban edir. Kobudluq, yalan danışmaq isə insanları bir-birindən uzaqlaşdırır.

## Mövzu: 14. Hüquqlarımız və vəzifələrimiz

**St: 2.4.1., 2.4.2.**

**Öyrənilən obyektlər:**
Hüquq və vəzifələr

**Təlim nəticələri:**
Məktəbin özünəməxsus daxili nizam - intizam qaydalarını – vahid forma, dərsə vaxtında gəlmək, şagird davranış qaydalarını sadalayır və anlayır.

Şagirdlərin pulsuz təhsil almaq, istirahət etmək, sərbəst fikir söyləmək, sağlamlıq üçün tibb xidməti ilə təminolunma hüquqlarını sadalayır.

Şagird hüquqlarını vəzifələrdən fərqləndirir.

**Əldə olunan bacarıqlar**
Bu dərsin köməyi ilə şagirdlər:
– şagird hüquqlarını öyrənəcəklər;
– məktəb qaydaları ilə tanış olacaqlar;
– hüquq və vəzifələri bir-birindən fərqləndirəcəklər.

**Materiallar və resurslar:**
Dərslik, şəkillər

**Şagirdlərin öyrənilən obyektlərlə bağlı ziddiyyətli fikirləri:**
– hüquq və vəzifələrin heç bir fərqi yoxdur;
– dərs oxuyub, oxumamaq mənim hüququmdur;
– biz istədiyimiz zaman dərsdən qala bilərik;
– biz istədiyimiz zaman həyətə oynamağa gedə bilərik;
– valideynlərimiz bizi heç bir iş görməyə məcbur edə bilməz.

### ● DƏRSİN PLANI

Bu mövzunun tədrisi zamanı proqnozlaşdırma, anlayışın çıxarılması, Venn diaqramından, müzakirə iş üsullarından, qrup işi və kollektivlə iş və formalarından istifadə edilə bilər.

**Proqnozlaşdırma:** Əvvəlcə öyrəniləcək obyektlər haqqında şagirdlərin baza biliklərinin diaqnostikası aparılır. Bu zaman müəllim uşaqlara bu cür suallarla müraciət edir:

– Siz məktəbə getməmişdən əvvəl uşaq bağçasına getmisinizmi?




– Məktəbin hazırlıq qruplarında təhsil almısınızmı?

– Bağça və məktəb ləvazimatlarından istifadə etmisinizmi?

– Xəstələnəndə həkimə getmisinizmi?

– Yayda valideynlərinizlə birlikdə istirahətə getmisinizmi?

– Öz sözlərinizi və fikirlərinizi sərbəst şəkildə deyə bilirsinizmi?

Şagirdlər müxtəlif cavablar verəcəklər.

– Bəs sizcə, bütün bu şəraiti sizə kim yaradır? Bunlar necə adlanır?

Müəllim lövhədə anlayışın çıxarılması sxemini çəkir.




Uşaqlar müəllimin köməyi ilə bütün bu sadalananların uşaq hüquqları olduğunu öyrənirlər. Müəllim bugünkü dərsin mövzusunun “Hüquqlarımız və vəzifələrimiz” olduğunu söyləyəcək.



Hansı uşaq məktəb qaydalarına əməl etmir?

Düzgün olanların qarşısında "+", yanlış olanların qarşısında "–" işarəsi qoyun.

- ◯ Dərslikləri səliqəli, sinif otağını təmiz saxlayırıq;
- ◯ Dərsə istədiyimiz vaxtda gəlirik;
- ◯ Məktəbin avadanlıqlarından düzgün istifadə edirik;
- ◯ Məktəbə istədiyimiz geyimdə gəlirik.

Uşaqların təhsil almaq, sağlamlığını qorumaq, istirahət etmək hüquqları vardır. Onların məktəbdəki vəzifəsi isə məktəb qaydalarına əməl etməkdir.

37

**Fikirləş**

Dərslikdəki mətn oxunur, şagirdlər dilindən, cinsindən, irqindən asılı olmayaraq hər bir uşağın hüquqları və vəzifələri olduğunu bir daha dərk edəcəklər. Müəllim şagirdlərə:

– Dərsə vaxtında, məktəbli formasında gəlirik.

– Dərslikləri səliqəli, sinif otağını təmiz saxlayırıq.

– Məktəbin avadanlığından düzgün istifadə edirik – Bəs bu sadalananlar nədir? – sualı ilə sinfə müraciət edir. Bu mövzunun tədrisinin ikinci yarımilə təsadüf etməsi nəzərə alınarsa, şagirdlər bunlara hər bir şagirdin əməl etməli olmasını söyləyə bilərlər. Müəllim də qeyd edir ki, insanların əməl etməli olduqları işlər onların vəzifəsidir. Deməli, bu qaydalara əməl etmək sizin vəzifələrinizdir. Hər bir şagird öz vəzifələrini bilməli və düzgün əməl etməlidir.

Şagirdlərə **36-cı və 37-ci səhifələrdəki** şəkillərdə gördüklərini danışmaq təklif olunur.

**Şəkil üzrə iş:**

Şagirdlər şəkil üzrə danışaraq gördüklərini şərh edəcəklər. Şəkildə uşaqların dərs keçdiklərini, həkimdə müayinə olunduqlarını, istirahət etdiklərini və məktəbdə davranış qaydalarını gördüklərini deyəcəklər.

– Hər bir uşağın ad və soyadı daşımaq hüququ var. Bu ad və soyadı uşağa kim verir?

Uşaqlar öz adlarının kimlər tərəfindən qoyulduğunu və ya baba, nənə adı daşıdıqlarını söyləyəcəklər. Müəllim bu ad və soyadların daşınmasının uşaqların hüquqlarına aid olduğunu şagirdlərə qısa şəkildə izah edə bilər.

– Dövlətimiz uşaqların təhsil almaq hüququnu necə təmin edir? Kimlər uşaqların bu hüququ üçün çalışırlar? – Bu fəaliyyət zamanı şagirdlər dövlət tərəfindən pulsuz təhsil aldıqlarını, dərsliklərlə pulsuz təmin olunduqlarını, məktəbin avadanlıqlarından istifadə etdiklərini qeyd edəcəklər. Bütün bunların dövlət tərəfindən təmin olunmasını qeyd edə bilərlər. Uşaqların təhsil almaq hüquqları üçün müəllimlərin çalışdıqlarını deyəcəklər.

– Həkimlər uşaqların hansı hüquqlarından istifadə etməsi üçün çalışırlar? – Bu fəaliyyət zamanı isə şagirdlər "sağlamlığımızı isə həkimlər qoruyur" cavabını verəcəklər.

– Şəkildəki uşaqlar nə edirlər? – şagirdlər şəkildəki kənd mənzərəsini görüb, uşaqların istirahətə getmələrini qeyd edəcəklər. Deməli, uşaqların istirahət hüquqları da vardır.

– Şəkildə nə görürsünüz? Şəkildəki uşaqlardan hansıları məktəb qaydalarına əməl edirlər? – Bu fəaliyyət zamanı şagirdlər şəkildə gördüklərini şərh edərək uşaqların davranış qaydalarını müzakirə edəcəklər.

Düzgün olanların qarşısında "+", düzgün olmayanların qarşısında "–" işarəsi qoyun. Bu tapşırıqda məktəb qaydalarını seçmək təklif olunur.

Şagirdlərə Venn diaqramı vasitəsi ilə hüquq və vəzifələrin oxşar və fərqli cəhətlərini müəyyən eyməyi də tapşırmaq olar.

**Nəticə** – Şagirdlər bu dərsin köməyi ilə öyrənirlər ki, uşaqların təhsil, istirahət, sağlamlıq hüquqları vardır. Valideynlər, müəllimlər, həkimlər uşaqların öz hüquqlarından istifadə etməsi üçün çalışırlar. Dövlətimiz isə buna şərait yaradır. Uşaqların vəzifəsi yaxşı oxumaq və məktəb qaydalarına əməl etməkdir.





# Vətənimiz



**Mövzu: 15. Azərbaycanın dövlət rəmzləri**

**St: 2.3.1.**

**Öyrənilən obyektlər:**
Bayraq, gerb, himn

**Təlim nəticələri:**
Azərbaycan Respublikasının Dövlət rəmzləri olan bayraq, gerb, himni tanıyır.

Bayraq və gerb üzərində olan rəngləri və simvolları təsvir edir və mənasını izah edir.

**Əldə olunan bacarıqlar**
Bu dərsin köməyi ilə şagirdlər:
– bayraq, gerb və himnin dövlətin rəmzləri olduğunu öyrənəcəklər;
– Azərbaycanın dövlət rəmzlərini tanıyacaqlar;
– bayraq, gerb, himnimizi bir-birindən fərqləndirəcəklər;
– dövlət rəmzlərinə hörmət etməyin vacibliyini öyrənəcəklər.

**Materiallar və resurslar:**
Dərslik, iş vərəqləri, rəngli karandaşlar, kompüter, proyektor

**Şagirdlərin öyrənilən obyektlərlə bağlı ziddiyyətli fikirləri:**
– bütün ölkələrin bayrağı, gerbi, himni eynidir;
– bayraq və gerbimizin şəkilləri dərsliklərimizdən başqa yerdə yoxdur.

## ● DƏRSİN PLANI

Bu mövzunun tədrisi zamanı proqnozlaşdırma, BİBÖ, anlayışın çıxarılması, müzakirə iş üsullarından, cütlərlə iş və kollektivlə iş formalarından istifadə edilə bilər.

**Proqnozlaşdırma:** Əvvəlcə öyrəniləcək obyektlər haqqında şagirdlərin baza biliklərinin diaqnostikası aparılır. Bu zaman müəllim şagirdlərə belə bir tapşırıq verir.

Əlifba sırasına görə hərfləri yerinə yazın.

| 1 | 32 | 7 | 24 | 2 | 1 | 31 | 3 | 1 | 20 |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | |

Müəllim: Hansı söz alındı?

Şagirdlər əlifba sırasına görə hərfləri yerinə yazıb "Azərbaycan" sözünün alındığını deyəcəklər.




Müəllim: – Azərbaycan haqqında, ümumiyyətlə, nə bilirsiniz?

Şagirdlər müxtəlif cavablar verəcəklər. Bu zaman onlar bayrağımızın, gerbimizin və himnimizin də adlarını çəkə bilərlər. Belə halda müəllim anlayışın çıxarılması sxemini qurur.




– Sual işarəsinin yerində nə yazılmalıdır?
– Bu təsvirlər birlikdə necə adlanır?

Bu sualın cavabında şagirdlər müəllimin köməyi ilə deyəcəklər ki, dövlət rəmzlərimiz adlanır.

– Bəs dövlət rəmzləri haqqında nə bilirsiniz? Bu zaman müəllim BİBÖ cədvəlindən istifadə edərək uşaqların dövlət rəmzləri haqqında bildiyi informasiyaları cədvəlin 1-ci hissəsində, daha nələri bilmək istədikləri haqqında isə cədvəlin 2-ci hissəsində qeyd edir.

| Bilirəm | İstəyirəm biləm | Öyrəndim |
|---|---|---|
| | | |




**Fikirləş**

Dərslikdəki mətn oxunur, şagirdlər hər bir ölkənin dövlət rəmzləri olmasını, Azərbaycan Respublikasının da dövlət rəmzlərinin olduğunu öyrənirlər. Şagirdlərə **40-cı və 41-ci səhifələrdəki** şəkillərdə gördüklərini danışmaq təklif olunur.

Şəkil üzrə iş:

Şagirdlər şəkildə bayraq, himn və gerbin təsvir olunduğunu qeyd edəcəklər.

– Azərbaycan bayrağında hansı rənglər var? – sualına isə şagirdlər qırmızı, yaşıl və mavi rənglərin olduğunu söyləyəcəklər.

– Azərbaycan bayrağında qırmızı zolağın üstündə hansı şəkillər var? – sualına cavab olaraq onlar qırmızı zolağın üzərində ay və səkkizguşəli ulduz təsvir olunduğunu qeyd edəcəklər.

– Gerbimizdə hansı təsvirlər var? – sualına cavabında isə şagirdlər səkkizguşəli ulduzun, alovun, bayrağın rənglərinin, sünbülün və palıd budağının olduğunu qeyd edəcəklər. Təbii ki, bu sualın cavablandırılması zamanı müəllimin də köməyinə ehtiyac duyulur.

– Ölkəmizin paytaxtı hansı şəhərdir? – sualına isə ölkəmizin paytaxtı Bakı şəhəridir cavabını verəcəklər.

– Vətənimiz necə adlanır? – Uşaqlar vətənimiz Azərbaycan adlanır, – deyəcəklər. Bu zaman müəllim şəkil üzrə əlavələr edə bilər.

– Dövlət rəmzlərinə hörmət etmək nə üçün hamımızın borcu sayılır? – sualına "şagirdlər əgər biz vətənimizi seviriksə, demək, onun dövlət rəmzlərinə də hörmətlə yanaşmalıyıq. Ölkələr dünyada öz dövlət rəmzləri ilə tanınırlar. Dövlət rəmzlərini sevmək, hörmət etmək hər bir Azərbaycan vətəndaşının borcudur", – deyə cavab verəcəklər.

– Dövlət himnimiz nə zaman oxunur? – sualını şagirdlər müəllimin köməyi ilə cavablandıracaqlar. Onlar "dövlət tədbirlərinin açılışı zamanı, idmançılarımız qalib olan zaman, hər gün səhər televiziya kanallarında səsləndirilir" cavablarını verəcəklər.

– Dövlət himnimiz səslənərkən ayağa qalxıb düz dayanmaq lazımdır. Bəs himnimizi oxuyan uşaqlar əllərini niyə sinələrinə qoymuşlar? – Bu fəaliyyət zamanı şagirdlər "himnimizə hörmət əlaməti olaraq, vətənimizi ürəkdən sevdikləri üçün" cavablarını verəcəklər. Bu fəaliyyət zamanı müəllim Azərbaycanın himnini səsləndirə bilər.

– Rənglərin köməyi ilə hərfləri oxların göstərdiyi istiqamətdə oxuyun. Bu fəaliyyət zamanı rənglərin köməyi ilə Məhəmməd Əmin Rəsulzadənin "Bir kərə yüksələn bayraq, bir daha enməz!" kəlamını oxuyacaqlar.

Müəllim şagirdlərin bugünkü dərsdə öyrəndiklərinə əsaslanaraq BİBÖ cədvəlinin 3-cü hissəsini də doldurur.

Sonra müəllim uşaqları cütlərə ayırır. Hər cütlə bayraq və gerbimizin təsvirlərini bir neçə cümlə ilə qeyd etmələrini və şəkillərini çəkməyi tapşırır.

Sonda müzakirə və mübadilə aparılır.

**Nəticə** – Bu dərsin köməyi ilə şagirdlər öyrənirlər ki, himnimiz, bayrağımız, gerbimiz dövlət rəmzlərimizdir. Biz doğma Azərbaycanımızı sevir, onunla qürur duyuruq. Bayrağımızı ən uca yerlərdən asır, himnimiz oxunarkən ayağa qalxır, düz dayanırıq. Vətənimizə və onun rəmzlərinə hörmət əlaməti olaraq Dövlət himni səslənərkən bir çox insanlar əllərini sinələrinə – ürəklərinin üstünə qoyurlar. Ölkəmizin dövlət rəmzlərinə hörmət etmək hamımızın borcudur.

## Mövzu 16. Azərbaycan – Odlar yurdu

**St: 2.3.1.**

**Öyrənilən obyektlər:**
Bayraq, gerb

**Təlim nəticələri:**
Azərbaycan Respublikasının dövlət rəmzləri olan bayrağı, gerbi tanıyır.
Bayraq və gerb üzərində olan rəngləri və simvolları təsvir edir, mənasını izah edir.

**Əldə olunan bacarıqlar**
Bu dərsin köməyi ilə şagirdlər:
– bayraq və gerb üzərində olan rəng və simvolların mənalarını izah edəcəklər;
– dövlət rəmzlərini vətənə hörmət və məhəbbət bəsləməklə əlaqələndirəcəklər.

**Materiallar və resurslar:**
Dərslik, iş vərəqləri, rəngli karandaşlar.

**Şagirdlərin öyrənilən obyektlərlə bağlı ziddiyyətli fikirləri:**
– bütün ölkələrin bayraqları, gerbləri eynidir;
– bayraq və gerbimizin şəkilləri ancaq dərsliklərimizdə verilmişdir.




### ● DƏRSİN PLANI

Bu mövzunun tədrisi zamanı proqnozlaşdırma, müzakirə, anlayışın çıxarılması iş üsullarından, kollektivlə və cütlərlə iş formalarından istifadə edilə bilər.

**Proqnozlaşdırma:** Əvvəlcə öyrəniləcək obyektlər haqqında şagirdlərin baza biliklərinin diaqnostikası aparılır. Bu zaman müəllim şagirdlərə belə bir sual verir: – Qırmızı, yaşıl, göy rənglər bir yerdə sizə nəyi xatırladır?

Şagirdlər:

– Bayrağımızı, – deyə cavab verəcəklər.

– Bəs siz bayrağımızın rənglərinin mənalarını bilirsinizmi?

Uşaqlar müxtəlif fikirlər söyləyəcəklər.

Bu zaman müəllim şagirdlərin köməyi ilə anlayışın çıxarılması sxemini quracaqdır.

**SXEM – anlayışın çıxarılması. Yaşıl, qırmızı, mavi rənglər – bayraq**

– Bəs gerbimizin üzərindəki simvollar haqqında nə bilirsiniz?

Bu sualın cavabı zamanı da müxtəlif fikirlər söylənəcək.

**Fikirləş**

Dərslikdəki mətn oxunur, şagirdlər öyrəndilər ki, hər ölkənin öz bayrağı və gerbi var və onlar üzərində olan simvolların müxtəlif mənaları var.

Şagirdlərə **42 və 43-cü səhifələrdəki** şəkillərdə gördüklərini danışmaq təklif olunur.

**Şəkil üzrə iş:**

Şagirdlər şəkillər üzrə bayraq və gerbin simvollarının açıqlanmasını öyrənəcəklər. Onlar bayrağımızdakı mavi rəngin türkçülüyün, qırmızı rəngin insan hüquqlarının və mədəniyyətinin, yaşıl rəngin isə islam dininin işarəsi olduğunu öyrənəcəklər. Aypara və səkkizguşəli ulduzun Ayın və Günəşin simvolu olduğunu biləcəklər.

Gerbimizdə təsvir olunan qalxanın müdafiə simvolunu, qırmızı və yaşıl rənglərin Azərbaycan bayrağındakı mənaları ifadə etdiyini, səkkizguşəli ulduzun mərkəzində alov təsvirinin "Odlar yurdu" Azərbaycanı ifadə etdiyini, palıd budağının uzunömürlülük və möhkəmlik, sünbülün isə bolluq, bərəkət ifadə etdiyini öyrənəcəklər.

– Bu bayramlar haqqında nə bilirsiniz?




Bu sualın cavabında şagirdlər 28 Mayın Respublika Günü, 9 Noyabrın Dövlət Bayrağı Günü, 26 İyunun Silahlı Qüvvələr Günü olduğu haqqında müəllimin köməyi ilə məlumat verəcəklər.

**Cütlərlə iş** – Müəllim şagirdləri cütlərə bölür. Birinci cütlərə bayrağımızın rənglərinin mənaları haqqında, ikinci cütlərə isə gerbimizin üzərində təsvir olunan simvolların mənaları haqqında danışmaq tələb olunacaq.

**Nəticə** – Bu dərsin köməyi ilə şagirdlər öyrəndilər ki, Azərbaycan insan hüquqlarını qoruyan, dinə hörmət edən mədəni ölkədir. Vətənimiz bizim üçün Ay, Günəş kimi həmişə ucadır. Yurdumuz uzunömürlü, bərəkətlidir.

**Yaradıcı tətbiqetmə** – Dövlət bayrağına həsr olunmuş açıqça düzəldin.

## Mövzu: 17. Azərbaycan pulu (2 saat)

**St: 2.2.2., 2.2.3.**

**Öyrənilən obyektlər:**
Kağız və metal pullar.

**Təlim nəticələri:**
Ailə büdcəsinin qənaətlə xərclənməsinin əhəmiyyətini sadə şəkildə izah edir.
Azərbaycan Respublikasının kağız və metal pullarını tanıyır və bir-birindən fərqləndirir.

**Əldə olunan bacarıqlar**
Bu dərsin köməyi ilə şagirdlər:
– Azərbaycan Respublikasının kağız və metal pullarını tanıyacaq.
– Bu pullardan necə istifadə olunduğunu öyrənəcək.
– Ailə büdcəsinin qənaətlə xərclənməsinin əhəmiyyətini dərk edəcək.

**Materiallar və resurslar:**
Dərslik, qəpik, manat pullar, iş vərəqləri, rəngli karandaşlar.

**Şagirdlərin öyrənilən obyektlərlə bağlı ziddiyyətli fikirləri:**
– bütün dövlətlərin pul nişanları eynidir;
– pul vahidlərini qənaət etmədən xərcləyə bilərik;
– valideynlərimizin icazəsi olmadan ailə büdcəsindən pul götürə bilərik.

## ● DƏRSİN PLANI

Bu mövzunun tədrisi zamanı proqnozlaşdırma, anlayışın çıxarılması, əqli hücum iş üsullarından, kollektivlə iş və rollu oyun iş formalarından istifadə edilə bilər.

**Proqnozlaşdırma:** Əvvəlcə öyrəniləcək obyektlər haqqında şagirdlərin baza biliklərinin diaqnostikası aparılır. Bu zaman müəllim yazı lövhəsində anlayışın çıxarılması sxemini qurub sinfə belə bir sualla müraciət edir.







– Gördüyünüz əşyaları almaq üçün bizə nə lazımdır? – Şagirdlər pul lazım olduğunu deyəcəklər. Müəllim bugünkü dərsin mövzusunun da Azərbaycan pulu olduğunu qeyd edəcək. Pul gündəlik tələbatımızdır. Həyatımızı pulsuz təsəvvür edə bilmərik.

**Fikirləş**

Dərslikdəki mətn oxunur, şagirdlər öyrənirlər ki, Azərbaycan dövlətinin öz milli pul vahidi var. Biz kağız və metal pullardan istifadə edirik. Şagirdlərə **44-cü və 45-ci səhifələrdəki** şəkillərdə gördüklərini danışmaq təklif olunur.

**Şəkil üzrə iş:**

– Şəkildə gördüyünüz pulların fərqini izah edin.

Şagirdlər əvvəlcə kağız və metal pulları bir-birindən fərqləndirəcəklər. Sonra isə kağız pulları ayrı, qəpikləri isə ayrılıqda bir-birindən fərqləndirəcəklər. Kağız pulları rənglərinə, məbləğlərinə, metal pulları isə ölçülərinə və məbləğlərinə görə fərqləndirəcəklər.




– Azərbaycan pulu necə adlanır?

Şagirdlər: – Azərbaycanın kağız pullarını manat və ya AZN adlandırırlar, – deyə cavab verəcəklər.

– Metal pullarımızın adı nədir? – sualına cavabında isə şagirdlər “metal pullarımız qəpik adlanır” deyəcəklər.

– Pul insanlara nə üçün lazımdır? – sualına cavab olaraq şagirdlər deyəcəklər: “Dərsin əvvəlində (anlayışın çıxarılması zamanı) öyrəndik ki, mebel, ərzaq, çörək, dərman, kitab, ayaqqabı və başqa əşyaları almaq üçün pul lazımdır.

– Hansı şəkil Azərbaycan pullarının hamısında var? Sizcə, bu nə üçün belədir?

Şagirdlər bütün pulların üzərində Azərbaycanın xəritəsinin olduğunu söyləyəcəklər. Bunu da pulların Azərbaycan dövlətinə aid olması ilə əlaqələndirəcəklər.

– Şəkildə gördüyünüz oğlan nə edir? – Şagirdlər müəllimin köməyi ilə sualı cavablandırıb bildirəcəklər ki, belə aparatlar vasitəsi ilə evin kommunal xərcləri ödənilir.

– İnsanlar pullarını nələrə xərcləyirlər? – Bu fəaliyyət zamanı şagirdlər pulun ərzaq, geyim almaq üçün və istifadə edilən qaz, su, işıq, telefon, internet, nəqliyyat xərcləri, gəzinti üçün lazım olduğunu qeyd edəcəklər.

– Şəkildə gördüklərinizi danışın.

Şagirdlər mağazada ananın oğluna məktəbli çantası aldığını, digər oğlanın isə özünə şirniyyat aldığını söyləyəcəklər. Mağazada ödənişlərin kassada nağd və kartla aparat vasitəsilə ödənildiyini qeyd edəcəklər.

– Pulu nə üçün lazımsız şeylərə xərcləmək olmaz? – sualına cavab olaraq qeyd edəcəklər ki, lazımsız şeylərə pul xərcləndikdə pul tez tükənər.

– Pulları dəyərinin artmasına görə nömrələyin.

Şagirdlər pulları dəyərinin artmasına görə nömrələyəcəklər.

**Nəticə –** Şagirdlər bu dərsin köməyi ilə öyrənirlər ki, pulumuzun adı Azərbaycan manatıdır. Metal pulumuza qəpik deyirik. Pulla ərzaq, geyim alır, işlətdiyimiz qazın, suyun, işığın haqqını ödəyirik. Artıq xərclərə yol vermək olmaz. Belə etsək, heç vaxt pulsuz qalmarıq.

### 2-ci dərs. Praktik məşğələ

Müəllim: Siz riyaziyyat dərsində də pul nişanları haqqında məlumat almısınız. Bu gün də kifayət qədər məlumat topladınız. Gəlin bu bildiklərinizə əsaslanaraq rollu oyun keçirək.

**Rollu oyun:** Müəllimin göstərişi ilə uşaqlar əvvəlcədən məktəbə müxtəlif əşyalar gətirirlər. Müəllim isə onlara pul kağızlarının surətini verərək uşaqları qruplara bölür:

I qrup bazarda (meyvə-tərəvəz)
II qrup məktəb ləvazimatları mağazasında
III qrup aptekdə
IV qrup marketdə (ərzaq)
V qrup geyim mağazasında
VI qrup oyuncaq mağazasında

Uşaqlar satıcı və alıcı rolunda iştirak edərək pul vahidlərinin qalığının hesablanması qaydasını da öyrənirlər. Eyni zamanda pulun qənaətlə işlənməsi qaydası şagirdlərə aşılanır.

**Əlavə –** Müəllim onu da qeyd edir ki, dövlətimiz uşaqlar üçün məktəb kitablarını, həkimdən müayinədən keçməyi pulsuz təmin edir. Bu isə dövlətimizin uşaqlara diqqət və qayğısıdır.

## Mövzu: 18. Ölkəmizdə dinlər

**St: 3.3.1., 3.3.2., 3.4.1.**

**Öyrənilən obyektlər:**
Dini bayramlar

**Təlim nəticələri:**
Dinlər haqqında ilkin təsəvvürlərini izah edir.
Müxtəlif dinlərə məxsus rəmzləri fərqləndirir.
Dini bayramları tanıyır və şərh edir.
Dini bayramlarda kimsəsizlərə diqqət yetirməyi vacib hesab edir.

**Əldə olunan bacarıqlar**
Bu dərsin köməyi ilə şagirdlər:
– dinlər haqqında ilkin məlumatlara yiyələnəcək;
– dini bayramları bir-birindən fərqləndirəcəklər;
– bayram günlərində kimsəsizlərə diqqət yetirməyi islam dinin aşıladığı mənəvi borc kimi izah edəcəklər.

**Materiallar və resurslar:**
Dərslik, şəkillər, rəngli karandaş.

**Şagirdlərin öyrənilən obyektlərlə bağlı ziddiyyətli fikirləri:**
– dini bayramların digər bayramlardan heç bir fərqi yoxdur;
– dini bayramlar yalnız bizim ölkəmizdə keçirilir;
– dini bayramlar yalnız məscidlərdə keçirilir.

### ● DƏRSİN PLANI

Bu mövzunun tədrisi zamanı BİBÖ, əqli hücum, Venn diaqramı iş üsullarından, kollektivlə iş və cütlərlə iş formalarından istifadə edilə bilər.

**Proqnozlaşdırma:** Əvvəlcə öyrəniləcək obyektlər haqqında şagirdlərin ilkin baza biliklərinin diaqnostikası aparılır. Bu zaman müəllim şagirdlərə "Ramazan" və "Qurban" bayramları haqqında suallar verir və şagirdlərin ilkin baza bilikləri nümayiş etdirilir. Bu zaman müəllim yazı lövhəsində BİBÖ cədvəlini qurur. Şagirdlərin ilkin biliklərinə əsaslananları cədvəlin 1-ci hissəsində, dini bayramlar haqqında daha nələri bilmək istədiklərini cədvəlin 2-ci hissəsində qeyd edir.




| Bilirəm | İstəyirəm biləm | Öyrəndim |
|---|---|---|
| | | |

**Fikirləş**

Dərslikdəki mətn oxunur, şagirdlər öyrənirlər ki, Azərbaycan bayrağındakı yaşıl rəng islam dinini ifadə edir. İslam dininin müqəddəs bayramları dövlətimiz tərəfindən qeyd edilir.

Şagirdlərə **46-cı və 47-ci səhifələrdəki** şəkillərdə gördüklərini şərh etmək təklif olunur.

**Şəkil üzrə iş:**

Şagirdlər şəkildə gördüklərini şərh edəcəklər. Onlar şəkildə məscid gördüklərini qeyd edəcəklər.

– Məscidə kimlər və nə üçün gedirlər?

– Müsəlmanlar namaz qılmağa gedirlər,– deyə şagirdlər müəllimin köməyi ilə bu sualı cavablandıracaqlar.

– Azərbaycanda hansı dini bayramlar qeyd edilir? – Şagirdlər Azərbaycanda "Ramazan" və "Qurban" bayramlarının qeyd olunduğunu söyləyəcəklər.




– Ölkəmizdə qeyd olunan dini bayramlar bir-birindən necə fərqlənir? – Müəllim lövhədə Venn diaqramı qurur. Şagirdlər dini bayramların bir-birindən fərqini qeyd edirlər. Şagirdlər – Ramazan bayramında müsəlmanlar oruc tutur, Qurban bayramında isə qurban kəsirlər, – deyə cavab verəcəklər.




– İnsanlar bu bayramları necə qeyd edirlər? – İnsanlar bu bayramları çox böyük həvəslə qeyd edirlər. Evlərdə süfrələr açılır, insanlar bir-birinə qonaq gedirlər. Ən əsası isə kimsəsiz uşaqları və qocaları ziyarət edib, onlara bayram sovqatı aparırlar. Dövlətimiz də bu bayramlara xüsusi önəm verir.

– İslam dininin müqəddəs kitabı necə adlanır? – Şagirdlər islam dininin müqəddəs kitabının "Qurani-Kərim" adlandığını söyləyəcəklər.

– Onun başqa kitablardan fərqi nədir? – "Qurani-Kərim" kitabı digər kitablardan özəlliyi ilə fərqlənir. Bu kitab müqəddəs sayılır. Hamı bu kitaba hörmətlə yanaşır, – deyə şagirdlər bu sualı belə cavablandıra bilər.

– İslam dini insanları hansı yüksək keyfiyyətlərə səsləyir? – İslam dini insanları birliyə, doğruluğa, dürüstlüyə, bir-birilərinə hörmətə səsləyir, – söyləyəcəklər.

"İslam dininə aid olan işarəni seçib altındakı çərçivəni yaşıl rəngləyin".

Bu fəaliyyət zamanı şagirdlər islam dininə aid olan işarəni seçib çərçivəni yaşıl rənglə rəngləyəcəklər.

Sonra müəllim şagirdlərin öyrəndikləri biliklərə əsaslanaraq BİBÖ cədvəlinin 3-cü hissəsini doldurur.

**Cütlərlə iş** – Müəllim şagirdləri cütlərə bölür. Və hər cütə dini bayramlarla bağlı bildiklərini bir neçə cümlə ilə qeyd etmələrini tapşırır. Cütlərin işi müzakirə və mübadilə olunur.

**Nəticə** – İslam dininin müqəddəs bayramlarında insanlar xeyirxah işlər görür, imkansızlara kömək edirlər. İslam dini insanları xeyirxah olmağa çağırır.


Saglamlıgımız

## Mövzu: 19. Təmizkar olaq

**St: 4.1.1.**

**Öyrənilən obyektlər:**
Sağlamlıq

**Təlim nəticələri:**
Sağlamlığın əsas şərtlərini sadalayır və bu şərtlərə riayət etməyin vacib olmasını nümayiş etdirir.

**Əldə olunan bacarıqlar**
Bu dərsin köməyi ilə şagirdlər:
– sağlamlığı qorumadıqda insanın tez-tez xəstələndiyini öyrənəcəklər;
– xəstə insanın dərslərində və işlərində geri qalmalarını dərk edəcəklər;
– sağlamlığın əsas şərtlərindən birinin də təmizliyə riayətetmə olduğunu dərk edəcəklər.

**Materiallar və resurslar:**
Dərslik, şəkillər, iş vərəqləri.

**Şagirdlərin öyrənilən obyektlərlə bağlı ziddiyyətli fikirləri:**
– çox yemək sağlamlıqdır;
– əllərimizi tez-tez sabunla yusaq, dərimiz zədələnər;
– dırnaqlarımızı tutanda bizi incidir.

### ● DƏRSİN PLANI

Bu mövzunun tədrisi zamanı proqnozlaşdırma, klaster, müzakirə iş üsullarından, qrup işi və kollektivlə iş formalarından istifadə edilə bilər.

**Proqnozlaşdırma:** Əvvəlcə öyrəniləcək obyektlər haqqında şagirdlərin ilkin baza biliklərinin diaqnostikası aparılır. Bu zaman müəllim uşaqlara belə bir tapşırıq verir. O, yazı lövhəsində əlləri yumaq, dişləri fırçalamaq, çimmək, paltarları təmiz saxlamaq, təmizkar olmaq – söz birləşmələrini yazır və şagirdlərə belə bir tapşırıq verir. Lövhədə yazılmış söz birləşmələrini oxuyun və aşağıdakı cümlələrdə bu söz birləşmələrini bir sözlə ifadə edib nöqtələrin yerinə yazın.

1. Bütün bu deyilənlərə əməl etsək, ...... olarıq.




2. Sağlamlığın ən vacib şərti ......

Şagirdlər nöqtələrin yerinə “sağlam” və “təmizkarlıqdır” sözlərini əlavə edəcəklər. Müəllim elə bugünkü dərsin mövzusunun təmizkarlıq olduğunu qeyd edəcək.

**Fikirləş**

Sağlamlığımızı necə qorumalıyıq? Dərslikdəki mətn oxunur, şagirdlər sağlamlıqlarını qorumasalar, tez-tez xəstələnə biləcəklərini və dərslərindən geri qala biləcəklərini öyrənəcəklər.

Şagirdlərə **50-ci və 51-ci səhifələrdəki** şəkillərdə gördüklərini danışmaq təklif olunur.

**Şəkil üzrə iş:**

Şagirdlər şəkildə uşaqların əl-üz yuduqlarını, diş fırçaladıqlarını, dırnaqlarını tutduqlarını qeyd edəcəklər. Və bütün bunların təmizkarlığa aid olduğunu qeyd edəcəklər.

– Əlləri tez-tez yumaq insanı xəstələnməkdən necə qoruyur? – Bu suala cavabda




şagirdlər: əlləri tez-tez yumaq insanın əllərində olan mikrobları öldürür, məhv edir, insan sağlam qalır, – deyə söyləyəcəklər.

– Dişlərinizi nə üçün hər gün fırçalayırsınız? Biz yemək yeyərkən dişlərimizin arasına qida qalıqları yığılır. Onlar təmizlənmədikdə ağızdan pis qoxu gəlir. Eyni zamanda dişlərimizi məhv edir, – deyə cavab verəcəklər.

– Əlləri təmiz saxlamaq nə üçün vacibdir? – sualına isə şagirdlər gün ərzində əllərimizi müxtəlif yerlərə vururuq və biz bilmirik ki, bizdən əvvəl həmin əşyalara kim toxunub. Bəlkə həmin insan xəstədir. Beləliklə, xəstəlik tez yayılır. Əgər biz əllərimizi təmiz saxlasaq, tez-tez yusaq, belə xəstəliklərdən qorunmuş olarıq, – deyə cavab verəcəklər.

– Dırnaqları kəsməyin sağlamlıq üçün əhəmiyyəti nədir? Bu sualın cavabında şagirdlər – dırnaqların altında çoxlu mikroblar və qurd yumurtaları toplanır. Biz əllərimizi yusaq da, onlar gizlənib məhv olmur. Dırnaq yeyənlər xəstəliklərə asanlıqla yoluxur, ona görə də dırnaqlar tez-tez tutulmalıdır, – deyə fikir bildirəcəklər.

– Meyvə-tərəvəzi yeməzdən qabaq nə üçün yuyurlar? Bu fəaliyyət zamanı şagirdlər meyvə-tərəvəz vitaminlərin mənbəyi olsa da, xəstəlik törədiciləri yuyulmamış meyvə-tərəvəzlərdən ağıza düşüb insanı xəstələndirə bilər, – deyə cavab verəcəklər.

– Təmizlik əşyalarını göstərən sözləri seçib altından xətt çəkin:

***qələm, diş fırçası, dəftər, kompüter, sabun, çarpayı, saat, dəsmal, qayçı, diş məcunu***

Müəllim dərslikdə olan Abdulla Şaiqin “Təmizlik” şerini şagirdlərin nəzərinə catdırır. Təmizkarlığın vacib olduğunu bir daha vurğulayır.

*Səhər durunca,*
*Əlimdə fırça*
*Sildim dişimi*
*Bildim işimi*
*İnanmırsan ,bax,*
*Dişim ağappaq.*
*Üstüm tərtəmiz.*
*Bax beləyik biz!*

**Qrup işi** – Müəllim şagirdləri 4 qrupa bölür.

**I qrup** – təmizkarlığın əhəmiyyəti;
**II qrup** – əlləri yumağın əhəmiyyəti;
**III qrup** – dişləri fırçalamağın əhəmiyyəti;
**IV qrup** – meyvə-tərəvəzi yumağın əhəmiyyəti.

Hər qrup sağlamlığın əhəmiyyətini qeyd edəcək. Sonda müzakirə və mübadilə aparılır. Şagirdlər sağlamlığın əsas şərtlərindən birinin təmizkarlıq olduğunu bir daha vurğulayırlar.

Sonra müəllim dərsin möhkəmləndirilməsi məqsədi ilə yazı lövhəsində şagirdlərlə birlikdə klaster qurur.




**Nəticə** – Bu dərsin köməyi ilə şagirdlər öyrəndilər ki, sağlamlığı qorumaq üçün təmizliyə əməl etmək lazımdır.

## Mövzu: 20. Yuxu və istirahət

**St: 4.1.1.**

**Öyrənilən obyektlər:**

Sağlamlıq

**Təlim nəticələri:**

Sağlamlığın əsas şərtlərini sadalayır və bu şərtlərə riayət etməyin vacib olmasını nümayiş etdirir.

Yuxu və istirahətin düzgün təmin olunması üçün təmiz havada olmağın vacibliyini şərh edir.

**Əldə olunan bacarıqlar**

Bu dərsin köməyi ilə şagirdlər:

– yuxu və istirahətin sağlamlıq üşün əsas şərt olduğunu başa düşəcəklər:

– sağlamlıq üçün düzgün qidanın, vaxtında yatıb durmağın, təmiz havada çox olmağın əsas şərt olduğunu öyrənəcəklər.

**Materiallar və resurslar:**

Dərslik, şəkillər, iş vərəqləri.

**Şagirdlərin öyrənilən obyektlərlə bağlı ziddiyyətli fikirləri:**

– çox yatmaq sağlamlıqdır;

– idmanla çox məşğul olsaq, tərləyərik və xəstələnərik;

– bütün günü həyətdə oynamaq sağlamlıqdır;

– çox kitab oxumaq sağlamlığa ziyan vurur.

### ● DƏRSİN PLANI

Bu mövzunun tədrisi zamanı proqnozlaşdırma, anlayışın çıxarılması, klaster, müzakirə iş üsullarından, qrup işi və kollektivlə iş formalarından istifadə edilə bilər.

**Proqnozlaşdırma:** Əvvəlcə öyrəniləcək obyektlər haqqında şagirdlərin baza biliklərinin diaqnostikası aparılır. Bu zaman müəllim yazı lövhəsində anlayışın çıxarılması sxemini qurur.




Müəllim şagirdlərə müraciət edir. Lövhədə yazılmış söz birləşmələrini oxuyun və nə başa düşdüyünüzü söyləyin. Şagirdlər bunların sağlamlıq olduğunu deyəcəklər. Müəllim də bugünkü dərsin mövzusunun sağlamlığın əsas şərtlərindən olan yuxu və istirahət olduğunu qeyd edəcək.




**Fikirləş**

Sağlamlığımızı necə qorumalıyıq?

Dərslikdəki mətn oxunur, şagirdlər insanın nə qədər çox hərəkət edərsə, bir o qədər sağlam olacağını öyrənəcəklər.

Şagirdlərə **52-ci və 53-cü səhifələrdəki** şəkillərdə gördüklərini danışmaq təklif olunur.

**Şəkil üzrə iş:** Şagirdlər şəkildə uşaqların, səhər yuxudan durduqlarını, həyətdə topla oynadıqlarını və qızın kompüterdə oynadığını qeyd edəcəklər.

– Sizcə, təmiz havada olmağın sağlamlıq üçün faydası nədir? Bu sualın cavabında şagirdlər təmiz havada gəzməyin sağlamlıq üçün əsas şərt olduğunu deyəcəklər. Hər gün ən azı 2 saat havada olmaq mütləq vacibdir. Eyni zamanda da bu sağlamlıqdır. Hətta evin havasını da tez-tez dəyişmək lazımdır.

– Hərəkət və sağlamlıq arasındakı əlaqəni izah edin. Bu tapşırığa cavab olaraq, şagirdlər müəllimin köməyi ilə hərəkətin elə idman olduğunu, idmanın isə sağlamlıq olduğunu qeyd edəcəklər.




– Kompüter, planşet, telefonla çox oynamaq sağlamlığa necə ziyan vura bilər? – Bu fəaliyyət zamanı müəllim kompüter, planşet və telefonla çox oynamağın nə qədər zərərli vərdiş olduğunu söyləyəcək. Və uşaqlara bu zərərli vərdişlərdən kənar durmağı məsləhət görə bilər. Çünki bu vərdiş sağlamlığa zidd olan vərdişdir.

– Yuxu rejimi sağlam olmağa necə kömək edə bilər? Şagirdlər vaxtında yatıb-dursaq, yuxu rejiminə əməl etmiş olacağıq, beynimiz yorulmayacaq, başımız ağrımayacaq və özümüzü sağlam hiss edəcəyik, – deyə cavab verəcəklər.

– Çaynvordu həll edin, rəngli xanalarda sağlamlığın bir şərtini oxuyun. Bu fəaliyyət zamanı şagirdlər sağlamlığın ən vacib şərtlərindən biri olan “hərəkət” sözünü oxuyacaqlar və hərəkətin insan sağlamlığı üçün vacib olduğunu dərk edəcəklər.

**Qrup işi** – Müəllim şagirdləri 5 qrupa bölür:

**I qrup** – təmiz havanın əhəmiyyətini;

**II qrup** – idmanla məşğul olmağın əhəmiyyətini;

**III qrup** – düzgün yuxu rejiminin əhəmiyyətini;

**IV qrup** – zərərli vərdişlərdən çakinməyin əhəmiyyətini;

**V qrup** – istirahətin əhəmiyyətini qeyd edəcək. Sonda müzakirə və mübadilə aparılır. Şagirdlər sağlamlığın əsas şərtlərini bir daha vurğulayırlar. Sonra müəllim dərsin möhkəmləndirilməsi məqsədi ilə yazı lövhəsində şagirdlərlə birlikdə klaster qurur.




**Nəticə** – Bu dərsin köməyi ilə şagirdlər öyrəndilər ki, sağlamlığı qorumaq üçün yuxu rejiminə əməl etmək, təmiz havada hərəkətli oyunlar oynamaq, kompüter, planşet və telefonla az vaxt keçirtmək lazımdır.

## Mövzu: 21. Qidalarımız

**St: 4.1.1.**

**Öyrənilən obyektlər:**

Meyvə-tərəvəz, ət və süd məhsulları

**Təlim nəticələri:**

Canlıların yaşaması üçün vacib olan qida məshullarının qəbul olunmasının vacibliyini sadə şəkildə izah edir.

Meyvə-tərəvəzin, ət və süd məhsullarının insan orqanizmi üçün faydasını şərh edir.

**Əldə olunan bacarıqlar**

Bu dərsin köməyi ilə şagirdlər:

– meyvə-tərəvəzin, ət və süd məhsullarının sağlam həyat tərzi üçün vacib olduğunu öyrənəcəklər;

– meyvə və tərəvəzi, ət və süd məhsullarını bir-birindən fərqləndirəcəklər.

**Materiallar və resurslar:**

Dərslik, şəkillər, rəngli karandaşlar, A4 vərəqləri

**Şagirdlərin öyrənilən obyektlərlə bağlı ziddiyyətli fikirləri:**

– meyvə-tərəvəzlərin bir-birindən heç bir fərqi yoxdur;

– süd məhsullarının insana heç bir faydası yoxdur;

– çox ət  yemək lazımdır ki, insan sağlam olsun.

### ● DƏRSİN PLANI

Bu mövzunun tədrisi zamanı proqnozlaşdırma, BİBÖ, müzakirə iş üsullarından, qrup işi və kollektivlə iş formasından istifadə edilə bilər.

**Proqnozlaşdırma:** Əvvəlcə öyrəniləcək obyektlər haqqında şagirdlərin baza biliklərinin diaqnostikası aparılır. Bu zaman müəllim yazı lövhəsində BİBÖ cədvəlini çəkir.

| Bilirəm | İstəyirəm biləm | Öyrəndim |
|---|---|---|
| | | |

Şagirdlərin meyvə-tərəvəz, ət və süd məhsulları haqqında bildiklərini BİBÖ cədvəlinin 1-ci hissəsində, meyvə-tərəvəz, ət və süd məhsulları haqqında daha nələri bilmək istədiklərini cədvəlin 2-ci hissəsində qeyd edir.




**Fikirləş**

Dərslikdəki mətn oxunur, qəbul etdiyimiz qidanın keyfiyyətli olmasının sağlamlığımız üçün vacib olduğu öyrənilir. Şagirdlərə **54-cü və 55-ci səhifədəki** şəkillərdə gördüklərini danışmaq təklif olunur.

**Şəkil üzrə iş:** Şagirdlər şəkil üzrə danışaraq öz gördüklərini şərh edəcəklər. Onlar müəllimin köməyi ilə şəkildə gördükləri meyvələrin (qarpız, yemiş, nar, xurma, heyva, banan, ərik, şaftalı, üzüm, limon, armud, alma, qoz, fındıq, badam, çiyələk, moruq, albalı), tərəvəzlərin (kələm, kök, badımcan, pomidor, xiyar, bibər, soğan, sarımsaq, turp, göyərti), ət məhsullarının (qoyun, mal əti, toyuq, balıq əti, kolbasa, sosiska, ət və balıq konservlər), süd məhsullarının (qaymaq,  kəsmik, pendir, qatıq, yağ, xama,  şor, süzmə, ayran) adlarını öyrənir və onlar haqqında məlumat alacaqlar.

– Nə üçün hər gün meyvə yemək məsləhət görülür? – sualına cavabda şagirdlər müəllimin köməyi ilə meyvələrin insan orqanizmi üçün çox vacib olduğunu, meyvələrin tərkibində çoxlu sayda vitaminlər olduğunu vurğulayacaqlar.

– Şəkildə gördüyünüz tərəvəzləri və onlardan hazırlanan yeməkləri sadalayın. Bu fəaliyyət zamanı şagirdlər şəkildə kələm, kök, badımcan, pomidor, xiyar, bibər, soğan, sarımsaq, turp, göyərti gördüklərini və bu tərəvəz-




lərdən dolma, borş, lobya və badımcan çığırtması, kükü, müxtəlif növ salatların hazırlandığını misal göstərə bilərlər.

– Tərəvəzin sağlamlıq üçün faydası nədir? – sualına isə şagirdlər tərəvəzlərin də tərkibində çoxlu sayda vitaminlər olduğunu qeyd edəcəklər.

Bu zaman müəllim uşaqlara tapmaca verə bilər:

Mən dirriyin bəyiyəm,
Dolmanın köynəyiyəm.
Məndən yaxşı borş olar,
Kim yesə də, xoş olar.
*(kələm)*

Uşaqlar tapmaca-anaqramın cavabının kələm olduğunu deyəcəklər. Müəllim əlavə olaraq uşaqlardan meyvə və tərəvəzə aid olan tapmacalar soruşa bilər.

– Ət məhsullarını bir-birindən fərqləndirin. Bu fəaliyyət zamanı şagirdlər insanların ən çox mal əti, qoyun əti, toyuq əti və balıq ətindən istifadə etdiklərini söyləyəcəklər. Eyni zamanda onlar kolbasa və sosiskadan da istifadə olunduğunu qeyd edəcəklər.

– Bəs ət məhsullarının sağlamlıq üçün nə kimi faydası var? – şagirdlər ət məhsullarının tərkibində insan orqanizmi üçün vacib olan bəsləyici maddələrin olduğunu söyləyəcəklər. Bədənin ətə olan ehtiyacını ödəmədikdə insanın zəiflədiyini də qeyd edəcəklər.

– Nə üçün səhər yeməyimizin əsasını süd məhsulları təşkil edir? – sualına şagirdlər müəllimin köməyi süd məhsullarında olan bəsləyici maddələrin insan orqanizminə səhər yeməyi zamanı qəbul olunması daha vacibdir, insan səhər yaxşı qidalanarsa, gün ərzində özünü sağlam hiss edər, – deyə cavab verəcəklər.

– Süd məhsullarının faydasından danışın.

Bu fəaliyyət zamanı şagirdlər müəllimin köməyi ilə söyləyəcəklər ki, süd məhsullarının insan sağlamlığına çox böyük faydası var. Bu məhsulların tərkibində çoxsaylı vitaminlər və bəsləyici maddələr var. Buna görə də şagirdlərə meyvə-tərəvəz, ət məhsulları ilə yanaşı, süd məhsullarından da çox istifadə etməyi məsləhət görülür. Xüsusilə də uşaqların süd məhsullarından çox istifadə etməsini onların sağlam böyüməsinə kömək etdiyini qeyd edəcəklər.

– Krossvordu həll edib, göz və sümüklər üçün ən faydalı olan qidaların adlarını tapın. Şagirdlər bu krossvordları həll edərək "balıq və kəsmik" sözlərini oxuyacaqlar və bu qidaların insan sağlamlığı üçün çox vacib olduğunu dərk edəcəklər.

Müəllim "Sağıcıdır mənim nənəm" uşaq mahnısını səsləndirə bilər. Bu həm musiqi dərsi ilə inteqrasiya olunur, həm də ev heyvanlarından südü sağıcıların sağdığını öyrənəcəklər.

Sonra müəllim şagirdlərin aldıqları biliklərə əsaslanaraq BİBÖ cədvəlinin 3-cü hissəsini doldurur.

**Qrup işi** – Müəllim şagirdləri 3 qrupa bölür:

**I qrup:** meyvə-tərəvəzin şəkillərini çəkin;

**II qrup:** ət məhsullarının şəkillərini çəkin;

**III qrup:** süd məhsullarının şəkillərini çəkin.

Qrup işləri tamamlanır. Müzakirə və mübadilə aparılır. Sonra müəllim dərsin möhkəmləndirilməsi məqsədi ilə yazı lövhəsində şagirdlərlə birlikdə klaster qurur:




**Nəticə** – Şagirdlər bu dərsin köməyi ilə öyrənirlər ki, tərkibində orqanizm üçün faydalı maddələr olan qidalar insanın sağlam böyüməsinə və xəstəliklərə qarşı davamlı olmasına kömək edir.

## Mövzu: 22. Düzgün qidalanaq

**St: 4.1.1**

**Öyrənilən obyektlər:**
Qidalanma mədəniyyəti

**Təlim nəticələri:**
Düzgün və vaxtında qidalanmağın sağlam həyat tərzi üçün vacibliyini nümayiş etdirir.
Qidalanma mədəniyyəti anlayışını dərk edir.

**Əldə olunan bacarıqlar**
Bu dərsin köməyi ilə şagirdlər:
– sağlam həyat tərzi üçün düzgün və vaxtında qidalanmağın vacib olduğunu öyrənəcəklər;
– qidalanma mədəniyyəti haqqında məlumat alacaqlar.

**Materiallar və resurslar:**
Dərslik, şəkillər, rəngli karandaşlar, A4 vərəqləri

**Şagirdlərin öyrənilən obyektlərlə bağlı ziddiyyətli fikirləri:**
– istədiyimiz zaman istədiyimiz yeməyi yeyə bilərik;
– quru yeməklər daha xeyirlidir;
– kolbasa, sosiska faydalı qidadır;
– konservlərdən çox istifadə etmək olar.

### ● DƏRSİN PLANI

Bu mövzunun tədrisi zamanı proqnozlaşdırma, BİBÖ, şaxələndirmə, müzakirə iş üsullarından, qrup işi və kollektivlə iş formasından istifadə edilə bilər.

**Proqnozlaşdırma:** Əvvəlcə öyrəniləcək obyektlər haqqında şagirdlərin baza biliklərinin diaqnostikası aparılır. Bu zaman müəllim yazı lövhəsində BİBÖ cədvəlini çəkir.

| Bilirəm | İstəyirəm biləm | Öyrəndim |
|---|---|---|
| | | |

Şagirdlərin meyvə-tərəvəz, ət və süd məhsulları haqqında bildiklərini BİBÖ cədvəlinin 1-ci hissəsində, meyvə-tərəvəz, ət və süd məhsulları haqqında daha nələri bilmək istədiklərini cədvəlin 2-ci hissəsində qeyd edir.




**Fikirləş**

Dərslikdəki mətn oxunur, gün ərzində qəbul olunan qidanın nə zaman, nə qədər və necə yeməyi bilməyin qida mədəniyyəti olduğunu öyrənəcəklər. Şagirdlərə **56-cı və 57-ci səhifədəki** şəkillərdə gördüklərini danışmaq təklif olunur.

**Şəkil üzrə iş:**

Şagirdlər şəkil üzrə danışaraq öz gördüklərini şərh edəcəklər. Onlar müəllimin köməyi ilə şəkildə gördüklərinin səhər və nahar vaxtı yeyilən qidalar olduğunu deyəcəklər.

– Səhər yeməyi süfrəsində hansı qidalar ola bilər? – sualına şagirdlər yumurta, südlü sıyıqlar, çay, mürəbbə, bal və s. ərzaqları sadalaya bilərlər.

– Sizcə, meyvə yemək, yaxud meyvə şirəsini içmək günün hansı vaxtlarında daha faydalıdır? Bu fəaliyyət zamanı şagirdlər müəllimin köməyi ilə – meyvə və ya meyvə şirəsinin yeməkarası qəbul olunması daha düzgündür, – deyə qeyd edəcəklər.




– Şəkildə gördüyünüz qidalar günün hansı vaxtında yeyilir? – Bu zamanı şagirdlər uşaqların nahar vaxtı qidalandıqlarını qeyd edəcəklər.

– Nahar zamanı yeyilən xörəkləri sadalayın. Şagirdlər şorba, borş, aş, dolma, çığırtma, dovğa və s. yeməklərin adlarını sadalayacaqlar.

– Bu qidalardan hansıları şam yeməyinə aiddir? – Bu fəaliyyət zamanı şagirdlər verilmiş şəkillərə əsasən tapşırığı yerinə yetirəcəklər.

Sonra müəllim şagirdlərin aldıqları biliklərə əsaslanaraq BİBÖ cədvəlinin 3-cü hissəsini doldurur.

**Qrup işi** – Müəllim şagirdləri qrupa bölür:

**I qrup:** səhər yeməyi zamanı qəbul olunan qidalar haqqında danışın;

**II qrup:** nahar yeməyi zamanı qəbul olunan qidalar haqqında danışın;

**III qrup:** şam yeməyi zamanı qəbul olunan qidalar haqqında danışın;

Qrup işləri tamamlanır. Müzakirə və mübadilə aparılır.

Müzakirələr zamanı müəllim şagirdlərin diqqətini ət məhsullarına yönəldib onların bu qida ilə bağlı faydalı biliklər əldə etməsinə yardımçı ola bilər. Məsələn:

– Sizcə, hansı daha faydalıdır: təzə ətdən, balıqdan hazırlanmış xörək, yoxsa xeyli müddət əvvəl istehsal olunmuş konserv məhsulu?

– Hansı sağlamlıq üçün xeyirlidir: sosiska, kolbasa ilə qidalanmaq, yoxsa bitkilərdən hazırlanmış yeməklərlə? Bu kimi suallar və verilən cavabların geniş müzakirəsi şagirdlərin sağlam qidanı müəyyən etmək bacarıqlarına yiyələnməsinə kömək edə bilər.

Sonra müəllim dərsin möhkəmləndirilməsi məqsədi ilə yazı lövhəsində şagirdlərlə birlikdə şaxələndirmə qurur.




**Nəticə** – Şagirdlər bu dərsin köməyi ilə öyrənirlər ki, gün ərzində vaxtlı-vaxtında qidalanmaq və qidaları düzgün seçmək sağlamlığı qorumağın əsas şərtidir. Bu, qidalanma mədəniyyətidir.





# Təhlükəsizliyimiz



## Mövzu: 23. Evdə

**St: 4.2.1.**

**Öyrənilən obyektlər:**
Məişət avadanlıqları, məişət cihazları.

**Təlim nəticələri:**
Evdə tək olan zaman təhlükəsizlik qaydalarına diqqət edir.
Müxtəlif alətlərdən və məişət avadanlıqlarından istifadə yollarını sadalayır və bu alətlərdən necə istifadə olunmasını nümayiş etdirir.

**Əldə olunan bacarıqlar**
Bu dərsin köməyi ilə şagirdlər:
– məişət avadanlıqları və məişət cihazları ilə davranış qaydalarını öyrənəcəklər;
– məişət avadanlıqlarını məişət cihazlarından fərqləndirəcəklər;
– böyüklərin evdə olmadığı halda bu cihazlardan istifadə etməyin təhlükəli ola biləcəyini dərk edəcəklər;
– evdə tək olan zaman tanımadıqları insanlara qapı açmağın düzgün olmadığını dərk edəcəklər.

**Materiallar və resurslar:**
Dərslik, şəkillər, iş vərəqləri, rəngli karandaşlar.

**Şagirdlərin öyrənilən obyektlərlə bağlı ziddiyyətli fikirləri:**

– tanımadığımız insanlara da qapı açmaq olar;
– valideynlərimiz evdə olmayanda biz məişət avadanlıqlarından istifadə edə bilərik.




## ● DƏRSİN PLANI

Bu mövzunun tədrisi zamanı proqnozlaşdırma, anlayışın çıxarılması, müzakirə iş üsullarından, cütlərlə və kollektivlə iş formalarından istifadə edilə bilər.

**Proqnozlaşdırma:** Əvvəlcə öyrəniləcək obyektlər haqqında şagirdlərin ilkin baza biliklərinin diaqnostikası aparılır. Bu zaman müəllim yazı lövhəsində anlayışın çıxarılması sxemlərini çəkir.







Müəllim sual işarəsinin yerinə hansı anlayışların yazılacağını soruşur. Şagirdlər məişət avadanlıqları və məişət alətləri sözlərini qeyd edirlər. Müəllim məişət avadanlıqları ilə məişət alətlərinin arasında hansı oxşar və fərqli cəhətlər olduğunu soruşur. Şagirdlər məişət avadanlıqlarının cərəyanla işlədiklərini, məişət alətlərinin isə kəsici, deşici olduğunu qeyd edirlər. Oxşar cəhətlərinin isə hər ikisinin də həyat üçün təhlükəli olduğunu deyəcəklər.




**Fikirləş**

Həyat üçün təhlükə törədən məişət alət və avadanlıqlarından necə istifadə edilməlidir? Dərslikdəki mətn oxunur, şagirdlər hər bir evdə məişət cihazları və alətləri olduğunu və bu əşyaların insanların həyatını yüngülləşdirməklə yanaşı, həm də təhlükəli olduğunu öyrənirlər.

Şagirdlərə **60-cı və 61-ci səhifələrdəki** şəkillərdə gördüklərini danışmaq təklif olunur.

**Şəkil üzrə iş:**

– Şəkildəki uşaqlar nə edirlər? – sualına cavabında şagirdlər qızın mətbəxdə bıcaq götürmək istədiyini, oğlanın isə isti çaydana əl vurduğunu deyəcəklər.

– Evdə hansı elektrik cihazlarından istifadə edirsiniz? – Bu suala cavab olaraq, şagirdlər tozsoran, paltaryuyan, qabyuyan, şirəçəkən, ətçəkən və s. cihazların adlarını sadalayacaqlar.

– Uşaqlar nə üçün bu cihazlardan böyüklərin nəzarəti altında istifadə etməlidirlər? Şagirdlər: – Bu cihazlar elektrik cərəyanı ilə işləyir. Uşaqlar isə təkbaşına bu cihazlardan istifadə edə bilməzlər, – deyə cavab verəcəklər.

– Evdə tək olarkən nələrə diqqət etmək lazımdır? – Şagirdlər: evdə tək olarkən heç bir məişət avadanlığına və məişət cihazına əl vurmamalıyıq, çünki onlar həyat üçün təhlükəli ola bilər, – deyə cavab verəcəklər.

– Evdə tək olduğunuz zaman tanımadığınız insanlar sizdən hər hansı səbəbdən qapını açmağı xahiş edərsə, siz necə hərəkət edərsiniz? – Şagirdlər təbii ki, qapını tanımadığımız insanlara açmayacağıq, çünki valideynlərimiz bunu bizə dəfələrlə xatırladır – cavabını verəcəklər. Müəllim isə bunu bir daha vurğulayıb, diqqətli olun, tanımadığınız şəxslər üçün qapını açmayın, – deyərək bir neçə həyati nümunə söyləyə bilər.

– Kəsici, deşici əşyalarla necə davranmaq lazımdır? – sualına isə şagirdlər “onlar da həyat üçün təhlükə törədə bilər. Ona görə də bu əşyalarla da ehtiyatla davranmaq lazımdır. Hətta evdə tək olan zaman bu əşyalara toxunmaq olmaz” söyləyəcəklər.

– Uşaqların səhvi nədədir? Bu səhvlər nələrə səbəb ola bilər? Bu fəaliyyət zamanı şagirdlər şəkillər üzərində öz fikirlərini şərh edəcəklər. Bu tapşırıq, eyni zamanda şifahi nitqin inkişafına xidmət edəcək.

**Cütlərlə iş –** Müəllim şagirdləri cütlərə bölür: Hər cütə məişət avadanlıqlarının və məişət alətlərinin adlarını yazmağı və şəklini çəkməyi tapşırır. Cütlər işlərini tamamlayırlar. Sonda müzakirə və mübadilə aparılır.

**Nəticə –** Bu dərsin köməyi ilə şagirdlər öyrənirlər ki, məişət cihazları ilə ehtiyatsız davrandıqda həyat üçün təhlükə yarana bilər. Ona görə də uşaqlar bu cihazlardan yalnız böyüklərin nəzarəti altında istifadə etməlidirlər. Kəsici, deşici əşyalarla ehtiyatla davranmaq lazımdır. Evdə tək olan zaman naməlum insanlara qapı açmaq olmaz.

## Mövzu: 24. Həyətdə və küçədə

**St: 1.2.2., 4.2.2.**

**Öyrənilən obyektlər:**
Sayıqlıq və təhlükəsizlik

**Təlim nəticələri:**
Küçədə, həyətdə təhlükəsiz davranış qaydalarını, rast gəldiyi təhlükəli əşyalara toxunmağın və tanımadığı insanlarla ünsiyyət qurmağın təhlükəsini şərh edir;
Yaşadığı evin ətrafında yerləşən obyektləri təsvir edir.

**Əldə olunan bacarıqlar**
Bu dərsin köməyi ilə şagirdlər:
– tanımadıqları insanlarla ünsiyyət qurmağın təhlükəli olduğunu öyrənəcəklər;
– küçədə, həyətdə rast gəldikləri təhlükəli əşyalara toxunmamağı dərk edəcəklər;
– həyətdə oynayarkən uzağa getməyin məsuliyyətini dərk edəcəklər;
– həyətdə oynayan zaman heyvanları incitməyin düzgün olmadığını anlayacaqlar;
– yaşadıqları ərazini sadə şəkildə təsvir etməyi bacaracaqlar.

**Materiallar və resurslar:**
Dərslik, şəkillər.

**Şagirdlərin öyrənilən obyektlərlə bağlı ziddiyyətli fikirləri:**
– küçədə və ya həyətdə olarkən biz istənilən hərəkətləri edə bilərik, istədiyimiz əşyalara əl vura bilərik;
– küçədə heyvanlarla oynayan zaman onlarla zarafat edə bilərik.

### ● DƏRSİN PLANI

Bu mövzunun tədrisi zamanı proqnozlaşdırma, müzakirə iş üsullarından, qrup işi və kollektivlə iş formalarından istifadə edilə bilər.

**Proqnozlaşdırma:** Əvvəlcə öyrəniləcək obyektlər haqqında şagirdlərin baza biliklərinin diaqnostikası aparılır. Bu zaman müəllim uşaqlara informasiya mənbələrindən aldığı bir məlumatı şagirdlərə çatdırır.

Xarici ölkələrin birində həyətdə oynayan 8 yaşında bir uşaq yerdə bir qələm görür. Qələm onun xoşuna gəlir və o, qələmi götürmək istəyir. Qələmi əlinə alan kimi qələm partlayır




və uşaq yaralanıb ömürlük şikəst qalır. Demək, pisniyyətli insanlar bu qələmin içinə partlayıcı maddə qoyublar ki, kim götürsə, o insana təhlükə törətsin. Uşaqlar, əgər uşaq qələmə toxunmasaydı, şikəst olardımı?

Şagirdlər “xeyr” deyə cavab verəcəklər. Müəllim uşaqlara hər zaman diqqətli olmağı tövsiyə edir və bugünkü dərsin mövzusunun həyətdə və küçədə təhlükəsizlik qaydalarına əməl edilməsi olduğunu söyləyir.

**Fikirləş**

– Həyətdə və küçədə gördüyünüz əşyalara toxunmaq olarmı? Həyətdə və küçədə daha hansı təhlükələrlə rastlaşmaq mümkündür?

Dərslikdəki mətn oxunur, şagirdlər həyət və küçələrinə bələd olduqları halda belə diqqətli olmalarını öyrənəcəklər.

Şagirdlərə **62-ci və 63-cü səhifələrdə**ki şəkillərdə gördüklərini danışmaq təklif olunur.

**Şəkil üzrə iş:**

Şagirdlər şəkildə qızla oğlanın qumla oynadığını, iki qızın yelləncəkdə yelləndiyini, digər uşaqların qaçdı-tutdu və pişiklə oynadıqlarını qeyd edəcəklər.




– Sizcə, həyətdə oynayan bu uşaqlardan hansıları səhv hərəkət edirlər? – Bu fəaliyyət zamanı şagirdlər iki oğlanın pişiyi incitdiyini və “qaçdı-tutdu” oynayan uşaqların həyətdən kənara – avtomobil yoluna tərəf qaçdıqlarını söyləyəcəklər. “Bu, təhlükəlidir, avtomobil onları vura bilər”, – deyə cavab verəcəklər.

– Heyvanları nə üçün incitmək olmaz?– Heyvanların insanın qayğısına ehtiyacı var. İnsanlar heyvanları incitməməli, əksinə, onların qayğısını çəkməlidirlər. Həm də heyvanları incidəndə onlar qəzəblənir və insanlara hücum edib xətər yetirirlər. Şəkildə gördüyümüz bu uşaqlar da düz hərəkət etmirlər. Onlar başa düşmürlər ki, pişik qəzəblənər və üstlərinə atılıb onlara zərər verə bilər. Ona görə də heyvanlarla oynayan zaman hərəkətlərimizə fikir verməliyik, – kimi cavablar verəcəklər.

– Küçənizi yaxşı tanıyırsınızmı? Evinizin ətrafında nələrin olduğunu söyləyə bilərsinizmi?
– Şagirdlər öz küçə və məhəllələrini təsvir edəcəklər. Evlərinin yaxınlığında yerləşən ictimai iaşə obyektlərinin, market və supermarketlərin adlarını sadalayacaqlar. Müəllim onlara sual verə bilər:

– Bu sizə nə üçün lazımdır?– Şagirdlər hər bir uşağın öz küçəsini tanımasının vacib olduğunu qeyd edəcəklər. Onlar təsadüf nəticəsində valideynlərindən ayrı düşüb yollarını aza bilərlər. Bu zaman onlar yaxınlıqda olan polislərə müraciət edərkən öz küçələrini təsvir etməli olurlar. Bu da evlərini tapmaqda polisə yardımcı olmaqdır, – deyə cavab verəcəklər.

– Tanımadığınız insanlarla danışmaq nə üçün təhlükəli ola bilər? – sualına isə “tanımadığımız insanların bəziləri pisniyyətli ola bilərlər. Ona görə də heç vaxt tanımadığımız insanlarla ünsiyyət qurmaq olmaz”, – deyə cavab verəcəklər.

– Sahibsiz qutu və bağlamalara nə üçün toxunmaq olmaz? – sualına isə şagirdlər dərsin əvvəlində müəllimin danışdığı hadisəni xatırladaraq “sahibsiz qutu və əşyalara toxunsaq, təhlükələrlə üzləşə bilərik” cavabını verəcəklər.

– Bu uşaqlar həyatları üçün təhlükə yaradırlar. Deyə bilərsinizmi, bu hansı təhlükələrdir?

Bu fəaliyyət zamanı şagirdlər şəkillər üzərində öz fikirlərini şərh edəcəklər. Bu tapşırıq eyni zamanda şifahi nitqin inkişafına xidmət edəcək.

**Qrup işi –** Müəllim şagirdləri 3 qrupa bölür. Onlara bir neçə cümlə ilə fikirlərini bildirmələrini tapşırır.

**I qrup** – küçədə sahibsiz heyvanların təhlükəsi;

**II qrup** – tanımadığınız insanların təhlükəsi;

**III qrup** – şübhəli əşyaların təhlükəsi.

Şagirdlər müəllimin verdiyi tapşırıqları yerinə yetirirlər. Müzakirə və mübadilə aparılır.

Müəllim şagirdlərin nəzərinə çatdırır:

1. Heç bir zaman təkbaşına həyətinizdən və küçənizdən uzaqlaşmayın. Küçədə tanımadığınız insanlar sizi söhbətə çəkərsə, sizə konfet, şirniyyat təklif edərsə, dərhal onlardan uzaqlaşın.
2. Rastlaşdığınız sahibsiz qutu və bağlamalara toxunmayın.

**Nəticə –** Bu dərsin köməyi ilə şagirdlər öyrəndilər ki, təkbaşına həyətdən uzağa getmək, həyətdə və küçədə heyvanları incitmək, yad insanlarla ünsiyyətə girmək, naməlum əşyalara toxunmaq təhlükəlidir. Şübhəli əşya görən zaman böyüklərə xəbər vermək lazımdır.

## Mövzu: 25. Yolda və nəqliyyatda

**St: 4.2.3., 4.2.4.**

**Öyrənilən obyektlər:**

Nəqliyyat vasitələrində davranış, yol hərəkəti qaydaları

**Təlim nəticələri:**

Sadə yol nişanlarını tanıyır, fərqləndirir və izah edir.

Nəqliyyat vasitələrini tanıyır.

**Əldə olunan bacarıqlar**

Bu dərsin köməyi ilə şagirdlər:

– nəqliyyat vasitələrindən istifadə qaydalarını öyrənəcəklər;

– yol hərəkəti nişanlarını tanıyacaqlar.

**Materiallar və resurslar:**

Dərslik, şəkillər, iş vərəqləri, rəngli karandaşlar.

**Şagirdlərin öyrənilən obyektlərlə bağlı ziddiyyətli fikirləri:**

– təyyarə, gəmi nəqliyyat vasitəsi deyil;

– metro ən sürətli gedən nəqliyyat vasitəsidir;

– avtomobili uşaqlar da idarə edə bilərlər;

– nəqliyyatda olarkən uşaqlar sərbəst hərəkət edə bilərlər.




### Fikirləş

Nəqliyyatın insanların həyatında nə kimi rolu var? Bəs nəqliyyatda olarkən hansı qaydalara əməl etməliyik? Dərslikdəki mətn oxunur, şagirdlər şəhərdə insanların avtobuslardan və metrolardan istifadə etdiklərini və bunların şəhərdaxili nəqliyyat vasitəsi olduğunu öyrənirlər.

Şagirdlərə **64-cü və 65-ci səhifələrdəki** şəkillərdə gördüklərini danışmaq təklif olunur.

**Şəkil üzrə iş:**

– Şagirdlər şəkildə nə görürlər? – sualına magistral yolda avtomobillərin hərəkətini, svetoforu, yeraltı və yerüstü piyada keçidlərini və insanların hərəkətini gördüklərini deyəcəklər.

– Avtomobillərin hərəkət etdiyi yollarda nələr qoyulur?

– Avtomobillərin hərəkət etdiyi yollarda svetoforlar, piyada keçidləri və yol nişanları var, – deyə cavab verəcəklər.

– Yoldakı ağ zolaqlar nə üçündür?

– Bu zolaqlar piyadaların keçməsi üçündür, – deyə cavab verəcəklər.

## ● DƏRSİN PLANI

Bu mövzunun tədrisi zamanı proqnozlaşdırma, klaster, müzakirə iş üsullarından, cütlərlə və kollektivlə iş formalarından istifadə edilə bilər.

**Proqnozlaşdırma:** Əvvəlcə öyrəniləcək obyektlər haqqında şagirdlərin baza biliklərinin diaqnostikası aparılır. Bu zaman müəllim yazı lövhəsində nəqliyyat vasitələrinin adlarını yazır və onları oxlar çəkməklə qruplaşdırmağı tapşırır.

Şagirdlər bu tapşırığı yerinə yetirərkən nəqliyyatların hansı növə aid olduğunu öyrənəcəklər.

| | | |
|---|---|---|
| | təyyarə | |
| | avtobus | |
| yerüstü | gəmi | yeraltı |
| | avtomobil | |
| hava | metro | su |
| | qayıq | |
| | helikopter | |




– Gəlin birlikdə svetofordakı rənglərin mənasını ayırd edək.

*Üç gözü var, üç sözü:*
*Biri deyir – Dayan!*
*Biri deyir – Hazırlaş!*
*Biri deyir – Keç!*

Şagirdlər dayan–qırmızı, hazırlaş–sarı, keç-yaşıl rəngin olduğunu deyəcəklər.

– Sizcə, şəkildəki svetoforlardan hansıları piyadalar, hansıları sürücülər üçündür?

Şagirdlər "İkili svetoforlar piyadalar, üçlü svetoforlar isə sürücülər üçündür" cavabını verəcəklər.

– Şəkildəki insanlar yol hərəkəti qaydalarına necə əməl edirlər?

–İnsanlar yol hərəkəti qaydalarına düzgün əməl edirlər.Onlar svetofordan, yeraltı və yerüstü keçidlərdən istifadə edirlər, – deyə cavab verəcəklər.

– İnsanlar yol hərəkəti qaydalarına əməl etməsələr, nə baş verər**?**

Bu sualın cavabında şagirdlər "insanlar yol hərəkəti qaydalarına əməl etməsələr, təhlükələrlə üzləşə bilərlər, onları maşın vura bilər, qəzalar baş verə bilər", – deyəcəklər.

– Şəkildəki uşaqlardan hansıları nəqliyyatda davranış qaydalarına necə əməl edirlər?– Şagirdlər "nəqliyyat hərəkətdə olarkən gəzişmək olmaz", "qapıya söykənmək olmaz", "oturacaqların üstünə çıxmaq olmaz" və s. nümunələr göstərəcəklər.

– Bu işarələrin mənasını necə izah edə bilərsiniz?

Şəkildə qız oğlana bu işarələri göstərərək nəqliyyatda olarkən qaçmaq olmaz və qapıya söykənmək olmaz qaydalarını nümayiş etdirir.

– Ətrafdakı insanlar bu oğlana niyə narazılıqla baxırlar?

– Oğlan insanları itələyərək keçir. Bu da düzgün deyil, – deyə cavab verəcəklər.

"Yol hərəkəti qaydalarına aid nişanları seçin". Bu fəaliyyət zamanı şagirdlər yol hərəkəti qaydalarına aid nişanların altında verilmiş kvadratları rəngləyə, yaxud işarələyə bilərlər.

**Qrup işi –** Müəllim şagirdləri 4 qrupa bölür. Onlara bir neçə cümlə ilə fikirlərini bildirmələrini tapşırır.

**I qrup** – hava nəqliyyatında
**II qrup** – su nəqliyyatında
**III qrup** – yeraltı nəqliyyatda
**III qrup** – yerüstü nəqliyyatda

Şagirdlər müəllimin verdiyi tapşırıqları yerinə yetirirlər. Müzakirə və mübadilə aparılır.

**Nəticə** – Bu dərsin köməyi ilə şagirdlər öyrənirlər ki, yol hərəkəti qaydaları və yol nişanları insanların təhlükəsiz hərəkəti üçündür. Yolda hərəkət zamanı və nəqliyyatdan istifadə edərkən bu qaydalara əməl etmək vacibdir.

## Mövzu: 26. Təbii fövqəladə hadisələr

**St: 4.3.1., 4.3.3.**

**Öyrənilən obyektlər:**
Təbii fövqəladə hadisələr

**Təlim nəticələri:**
Təbii fövqəladə hadisələri təsvirlərdə tanıyır.

Baş verən hadisə zamanı təhlükəsizlik qaydalarına əməl edir.

**Əldə olunan bacarıqlar**
Bu dərsin köməyi ilə şagirdlər:

– təbii fövqəladə hadisələri təsvirlərdə tanıyacaqlar.

– təbii fövqəladə hadisələri və texnogen qəzaları bir-birindən fərqləndirəcəklər.

**Materiallar və resurslar:**
Dərslik, şəkillər.

**Şagirdlərin öyrənilən obyektlərlə bağlı ziddiyyətli fikirləri**:

– təbii fövqəladə hadisələr və texnogen qəzalar bir-birindən fərqlənmirlər;

– təbii fövqəladə hadisələr insanlar tərəfindən törədilir.

### ● DƏRSİN PLANI

Bu mövzunun tədrisi zamanı proqnozlaşdırma,Venn diaqramı, anlayışın çıxarılması, müzakirə iş üsullarından və kollektivlə iş formalarından istifadə edilə bilər.

**Proqnozlaşdırma:**

Əvvəlcə öyrəniləcək obyektlər haqqında şagirdlərin ilkin baza biliklərinin diaqnostikası aparılır. Bu zaman müəllim uşaqlara anlayışın çıxarılması sxemlərini qurur.




Müəllimin köməyi ilə şagirdlər bu hadisələrin təbii fövqəladə hadisələr olduğunu anlayırlar.




**Fikirləş**

Bu hadisələr hansı təhlükələri yaradır? Dərslikdəki mətn oxunur, şagirdlər yarana bilən qəzalar zamanı xilasedicilərin köməyə gəldiklərini öyrənəcəklər.

Şagirdlərə **66-cı və 67-ci səhifələrdəki** şəkillərdə gördüklərini danışmaq təklif olunur.

**Şəkil üzrə iş:**

Şagirdlər şəkildə zəlzələ baş verdiyini qeyd edəcəklər.

– Zəlzələ zamanı nə baş verir? – Şagirdlər müəllimin köməyi ilə qeyd edəcəklər ki, zəlzələ insanlar tərəfindən törədilməyən təbii fövqəladə hadisədir. Zəlzələ zamanı yer titrəyir, dağıntılar əmələ gəlir.

– Sizcə, zəlzələ baş verməsi insanlardan asılıdırmı?

Şagirdlər:

– Zəlzələnin baş verməsi insanlardan asılı deyil, təbii fövqəladə hadisədir, – deyə cavab verəcəklər.

– Zəlzələ zamanı özümüzü necə qoruya bilərik?




– Zəlzələ zamanı əgər sinifdə olsaq, bu zaman müəllimin göstərişi ilə partaların altında gizlənə, yox əgər evdə olsaq, bu zaman valideynlərin göstərişi ilə stolun altında gizlənə bilərik, – deyə şagirdlər cavab verəcəklər.

– Şəkildə gördüklərinizi danışın. Zəlzələ zamanı yer səthi bir-birindən aralanır. Bu zaman çoxmərtəbəli binaların, ağacların qarşısında dayanmaq olmaz. Onlar aşa bilərlər, bu da çox təhlükəlidir. Evdə və sinif otağında olarkən isə hündür əşyaların qarşısında durmaq olmaz, – deyə şagirdlər söyləyəcəklər.

– Zəlzələnin baş verməsi insanlardan asılı deyil. Bəs yanğın necə? – Şagirdlər müəllimin köməyi ilə deyəcəklər ki, zəlzələdən fərqli olaraq yanğın həm təbii, həm də texnogen xarakterli hadisədir. Texnogen qəzalar isə insanların diqqətsizliyi üzündən baş verir.

– Aşağıdakı şəkillərdə subasma, sürüşmə, güclü külək göstərilmişdir. Hər şəklin altından hadisənin adını yazın. Bu fəaliyyət zamanı şagirdlər hər şəklin altından hadisəyə uyğun "subasma", "sürüşmə", "güclü külək" sözlərini yazacaqlar.

Müəllim dərslikdə olan "Yadda saxla!" işarəsi altında verilmiş qaydaları şagirdlərin nəzərinə çatdırır:

Zəlzələ zamanı eyvana çıxmaq, pilləkənlə düşmək və liftə minmək olmaz.

**Nəticə** – Bu dərsin köməyi ilə şagirdlər öyrəndilər ki, qəza baş verərsə, xilasedicilər gələnə qədər hər bir insan özünü mühafizə etməyi bacarmalıdır. Bunun üçün qəza zamanı davranış qaydalarına və böyüklərin göstərişlərinə dəqiq əməl etmək lazımdır. Bu qaydalara əməl etsələr, insanlar öz sağlamlıqlarını və təhlükəsizliyini qorumuş olarlar.

## Mövzu: 27. Qəza baş verərsə

**St: 4.3.2., 4.3.3.**

**Öyrənilən obyektlər:**
Texnogen hadisələr

**Təlim nəticələri:**
Texnogen qəzaları təsvirlərdə tanıyır.
Baş verən qəzalar zamanı təhlükəsizlik qaydalarına əməl edir.

**Əldə olunan bacarıqlar**
Bu dərsin köməyi ilə şagirdlər:
– texnogen qəzaları təsvirlərdə tanıyacaqlar;
– texnogen qəzaları və təbii fövqəladə hadisələri bir-birindən fərqləndirəcəklər;
– qəzalar zamanı təhlükəsizlik qaydalarını öyrənəcəklər;
– qəzalardan mühafizə vasitələrini tanıyacaqlar.

**Materiallar və resurslar**:
Dərslik, şəkillər

**Şagirdlərin öyrənilən obyektlərlə bağlı ziddiyyətli fikirləri:**
– təbii fövqəladə hadisələr və texnogen qəzalar bir-birindən fərqlənmirlər;
– texnogen qəzalar insanlar tərəfindən törədilmir.

### ● DƏRSİN PLANI

Bu mövzunun tədrisi zamanı proqnozlaşdırma,Venn diaqramı, anlayışın çıxarılması, müzakirə iş üsullarından və kollektivlə iş formalarından istifadə edilə bilər.

**Proqnozlaşdırma:**
Əvvəlcə öyrəniləcək obyektlər haqqında şagirdlərin baza biliklərinin diaqnostikası aparılır. Bu zaman müəllim uşaqlara anlayışın çıxarılması sxemlərini qurur.




Müəllimin köməyi ilə şagirdlər bu hadisələrin texnogen qəzalar olduğunu anlayırlar.




**Fikirləş:**
Bu hadisələr hansı təhlükələri yaradır? Dərslikdəki mətn oxunur, şagirdlər yarana bilən qəzalar zamanı xilasedicilərin və yanğınsöndürənlərin köməyə gəldiklərini öyrənəcəklər.
Şagirdlərə **68-ci və 69-cu səhifələrdəki** şəkillərdə gördüklərini danışmaq təklif olunur.
**Şəkil üzrə iş:**
Şagirdlər yanğının baş verdiyini qeyd edəcəklər.
– Yanğının baş verməsi insanlardan necə asılıdır? Şagirdlər müəllimin köməyi ilə deyəcəklər ki, zəlzələdən fərqli olaraq yanğın həm təbii, həm də texnogen xarakterli hadisədir. Texnogen qəzalar isə insanların diqqətsizliyi üzündən baş verir.
– Yanğın zamanı necə hərəkət etmək lazımdır? Şagirdlər şəkildə gördüklərini şərh edəcəklər. Onlar yanğın zamanı, ilk növbədə, yanğınsöndürmə idarəsinə zəng vurulmasını, daha sonra isə ağızlarını qəzalardan mühafizə vasitələri ilə (respirator) və ya yaş dəsmalla bağlayıb, aşağı əyilərək qapıya qədər getmək lazım olduğunu söyləyəcəklər.




– Respirator və maskadan nə üçün istifadə edirlər? Bu sualın cavabına şagirdlər tüstüdən və zərərli qazlardan qorunmaq üçün, – deyə cavab verəcəklər.

– Bunlardan hansını sinifdə,hansını məktəbin dəhlizində görmüsünüz? – Bu sualın cavabına şagirdlər sinifdə və məktəbdə gördüklərini qeyd edəcəklər.

– Çərçivələrin içərisinə uyğun nömrələri yazın. Bu fəaliyyət zamanı şagirdlər uyğun nömrələri şəkillərə uyğun qeyd edəcəklər. Beləliklə, 101, 102, 103 və 112 telefon nömrələri ilə bağlı daha ətraflı məlumat alacaqlar

Müəllim şagirdlərin nəzərinə çatdırır:

1. Yanğın baş verərsə, dərhal 101 və ya 112 nömrəli telefonlara zəng vurub xəbər vermək lazımdır. Pəncərələri açmaq, tüstüdən boğulmamaq üçün dəsmalı isladıb ağız-burunu onunla örtmək, döşəməyə uzanıb yavaş-yavaş çıxışa doğru sürünmək lazımdır.

Müəllim dərsin möhkəmləndirilməsi məqsədi ilə şagirdlərlə birgə Venn diaqramı quraraq təbii fövqəladə hadisələrin və texnogen qəzaların bir-birindən oxşar və fərqli cəhətlərini qeyd edəcəklər.

| *İnsanlar tərəfindən törədilən texnogen qəzalar* | *İnsanlar tərəfindən törədilməyən təbii fövqəladə hadisə* |
|---|---|




**Nəticə –** Bu dərsin köməyi ilə şagirdlər öyrəndilər ki, qəza baş verərsə, xilasedicilər gələnə qədər hər bir insan özünü mühafizə etməyi bacarmalıdır. Bunun üçün qəza zamanı davranış qaydalarına və böyüklərin göstərişlərinə dəqiq əməl etmək lazımdır. Bu qaydalara əməl etsələr, insanlar öz sağlamlıqlarını və təhlükəsizliklərini qorumuş olarlar. Qəza zamanı uyğun nömrələrə zəng vurub xəbər vermək lazımdır.

**Əlavə –** Müəllim onu da qeyd edir ki, virus və bakteriyalardan qorunmaq üçün də respirator və maskadan istifadə etmək olar.

# ƏDƏBİYYAT SİYAHISI


1. **Aynur Bünyatova, Sevinc Əmirova.** Yeni, sağlam təhsil texnologiyalarının kiçik məktəblilərin idrak və emosional-iradi proseslərinə təsiri. "Psixologiya" elmi-praktik jurnal. 2017, №3.
2. **Bibixanım İbadova.** Kurikulum üzrə mütəxəssisin fikirləri. Kurikulum jurnalı, 2013, №2
3. "Dərslik necə olmalıdır?". Bakı, 2003.
4. **Həmzəyev M.Ə.** Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı, 2003.
5. "Həyati bacarıqlara əsaslanan təhsil". Bakı, 2006.
6. **Hər suala bir cavab.** Ensiklopedik toplu. I cild. Azərbaycan Tərcümə Mərkəzi, Bakı, 2016.
7. **Qədirov Ə.Ə.** Yaş psixologiyası. Bakı, 2003.
8. **Məmmədov İ.M., Şahverdiyeva S.Z.** Biliklərin əldə edilməsinin asanlaşdırılması təlim prosesinin humanistləşdirilməsinə nail olmaq yollarından biri kimi. "Psixologiya" elmi-praktik jurnal, 2017, №3.
9. **Təhsil lüğəti.** Müasir Təhsil və Tədrisə Yardım Mərkəzi. Bakı, 2011.
10. **Z.A.Veysova.** Fəal interaktiv təlim. Müəllim üçün vəsait. Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu (UNICEF).
11. "İlköğretim". Suna Öztürk, Fevzi Elbistan. İstanbul, 2007.
12. **Франсуа-Мари Жерар, Ксавье Рожье.** Разработка и анализ школьных учебников. Издательство АВ ОВО, 1998.
13. Царство животных. Детская энциклопедия. Москва, "Оникс 21 век", 2000.
14. **Шаповаленко И.В.** Возрастная психология. М., 2005.


**İnternet resursları**


www.youtube.com "Səsli nağıllar"
www.youtube.com "Uşaq kanalları"
www.ensiklopediya.gov.az

**BURAXILIŞ MƏLUMATI**

**HƏYAT BİLGİSİ 1**
*Ümumtəhsil məktəblərinin 1-ci sinfi üçün*
*Həyat bilgisi fənni üzrə dərsliyin (qrif nömrəsi: 2020–008)*
**METODİK VƏSAİTİ**

Tərtibçi heyət:

Müəlliflər: ***Gülər Mehdiyeva***
***Aygün Həşimova***

Redaktor ***Gülər Mehdiyeva***
Bədii və texniki redaktor ***Abdulla Ələkbərov***
Dizayner ***Firuzə İbrahimova***
Korrektor ***Mətanət Kərimova***

**© Azərbaycan Respublikası Təhsil Nazirliyi**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi 7,8. Fiziki çap vərəqi 9,0. Formatı 57x82 $^1/_8$.
Kəsimdən sonra ölçüsü: 195x275. Səhifə sayı 72.
Şriftin adı və ölçüsü: jurnal qarnituru 11-13 pt. Ofset kağızı. Ofset çapı.
Sifariş __. Tiraj 4395. Pulsuz. Bakı–2020.

**Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix:** __________

Nəşriyyat:
**"Aspoliqraf LTD" MMC**
**(Bakı, AZ 1052, F.Xoyski küç., 151)**

Çap məhsulunu istehsal edən:
**"Radius" MMC mətbəəsi**
(Bakı, Binəqədi şosesi, 53)

PULSUZ